Bu bir xalq qəzetidi
ƏDALƏT

## Tankçılarımız "Tank biatlonu" müsabiqəsində yarımfinal mərhələsinə yüksəlib



**”Beynəlxalq Ordu Oyunları - 2020” yarışları çərçivəsində keçirilən ”Tank biatlonu” müsabiqəsində iştirak edən Azərbaycan tank heyəti yarışların növbəti günündə ”Fərdi sürücülük” mərhələsində iştirak ediblər.**

Bu barədə Müdafiə Nazirliyi məlumat yayıb. Bildirilib ki,Azərbaycan tankçıları yer aldıqları qrupda Çin, Belarus və Serbiya tankçıları ilə yarışlarda fərdi ustalıqlarını nümayiş etdiriblər. Tankçılarımız müsabiqənin şərtlərinə əsasən sərrast atəşlə 3 hədəfi məhv edib və marşrut üzrə müəyyən edilmiş məsafəni qısa müddətdə keçərək yarımfinal mərhələsinə yüksəliblər.

## *126 nəfər koronavirusa yoluxdu, 144 nəfər sağaldı*




**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 126 yeni yoluxma faktı qeydə alınıb, 144 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan Trend-ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 3 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 36 435 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 33 847 nəfər müalicə olunaraq sağalıb, 534 nəfər vəfat edib, aktiv xəstə sayı 2054 nəfərdir.

## Türkiyə aviadaşıyıcı istehsalına başlayır

*Bir neçə gün əvvəl Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan yerli şirkətlərə aviadaşıyıcı istehsalı ilə bağlı çağırış edib.*

*Artıq Türkiyədə fəaliyyət göstərən "Kaptanoğlu-Desan Gəmiqayırma" şirkətindən Ərdoğanın çağırışına cavab gəlib.*

*Məlumata görə, şirkətin prezidenti Cenk İsmayıl Kaptanoğlu bu layihəni uğurla həyata keçirə biləcəklərini açıqlayıb:*

*"Aviadaşıyıcı istehsalı "Kaptanoğlu-Desan Gəmiqayırma" şirkəti olaraq bizi həyəcanlandırdı. Şirkətimiz bu layihəni yerinə yetirmək qabiliyyətinə malikdir. Türkiyəyə adından söz etdirəcək bir əsər yarada bilərik".*

## Metro fəaliyyətini sentyabrın 15-dən əvvəl də bərpa edə bilər




**Bakı metropoliteninin fəaliyyətini bərpa etməsi Nazirlər Kabineti yanında Operativ Qərargahın qəbul edəcəyi qərardan asılıdır.**

Bunu mətbuata açıqlamasında ”Bakı Metropoliteni” Qapalı Səhmdar Cəmiyyətinin mətbuat xidmətinin rəhbəri Bəxtiyar Məmmədov deyib. Onun sözlərinə görə,Qərargahın qəbul etdiyi qərara görə, Bakı metropoliteninin stansiyaları fəaliyyətini sentyabrın 15-dək dayandırıb: ”Stansiyaların sərnişin qəbul edəcəyi gün Qərargahın qərarından asılıdır. Stansiyalar sentyabrın 15-i də açıla bilər, hətta həmin vaxtdan əvvəl də. Bu isə ölkədəki epidemiologi vəziyyətdən asılıdır. Əgər vəziyyət tam normallaşarsa, stnasiyalar fəaliyyətini sentyabrın 15-dən əvvəl də açıla bilər. Hələ ki, bu barədə bizə heç bir göstəriş verilməyib. Amma buna baxmayaraq metro stansiyaları fəaliyyətini bərpa etməyə hazırlıqlı vəziyyətdədir”.

Xatırladaq ki, Nazirlər Kabineti yanında Operativ Qərargahın qərarı ilə ölkə ərazisində sərtləşdirilmiş karantin rejiminin müddəti 30 sentyabra qədər uzadılsa da, metro stansiyalarının fəaliyyəti sentyabrın 15-i səhər saat 06:00-a kimi dayandırılıb.

## Aşura keçirmək istəyən 25 nəfər saxlanılıb



**Qaradağ rayonu Sahil qəsəbəsində Aşura mərasimi keçirmək istəyənlər cərimələnib, təşkilatçı inzibati qaydada həbs edilib.**

Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətindən Adalet.az-a verilən məlumata görə, avqustun 30-da Qaradağ rayonu, Sahil qəsəbəsi, B.Əliyev küçəsi, ev 43 ünvanında bir qrup şəxsin dəfələrlə edilən xəbərdarlıqlara baxmayaq, karantin qaydalarını pozaraq Aşura mərasimi keçirməsi barədə Qaradağ RPİ-nin İcimai Təhlükəsizlik Şöbəsinə məlumat daxil olub.

Dərhal Qaradağ RPİ-nin 38-ci Polis Bölməsinin əməkdaşları ilə birgə qeyd edilən ünvan nəzarətə götürülüb. Polis əməkdaşlarının keçirdikləri tədbir zamanı mərasimin təşkilatçısı, qəsəbə sakini Vüsal Tarverdiyev və daha 25 nəfər saxlanılaraq Polis İdarəsinə gətirilib.

İdarədə onlarla profilaktik söhbətlər aparılıb.

Xüsusi karantin rejimi qaydalarını pozan 25 nəfər barəsində inzibati protokollar tərtib olunub və onların hər biri cərimələnib.

**Məclisin təşkilatçısı V.Tarverdiyev barəsində isə məhkəmənin qərarı ilə 10 sutka inzibati həbs qərarı verilib.**

Bu bir xalq qəzetidi
www.adalet.az
ƏDALƏT
Qurucusu: Adil Minbaşıyev
Gündəlik hüquq qəzeti
Qəzet 1990-cı ilin iyulundan çıxır
№ 120 (5780) 1 sentyabr 2020-ci il
Qiyməti 30 qəpik

*Vaqif Tanrıverdiyev*

## BİR ZARAFAT



**Cavan vaxtlarımızda, günlərin birində, özü də keyfimin kəlləçarxa vurduğu bir məqamda evə gələrkən qapıda ”skor-pomoş” maşınının dayandığını gördüm. Keyfim nə qədər göynən getsə də biz az təntidim. Evə daxil olanda gördüm ki, yoldaşım nasazlıyıb, həkim çağırıblar.**

**Həkim də yaşlı bir qadın idi, mən daxil olanda qan təzyiqini ölçürdü.**

**Başladım xəstənin o tərəf, bu tərəfinə keçməyə, tez-tez dəhəkimə müraciət edirdim ki, doktor, xahiş edirəm, yaşı baxın, qoymayın başına bir iş gəlsin.**

**Belə canfəşanlığım yoldaşımı çaşdırmışdı. Baxışları sanki, ”bu nə oyundu çıxarırsan” deyirdi. Bu hayhəşirim həkimə də qəribə gəldi, üzündə bir nisgil hiss etdim: ”belə qayğıkeş kişilər də var, amma bizim ki,...”**

**Bir müddət beləcə davam edən canıyanımlıqdan sonra üzümü həkimə tutub ”yalvardım” ki, həkim, acizanə xahiş edirəm, ölməyə qoymayın, başına bir iş gəlsə, bundan fağırını tapa bilməyəcəm. Həkim əvvəlcə çaşqınlıqla üzünə baxdı, sonra ürəkdən qəh-qəhə çəkdi... - Keçmiş olsun, dedi...**

# “Azərbaycan peyvəndi əldə edən birinci ölkələr sırasında olacaq”



Bax:səh-2

## *Azərbaycanda pandemiya dövründə bu məhsulların istehsalı artıb*



**2020-ci ilin yanvar-iyul aylarında Azərbaycanda kimya sənayesi, əczaçılıq məhsullarının, rezin və plastik kütlə məmulatlarının istehsalı sahələrində 705,9 milyon manatlıq məhsul istehsal edilib.**

Adalet.az-ın məlumatına görə, əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə məhsul buraxılışı əczaçılıq məhsullarının istehsalında 7,8 dəfə, kimya sənayesində 18,8 faiz, rezin və plastik kütlə məmulatlarının istehsalında isə 19,0 faiz artıb.

Əsas kimya məhsullarından metanol istehsalı 26,0 faiz, propilen istehsalı 25,6 faiz, etilen istehsalı 24,3 faiz artıb.

Rezin və plastik kütlə məmulatlarından məsaməli polistirol lövhələr və zolaqların istehsalı 2,6 dəfə, bərk polipropilen boruların istehsalı 25,2 faiz artıb.

## Cinayət törətməkdə şübhəli bilinən 25 nəfər saxlanılıb




**Respublikanın daxili işlər orqanları tərəfindən, gün ərzində törədilmiş 22 cinayətin üstü ”isti izlər”lə açılıb.**

Daxili İşlər Nazirliyinin Mətbuat xidmətindən verilən məlumata görə, axtarışda olduğuna görə ümumilikdə 7 nəfər, o cümlədən borclu şəxs qismində axtarışda olan 3 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilib.

Respublikanın avtomobil yollarında 1 ağır yol-nəqliyyat hadisəsi baş verib, nəticədə 1 nəfər ölüb.

Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 11 fakt müəyyən edilib.

**Cinayət törətməkdə şübhəli bilinən 25 nəfər saxlanılıb.**

## Maştağada yerləşən Qum hamamının bərpası nəzərdə tutulur



***Bir müddət öncə Maştağa qəsəbəsində yerləşən tarixi Qum hamamında təmizlik işlərinə başlanılıb. Abidə məişət tullantılarından və çirkab sulardan təmizlənib.***

***Bunu Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin mətbuat katibi Fariz Hüseynli bildirib.***

***Onun sözlərinə görə, hamamın bərpa-konservasiya olunması məsələsi də gündəmdədir:***

***"Aparılan təmizlik işləri yaxın günlərdə yekunlaşacaq və tarixi abidənin ətrafı dəmir torlarla hasarlanacaq. Qeyd edim ki, tarixi abidə əvvəllər də bir neçə dəfə zibildən təmizlənmişdi, ətrafda yaşayan sakinlərə abidəni zibillədiklərinə görə məsuliyyət daşıdıqları barədə xəbərdarlıq olunmuşdu. Bu vaxta qədər sakinlər yaxınlıqda zibil qutularının olmamasından şikayət edirdilər. Artıq həmin əraziyə yaxın yerdə zibil yeşikləri də qoyulub".***

## *Oxucuların nəzərinə!*

***Pandemiya ilə əlaqədar sərt karantin rejimi uzadıldığına görə qəzetimiz bu ay həftədə 3 dəfə - 2, 4, 6-cı günlər çap olunacaq. Buna görə oxucularımızdan üzr istəyirik.***

## *Gömrükçülər beşbarmaq, dərman və külli miqdarda siqaret müsadirə etdilər*

**Qərb Ərazi Baş Gömrük İdarəsinin əməkdaşları 5 fakt üzrə dərman preparatları, siqaretlər, avtomobil ehtiyat hissəsi və soyuq silahın qanunsuz yolla ölkə ərazisinə gətirilməsinin qarşısını alıblar.**

**Dövlət Gömrük Komitəsindən Adalet.az-a məlumta görə, belə ki, idarənin "Qırmızı Körpü" gömrük postunda Gürcüstan istiqamətindən gələn, 2 ədəd "DAF", 2 ədəd "Mercedes-Benz" və "Ford F-max" markalı yük nəqliyyat vasitələri saxlanılıb.**

**Gömrük baxışı zamanı nəqliyyat vasitələrində gömrük nəzarətindən gizlədilən, 1 ədəd beşbarmaq, 36 qutu dərman preparatı, 1 ədəd avtomobil ehtiyat hissəsi, ümumilikdə 1400 ədəd "Marlboro" markalı siqaret aşkarlanıb. Faktlarla bağlı araşdırma aparılır.**

## *Məktəb direktoru avtobus sürücüsü işləyir?*



**Bakı Nəqliyyat Agentliyi Saatlı rayonunda məktəb direktoru işləyən şəxsin avtobus sürücüsü işləməsi ilə bağlı məlumatlara münasibət bildirib.**

Agentliyin mətbuat katibi Mais Ağayev açıqlamasında yayılan məlumatları təkzib edib:

”Sosial şəbəkələrdə Saatlı rayon Yeni Novruzlu kənd tam orta məktəbinin direktoru Elnur Rzayevin məzuniyyət vaxtı avtobus sürücüsü işləməsi ilə bağlı fikirləri həqiqəti əks etdirmir.

Bildiririk ki, ”BakuBus MMC”-də bu adda sürücü çalışmır. Elnur Rzayevlə əlaqə saxlanılıb və özünün də bildirdiyinə görə o bunu sadəcə paylaşım xatirinə edib”.

”BakuBus” MMC-də sürücü kimi işə qəbul qanunvericiliklə müəyyən olunan sistem əsasında həyata keçirilir. Sürücü kimi işə qəbul olunan namizədlər əvvəlcə xüsusi təlimlərə cəlb olunurlar.

Təlimi keçən namizədlər Əmək Məcəlləsinin və digər qanunvericilik aktlarının tələblərinə müvafiq olaraq daimi əsaslı əmək müqaviləsinin əsasında sürücü vəzifəsinə təyin olunurlar. Bu isə onların əmək hüquqlarının qorunması, həm də sosial təminatlarının həyata keçirilməsi baxımından çox əhəmiyyətlidir” - deyə Mais Ağayev bildirib.

*Arif Əliyev*

## YOLUN HARADI, ey yolçu?



### SÖNMÜŞ MİKROFON QARŞISINDA 60 ilin monoloqu

**Toylara elə həvəslə getmirəm, nəinki yaslara. Niyəsini soruşana deyirəm, toyun səs-küyündən sonra neçə gün özümə gələ bilmirəm. Bir uşaqlıq dostum var, gülür, ”elə deyil” deyir, bilirsən ki, daha qabaqda toyun olmayacaq, amma bu yaslardan biri də sənin üçün var.**

**Cavanlıqda belə sərrast ifadə xoşuma gələrdi. İndi qıcıqlandırır. Əvvəllər çalışardım ki, məni başa düşşünlər, içimi acıb tökərdim. Ona görə çox danışar, çox yazardım. Amma yaşlandıqca, tərsinə olur: az danışır, az yazıram, kimsə sözdə dediyimdən artığını başa düşəndə, özümə əsəbiləşirəm. İllərlə qoruya-qoruya bu çağa gətirib çıxardıqlarıma yad əl dəyəcəyindən qorxuram, nədir?**

**Ümumiyyətlə, görəsən, çoxmu dəyişmişəm o illərdən?**

**(Ardı 4-cü səhifədə)**

## *GÜNÜN LƏTİFƏSİ*

Vəli Xramçaylı diskotekaya gəlir, baxır yer yoxdu, amma barın piştaxtasının qarşısında gözəl bir xanım əyləşib. Vəli xanıma yaxınlaşaraq:

**- Xanım, siz rəqs eləmək istəmirsiniz?**



Xanım:

**- Məmunuyyətlə, istəyirəm.**

Vəli:

**- Lap yaxşı, onda siz gedin rəqs edin, məndə oturum bir-iki yüz qram araq içim.**

# “Azərbaycan peyvəndi əldə edən birinci ölkələr sırasında olacaq”



**Avqustun 31-də Azərbaycan Prezidenti İlham Əliyev Fövqəladə Hallar Nazirliyinin Tibb Mərkəzinin koronaviruslu xəstələrin müalicəsi üçün nəzərdə tutulan modul tipli növbəti hospitalının açılışında videoformatda iştirak edib.**

Adalet.az dövlətimizin başçısının hospitalın açılışındakı çıxışından bəzi məqamları təqdim edir.

”Pandemiya dövründə ölkəmizdə yeni xəstəxanaların tikintisi geniş vüsət almışdır. Bu məqsədlər üçün böyük vəsait ayrılmışdır, bütün imkanlar səfərbər edilmişdir. Çünki mövcud çarpayı fondu imkan vermirdi ki, biz bu dəhşətli pandemiya ilə uğurla mübarizə aparaq. Cəmi altı ay ərzində ölkəmizin çarpayı fondu böyük dərəcədə artırılmışdır”.

”Yeddi modul tipli xəstəxananın tikintisi nəzərdə tutulub. Amma hazırda buna ehtiyac yoxdur. Çünki ölkəmizdə xəstələrin sayı azalır və əgər ehtiyac yaranarsa, əlavə 1400 çarpayılıq xəstəxanalar qısa müddət ərzində inşa oluna bilər”.

”COVID ilə mübarizədə Azərbaycan çox uğurlu fəaliyyət aparır, qəbul edilmiş qərarlar icra edilir, vaxtında və yüksək keyfiyyətlə. Bu və digər amillər imkan verdi ki, biz vəziyyəti nəzarət altında saxlayaq”.

***

**”Xəstəxanalar vaxtında tikilməsəydi, çox ağır vəziyyətə düşə bilərdik”. Bunu Azərbaycan Prezidenti İlham Əliyev Fövqəladə Hallar Nazirliyinin Tibb Mərkəzinin koronaviruslu xəstələrin müalicəsi üçün nəzərdə tutulan modul tipli növbəti hospitalının açılışında deyib.**

”Hazırda COVID xəstələri üçün 46 xəstəxana fəaliyyət göstərir. Bu xəstəxanaların 41-i son 17 il ərzində inşa edilmişdir. Məhz regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının icrası nəticəsində bütün bölgələrimizdə, bütün şəhərlərimizdə müasir tibb ocaqları yaradılıb. Təsəvvür etmək çətin deyil ki, əgər biz bu addımı vaxtında atmasaydıq, bu gün hansı problemlərlə üz-üzə qala bilərdik. Tam məsuliyyətlə deyə bilərəm ki, əgər bu xəstəxanalar vaxtında tikilməsəydi, bu gün biz çox ağır vəziyyətə düşə bilərdik. Nəinki xəstəxanalar tikilib, ən müasir avadanlıqlarla təchiz edilib və bu gün də bu proses davam etdirilir. COVID ilə mübarizədə bizim səhiyyə sistemimizin maddi-texniki bazası xüsusi rol oynayır”.

”Laboratoriyaların sayını böyük dərəcədə - bir neçə dəfə artırmışıq. Pandemiya başlayanda bizim cəmi 6 laboratoriyamız var idi, bu gün biz o laboratoriyaların sayını 45-ə çatdırırıq. Ölkəmizdə 900 mindən çox test keçirilib. Adambaşına düşən testlərin sayına görə Azərbaycan dünya miqyasında qabaqcıl yerlərdədir”.

***

**”Son həftələr ərzində COVID ilə mübarizədə vəziyyət daha müsbətdir”. Bunu Azərbaycan Prezidenti İlham Əliyev Fövqəladə Hallar Nazirliyinin Tibb Mərkəzinin koronaviruslu xəstələrin müalicəsi üçün nəzərdə tutulan modul tipli növbəti hospitalının açılışında deyib.**

”Pandemiya ilə əlaqədar Azərbaycan həkimlərinə xüsusi diqqət göstərilir. Prinsip etibarilə, səhiyyə sistemində çalışan insanlar daim dövlət tərəfindən qayğı ilə əhatə olunur. Tikilmiş xəstəxanalar həkimlərin iş yeridir və həkimlərin həm iş yerlərinin müasirləşdirilməsi, eyni zamanda, onların maliyyə vəziyyətinin yaxşılaşdırılması daim diqqət mərkəzində olub. Pandemiya dövründə bu diqqət daha da genişmiqyaslı olub”.

”Görülən bütün işlər öz səmərəsini verir. Təsadüfi deyil ki, son həftələr ərzində COVID ilə mübarizədə vəziyyət daha müsbətdir. Biz müsbət dinamikanı görürük və ümid edirəm ki, bu dinamika bundan sonra da qorunub saxlanılacaq”.

”Biz Ümumdünya Səhiyyə Təşkilatı ilə ilk günlərdən sıx təmasda idik. Bu gün də bu təmaslar davam edir. Bildiyiniz kimi, Ümumdünya Səhiyyə Təşkilatı Azərbaycanda bu sahədə görülən işlərə çox yüksək qiymət vermişdir və Azərbaycanı nümunəvi ölkə adlandırmışdır. Bu, həqiqətən də belədir. Yəni, görülmüş işlər, bu sahəyə ayrılan dövlət vəsaiti, səfərbərlik işləri, xəstəxanaların, laboratoriyaların inşası, sosial proqramların həyata keçirilməsi, bütün bunlar, əminəm ki, bizim mübarizədə əsas rol oynamışdır. Ona görə bu gün də bu təmaslar davam edir və əminəm ki, birgə səylərlə biz bu məsələni - COVID-in nəzarətdə saxlanmasını təmin edəcəyik”.

***

**”Biz hazırda bir neçə şirkətlə COVID-ə qarşı peyvəndin ölkəmizə gətirilməsi ilə əlaqədar fəal iş aparırıq”. Bunu Azərbaycan Prezidenti İlham Əliyev Fövqəladə Hallar Nazirliyinin Tibb Mərkəzinin koronaviruslu xəstələrin müalicəsi üçün nəzərdə tutulan modul tipli növbəti hospitalının açılışında deyib.**

”Mən ümid edirəm ki, Azərbaycan bu sahədə də peyvəndi əldə edən birinci ölkələr sırasında olacaqdır. Çünki biz artıq bir müddətdir ki, bu məsələ ilə əlaqədar çox fəal iş aparırıq. Ancaq burada əsas şərt bu peyvəndin bütün sınaq mərhələlərindən keçməsidir. Həkimlər yaxşı bilirlər ki, istənilən yeni peyvənd bir neçə mərhələdən keçir və yalnız ondan sonra bazara çıxarılır, insanların vaksinasiyası üçün istifadə olunur. Ona görə bütün mərhələlər, şirkətlərin apardığı araşdırmalar öz nəticəsini verəndən, bütün sınaq testləri aparılandan, beynəlxalq sertifikatlaşdırma aparılandan sonra biz bu peyvəndi ölkəmizə gətirəcəyik. Ondan sonra ümid edirəm demək olacaq ki, bu dəhşətli vəziyyət arxada qalıb”.

”Hazırda ölkəmizdə hər gün 100-dən 200-ə qədər insan yoluxur. Əvvəlki aylarla müqayisədə bu, əlbəttə ki, daha yaxşı nəticədir. Ancaq vəziyyəti daim nəzarət altında saxlamaq üçün gündəlik monitorinq aparılır və aparılacaqdır. Eyni zamanda, yumşalma addımları elə atılmalıdır ki, xəstələrin sayı kəskin artmasın. Bu, əsas məsələdir və burada biz əlbəttə ki, öz addımlarımızı çox ehtiyatla atacağıq”.

# Terror-təxribat təlimləri almış şəxs tutularaq Azərbaycana gətirilib

**Azərbaycan Respublikasının milli təhlükəsizlik maraqlarına yönələn təhdidlərin, terror-təxribat və digər pozuculuq fəaliyyətinin vaxtında aşkar edilməsi və qarşısının alınması istiqamətində Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən kompleks tədbirlər davam etdirilir.**

Adalet.az xəbər verir ki, bu barədə DTX-nin rəsmi saytı məlumat yayıb.

Bildirilib ki, xarici xüsusi xidmət orqanlarının nəzarəti altında Azərbaycan Respublikası vətəndaşlarının seçilərək onlara ölkə hüdudlarından kənarda radikal-ekstremist dini ideyaların aşılanması yolu ilə hərbi təlimlərin keçirilməsi, şəxsiyyətləri gizlədilərək müxtəlif adlarla digər dövlətlərin ərazisindəki hərbi əməliyyatlara cəlb olunmaları barədə toplanılmış materiallar əsasında Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin müvafiq maddələri ilə başlanılan cinayət işi üzrə hazırda istintaq-əməliyyat tədbirləri aparılır.

Araşdırmalar nəticəsində, Azərbaycan Respublikasının vətəndaşı Vəliyev Faliq Qalib oğlunun ictimai təhlükəsizliyi pozmaq, əhali arasında vahimə yaratmaq, dövlət orqanları tərəfindən qərar qəbul edilməsinə təsir göstərmək məqsədilə terrorçuluq cinayət əməllərinin törədilməsi üsulları, odlu silahlardan, partlayıcı maddələrdən və qurğulardan, eləcə də digər ümumi təhlükəli üsullardan və texniki vasitələrdən istifadə ilə əlaqədar hazırlıq keçməsinə, xarici xüsusi xidmət orqanları tərəfindən kəşfiyyat-təxribat xarakterli təlimlərə cəlb edilməsinə, fərdi




ləqəb altında ölkə hüdudlarından kənarda ağır və xüsusilə ağır cinayətlər törətmək məqsədilə yaradılmış qanunsuz silahlı birləşmənin fəaliyyətində iştirak etməsinə əsaslı şübhələr müəyyən edilib.

Faliq Vəliyev Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 12.1, 218.2 (cinayətkar birlikdə (təşkilatda) iştirak etmə), 12.3, 214-3.1-ci (terrorçuluq məqsədi ilə Azərbaycan Respublikasından kənarda təlim keçmə) və 12.1, 279.1-ci (Azərbaycan Respublikasından kənarda qanunvericilikdə nəzərdə tutulmayan silahlı birləşmələrin fəaliyyətində iştirak etmə) maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb olunmuş, barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilərək beynəlxalq axtarış elan edilib. Faliq Vəliyevin Rusiya Federasiyasının ərazisinə keçdikdən sonra gizləndiyi yer müəyyən edilmiş və o, beynəlxalq axtarışa dair qarşılıqlı hüquqi yardım proseduru çərçivəsində saxlanılaraq 2020-ci il avqustun 27-də Azərbaycan Respublikasına ekstradisiya olunub.

**Hazırda cinayət işi üzrə araşdırma davam edir.**

# Vətəndaşın Kamran Əliyevə müraciətindən sonra dərhal cinayət işi başlandı

**Baş prokuror tərəfindən ”Avanqard” turizm şirkətinin direktorunun qanunsuz hərəkətləri barədə daxil olmuş müraciətlər əsasında cinayət işi başlanıb.**

Bu barədə Adalet.az-a Baş Prokurorluğun Mətbuat xidmətindən məlumat verilib. Məlumatda bildirilir ki, xəbər verildiyi kimi, vətəndaşların müraciətlərinin operativ həlli, aşkarlıq və müraciətlərə baxılması zamanı çevikliyin təmin olunması məqsədilə Baş Prokurorluğun instaqram sosial şəbəkəsindəki səhifəsində sual-cavab adlı sessiya (#prokurorluqlasualcavab) keçirilir. Sessiya zamanı daxil olmuş müraciətlər



zəruri tədbirlərin görülməsi məqsədilə Baş Prokurorluğun Mətbuat xidməti tərəfindən dərhal Baş Prokurorluğun rəhbərliyinə, o cümlədən əlaqədar idarə və şöbələrə təqdim olunur. Avqustun 28-də keçirilmiş növbəti sessiya zamanı ”Avanqard” turizm şirkətinin direktoru Yeganə Nağıyevanın vətəndaşları aldadaraq xarici ölkələrə turlar təşkil etmək adı altında müxtəlif məbləğlərdə pul vəsaitlərini dələduzluq yolu ilə ələ keçirməsi ilə bağlı çoxsaylı müraciətlər daxil olmuşdur.

Həmin müraciətlər Baş prokuror tərəfindən nəzarətə götürülməklə ”Avanqard” turizm şirkətinin direktoru Yeganə Nağıyevanın qanunsuz hərəkətləri barədə daxil olmuş ərizələr əsasında Nərimanov Rayon Polis İdarəsinin İstintaq şöbəsində aparılmış araşdırma nəticəsində toplanmış material əsasında 31 avqust 2020-ci il tarixdə Cinayət Məcəlləsinin 178.3.2 (külli miqdarda ziyan vurmaqla dələduzluq) və 308.1-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) maddələri ilə cinayət işi başlanmışdır.

Cinayət işi üzrə istintaqın aparılması Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinə tapşırılmışdır.

Hazırda cinayət işi üzrə intensiv istintaq tədbirləri aparılır, qanun pozuntularına yol vermiş və cinayətin törədilməsində bu və ya digər formada iştirak etmiş şəxslərin cinayət məsuliyyətinə cəlb edilməsi təmin ediləcəkdir.

**Nəticəsi barədə ictimaiyyətə ətraflı məlumat veriləcəkdir.**

# Bahar Muradova: Münaqişəli ailələrdə barışığın cəmi bir dəfə qəbul edilməsi təklif olunub

**Azərbaycanda məişət zorakılığı ilə bağlı sanksiyaların Cinayət Məcəlləsinə daxil edilməsi nəzərdə tutulub.**

Bunu Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova deyib.

Onun sözlərinə görə, Komitə tərəfindən "Məişət zorakılğının qarşısının alınması haqqında" Qanunun tətbiq edilməsi məqsədilə dəyişiklik ediləcək qanunvericilik aktları təhlil olunur. Məişət zorakılığına qarşı mübarizəni daha operativ təmin etmək məqsədilə zorakılıq qurbanlarına daha çevik dəstəyin göstərilməsi, mühafizə orderlərinin verilməsinin optimallaşdırılması, qurbanların sığınacaqlara yerləşdirilməsinin asanlaşdırılması və bununla əlaqədar digər məsələrin qəbul edilməsi diqqət mərkəzindədir.

B.Muradova qeyd edib ki, bu təkliflərin gerçəkləşdirilməsi və gender-əsaslı zorakılıqla mübarizəni həyata keçirmək üçün Komitənin təşəbbüsü ilə "Azərbaycan Respublikasında məişət zorakılığının aradan qaldırılması və onunla mübarizəyə dair 2020-2023-cü illər üçün Milli Fəaliyyət Planı"nın layihəsi hazırlanıb. Milli fəaliyyət Planında ən vacib məsələlərdən biri məişət zorakılığına dair qanunverciliyin təkmilləşdi-



rilməsidir: **"Bəzən zorakılıq hallarının ağır olması və hadisəni törədənin inzibati qaydada məsuliyyətə cəlb edilməsi həmin ailələrdə məişət zorakılığının davamlı olmasını göstərir. Bundan çıxış edərək hazırlanan təkliflərdə məişət zorakılığı ilə bağlı sanksiyaların cinayət məcəlləsinə daxil edilməsi nəzərdə tutulub. Təcrübədə məişət zorakılığı ilə bağlı hallar baş verdikdə zorakılığı törədənlə məişət zorakılığı qurbanının barışığı ilə işə xitam verilir.**

**Nəticədə zorakılığı törədən şəxs tərəfindən dəfələrlə bu hal təkrarlanır və cəzasızlığa gətirib çıxarır. Bu səbəbdən Komitə münaqişəli ailələrdə barışığın qanunvercilikdə cəmi bir dəfə qəbul olunmasını təklif edib".**

# Qubadlının işğalının 27-ci ildönümü ilə bağlı Dağlıq Qarabağın azərbaycanlı icması bəyanat yayıb



**Qubadlı rayonunun Ermənistan Silahlı Qüvvələri tərəfindən işğalının 27-ci ildönümü ilə əlaqədar Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması bəyanat yayıb.**

İcmadan Adalet.az-a verilən məlumata görə, bəyanatda deyilir: ”1993-cü ilin 31 avqust tarixində Qubadlı rayonu Ermənistan Silahlı Qüvvələri tərəfindən işğal edilib.

Ermənistanın təcavüzü nəticəsində 238 nəfər Qubadlı sakini şəhid olub, 316 nəfər əlil, 100 nəfərdən çox insan isə itkin düşüb. İşğal nəticəsində rayonun inzibati mərkəzi və 93 kəndi tamamilə dağıdılaraq talan edilib, 40 mindən çox Qubadlı sakini məcburi köçkünə çevrilib.

Qubadlının işğalı nəticəsində 445 min kvadrat metr mənzil fondu, 4 tibb ocağı, 6 uşaq bağçası, 61 ümumi təhsil məktəbi, 10 mədəniyyət evi, 24 klub, 1 tarix- diyarşünaslıq muzeyi, 60 kitabxana dağıdılıb, işğalçılar 94 kənd və qəsəbəni, 205 mədəni-məişət obyektini, 12 tarixi abidəni isə yandırıb, talan ediblər.

Aşağı Mollu və Həmzəli kəndlərinin hər birində 9, Əliquluuşağı kəndində 5, ”Gavur dərəsi” deyilən ərazidə isə 4-cü əsrə aid 1 qədim mağara, 5-ci əsrdə tikilmiş Göy qala, Muradxanlıda ”Qalalı” qalası, Xocamsaxlı kəndindəki tarixi abidələrin hamısı düşmən tapdağı altında qalıb.

Ermənistanın münaqişənin əvvəlində iddia etdiyi əzəli torpaqlarımız olan keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin hüdudlarından kənarda yerləşən Qubadlı rayonu da daxil olmaqla ətraf 7 rayonu işğal etməsi, münaqişənin məhz Ermənistanın Azərbaycan ərazilərini güc yolu ilə ilhaq etmək niyyətindən qaynaqlandığını sübut edir.

Son illərdə Ermənistan tərəfindən Qubadlı da daxil olmaqla, işğal altındakı Azərbaycan torpaqlarında qanunsuz məskunlaşdırma siyasətinin daha da gücləndirilməsi onu göstərir ki, Ermənistan ərazilərimizi işğal altında saxlamaq və işğalın nəticələrini möhkəmləndirmək niyyətindən əl çəkməyib və münaqişənin sülh yolu ilə həllində maraqlı deyil.

Bəyan edirik ki, münaqişənin həlli yalnız Ermənistan Silahlı Qüvvələrinin bütün işğal olunmuş Azərbaycan ərazilərindən çıxarılmasından və etnik təmizləməyə məruz qalmış azərbaycanlıların öz doğma torpaqlarına qayıdışından sonra mümkündür. Bütün məcburi köçkünlər kimi qubadlılar da öz doğma torpaqlarına geri dönəcəklər”.

# TRAMP: "İĞTİŞAŞLAR GÜCLƏ YATIRILMALIDI"




**"Birləşmiş ştatların Demokratların iddarə etdikləri şəhərlərdə iğtişaşları yalnız güclə yatırmaq olar". ABŞ prezidenti Donald Tramp bu sözlərlə twitter səhifəsində çıxış edib.**

"Demokratların idarə etdikləri, cinayətkarlığın ən yüksək səviyyədə olduğu, şəhərlərimizdə zorakılığın qarşısını yalnız güc tədbiq etməklə ala bilərik" - deyə Ağ Ev rəhbəri bildirib. Minnepolisdə afroamerikalı Corc Floydun polis tərəfindən öldütülməsi ilə başlayan iğtişaşlar, üç aydır ki, davam edir. Portlend polisi baş verənləri qiyam kimi qiymətləndirir və bununla bağlı həbslər həyata keçirir. Tramp bu şəhərlərin rəhbərlərinə iğtişaşların və zorakılığın qarşısının alınmasının alınması üçün qvardiyanın gücündən istifadə etməyi tappşırıb. 3 noyabr tarixində ABŞ - da prezident seçkiləri keçiriləcək. Hazırki prezident Donald Tramp və vitse prezident Mayk Pensə qarşı, demokratların namizədləri Co Bayden və vitse prezident kürsüsünə namizəd Kamala Xarris mübarizə aparacaqlar.

**Rüstəm Hacıyev**

# Bakıda tarixi abidənin ərazisinin zəbt olunmasının qarşısı alındı

**Suraxanı rayonunda tarixi abidənin ərazisinin zəbt olunmasının qarşısı alınıb. Bu barədə Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətindən məlumat verilib. Bildirilib ki, hazırda Mədəniyyət Nazirliyi tərəfindən tarix-mədəniyyət abidələrinin qorunması istiqamətində işlər aparılır:**

"Suraxanı rayonunda yerləşən və öz unikallığı ilə digər Abşeron ovdanlarından fərqlənən "Müzəffər" ovdanının ətrafı bir müddət öncə qanunsuz olaraq zəbt edilib. Məsələ ilə bağlı Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti tərəfindən Suraxanı Rayon İcra Hakimiyyətinə ünvanlanan müraciətdən sonra abidənin ərazisinin zəbt edilməsinin qarşısı alınıb. Rayon İcra Hakimiyyətinin nümayəndələrinin iştirakı ilə qanunsuz hasarlar sökülüb. Hazırda abidənin ətrafında təmizlik işləri görülür".

Qeyd edək ki, qədim karvan yolunun üstündə yerləşən XIX əsrin əvvəllərinə aid "Müzəffər" ovdanı iki quyudan ibarətdir.

# *DİN vətəndaşlara müraciət etdi*



**Məlum olduğu kimi, Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı ilə 2020-ci il sentyabr ayının 30-dək ölkə ərazisində tətbiq edilən xüsusi karantin rejimi dövründə bütün kütləvi tədbirlər, o cümlədən ictimai və digər yerlərdə şəxslərin 5-10 nəfərdən artıq qruplarda cəmləşməsi qadağan edilmiş, məscidlərin fəaliyyəti dayandırılıb.**

Daxili İşlər Nazirliyindən Adalet.az-a verilən məlumatda bildirilir ki, bu il Aşura mərasimi də xüsusi karantin rejimi dövrünə təsadüf etdiyindən vətəndaşlarımız məsələyə anlayışla yanaşaraq Operativ Qərargah tərəfindən müəyyən edilmiş məhdudiyyətlərə bütövlükdə əməl ediblər. Yalnız bir neçə şəhər və rayonda insanların yoluxma riskini dəfələrlə artıran toplaşmağa cəhdlər qeydə alınmışdır ki, görülmüş tədbirlərlə həmin pozuntuların qarşısı alınıb.

Bununla belə, bəzi kütləvi informasiya vasitələrində və sosial şəbəkələrdə müvafiq qadağaları məhz Aşura günündə dini mərasimlərin keçirilməsinə imkan verilməməsi ilə əlaqələndirməyə cəhdlər edilib.

Bü cür məlumatların yanlış olduğunu xüsusi vurğulayaraq, eləcə də insanların dini etiqad azadlığına dərin hörmətimizi ifadə edərək bildiririk ki, xüsusi karantin rejimi dövründə istənilən toplantının, hətta Silahlı Qüvvələrə dəstək xarakterli kütləvi aksiyanın keçirilməsi də yolverilməzdir. Tətbiq olunan məhdudiyyətlərin yeganə məqsədi isə - əhalinin sağlamlığının müdafiəsidir. Bir daha vətəndaşlarımızı koronavirus pandemiyasının doğurduğu ciddi təhlükəni unutmamağa, bu sahədə böyük və gərgin səylər bahasına əldə olunmuş müsbət nəticələri qorumağa, o cümlədən özünütəcrid qaydalarına riayət etməyə, sosial məsafəni gözləməyə, nəfəs yollarını qoruyan vasitələrdən daim istifadə etməyə çağırırıq.

# *DMX sentyabrda hazırkı qaydada işləyəcək*



**Dövlət Miqrasiya Xidməti (DMX) Azərbaycan Respublikasında olan və yaşayan əcnəbilərə, vətəndaşlığı olmayan şəxslərə müraciət edib. DMX-dən Adalet.az-a verilən məlumata görə, Nazirlər Kabinetinin 29 avqust 2020-ci il tarixli 310 nömrəli Qərarı ilə xüsusi karantin rejiminin müddəti 2020-ci il 30 sentyabr saat 00:00-dək uzadılıb. Bu müddət ərzində Dövlət Miqrasiya Xidmətinin fəaliyyəti hazırkı qaydalar əsasında həyata keçiriləcək.**

Eyni zamanda, sərtləşdirilmiş xüsusi karantin rejiminin Bakı, Sumqayıt şəhərlərini və Abşeron rayonunu əhatə etdiyi nəzərə alınaraq, Bakı şəhər regional miqrasiya idarəsi istisna olmaqla, digər bütün regional miqrasiya idarələri fəaliyyətini tam bərpa edir.

Həmçinin Azərbaycan Respublikasında daimi yaşama icazəsi almaq istəyən əcnəbilər Azərbaycan dilinin, tarixinin, mədəniyyətinin, eləcə də hüquq və vəzifələrlə bağlı qanunvericiliyin öyrənilməsi ilə əlaqədar onlayn kurslarda iştirak etmək məqsədilə iş günləri saat 09:00-dan 18:00-a qədər (012) 566-37-74 telefon nömrəsinə zəng edə bilərlər.

Daha ətraflı məlumat üçün (012) 919 Çağrı Mərkəzi həftənin 7 günü 24 saat fasiləsiz xidmətinizdədir.

# *Cəlal İsayev: "Məktəblərdə yoluxma riski qat-qat çox ola bilər"*

**Məktəblərdə də uşaqların maskadan istifadəsinə nəzarət etmək çox vacibdir.**

Bu sözləri Oxu.Az-a açıqlamasında Səhiyyə Nazirliyinin baş infeksionisti Cəlal İsayev deyib. O bildirib ki, yaşından asılı olmayaraq hər bir məktəblinin maska taxması gözəl olardı: "Bilirsiniz ki, məktəblər də qapalı məkandır və belə yerlərdə xəstəliyin yayılma riski qat-qat çoxdur. Camaat 12 yaşında gedib kəşflər edir. ÜST tövsiyə edirsə, maskanı taxmaq vacibdir. Uşaqların bu vərdişlərə yiyələnməsi üçün lazımi tədbirlər də görülməlidir. Valideynlər, müəllimlər bu sahədə işləməlidir. Bu gün şahidi oluram ki, bəzi marketlərdə nə işçilər, nə də müştərilər maskalardan istifadə etmir. Təəssüf ki, onlara irad bildirdikdən sonra qaydalara riayət etməyə başladılar". C.İsayev məktəblərdə kütləvi yoluxma hallarının baş verə biləcəyi ilə bağlı məqama da aydınlıq gətirib: "Bunu proqnozlaşdırmaq çətindir. Düzdür, qapalı məkanlar olduğu üçün risk var. Amma bu, insanların qaydalara, tövsiyələrə əməl etməsindən asılıdır. Doğrudur, məktəbdə dərs saatlarında maskada oturmaq çətindir, amma bütün hallarda qaydalara əməl edilməlidir".

Xatırladaq ki, Azərbaycanda sentyabrın 15-dən təhsil və təlim prosesi bərpa olunacaq. Bu, müəyyən şərtlər daxilində və ölkədəki epidemioloji vəziyyət nəzərə alınmaqla təşkil ediləcək.

## Əfqanıstan prezidentinin müşaviri öldürüldü



**Əfqanıstan Prezidentinin ictimaiyyətlə əlaqələr üzrə baş müşaviri Məhəmməd Həsən Hotak Kabildə qətlə yetirilib.**

Bu barədə Əfqanıstanın 1TV kanalı məlumat yayıb. O, bazar günü axşam evinin yaxınlığında öldürülüb. Əfqanıstan Prezidenti Əşrəf Qəni açıqlamasında qətli qınayıb və bunu terror aktı adlandırıb.

## Livan prezidentindən çağırış



**Livanda siyasi sistem dəyişilməlidir. Bu sözləri Livan Prezidenti Mişel Aun deyib.**

O, Livanı dünyəvi dövlət halına gətirməyi təklif edib. Aun hazırki problemlərin həlli üçün siyasi və mənəvi liderlərin dialoqunun vacib olduğunu xatırladıb:

"Livan işlərin idarə edilməsində dövlətin vətəndaşlıq və dünyəviliyinə əsaslanan yeni bir anlayışa ehtiyac duyur".

## İraqın şimalında 4 PKK terrorçusu məhv edildi



**Türkiyə Hərbi Hava Qüvvələri İraqın şimalındakı PKK terror təşkilatının 4 hərbçisini zərərsizləşdirdi.**

Bu barədə Türkiyə Müdafiə Nazirliyi bəyanat yayıb. Bildirilir ki, hava əməliyyatı Zap bölgəsində aparılıb. Qeyd edilib ki, Türk Silahlı Qüvvələrinin İraqın şimalındakı əməliyyatlarını bölgədəki son PKK terrorçusunun məhvinə qədər davam edəcək.

## Litva, Latviya, Estoniya Belarusa qarşı sanksiya tətbiq edəcək



**Litva, Latviya və Estoniya Belarusun Prezident Aleksandr Lukaşenko başda olmaqla 30rəsmi şəxsinə qarşı viza sanksiyası tətbiq edəcək.**

Litva Prezidenti Gitanas Nauseda bu barədə bildirərkən həmin şəxslərin adıçəkilən ölkələrə girişinə məhdudiyyət qoyulacağını qeyd edib. Xatırladaq ki, avqust ayının 9-da Belarusda prezident seçkiləri keçirilib və dövlət başçısı Aleksand Lukaşenko seçkilərin qalibi elan edilib. Müxalifət seçkilərdə saxtakarlıq olduğunu və bu nəticəni tanımadıqları açıqlayıb, ölkədə kütləvi etiraz aksiyaları keçirilib. Avropa İttifaqı daxil olmaqla bir çox beynəlxalq təşkilatlar və ölkələr Belarusa qarşı müxtəlif sanksiyalar tətbiq edib.

**MEHRİBAN**

## İSVEÇRƏDƏ QURANI YANDIRDILAR



**İsveçrənin Malmö şəhərində aktivistlər tərəfindən Quranın yandırılması ilə bağlı iğtişaşlar başlayıb. Bu barədə SVT telekanalına istinadən məlumat yayan "Qazeta.ru", bildirir ki, iğtişaşlar bütün gecə davam edib.**

İğtişaşçılar fişənglərlə avtomobil şinlərini, zibil qablarını yandıraraq, polislərə daş-kəsək atıblar. Qarşıdırma və iğtişaşlar zamanı 20 nəfər saxlanılıb, bir neçə polis işçisi yüngül xəsarətlər alıb.

Daha əvvəl isə Danimarkanın sağçı ekstremist partiyası antiislam aksiyası zamanı Quranu yandıraraq videoya çəkib və sosial şəbəkələrdə paylaşıb.

## CO BAYDEN TRAMPDAN POPULYARDI

### Prezidentliyə namizəd seçkiqabağı çıxışlara başladı



**CNN telekanalı təhqiqatçı Nielsen şirkətinin ilkin məlumatlarına əsasən bildirir ki, seçkiqabağı təbliğat çərçivəsində Demokratlar partiyasından prezidentliyə namizəd Cozef Baydenin çıxışı, teleizləyicilər tərəfindən hazırki prezident Donald Trampın çıxışından daha çox populyarlıq qazanıb.**

CNN-nin məlumatlarına görə Baydenin 9 telekanalla yayımlanan çıxışını, 23,6 milyon adam izləyib. Ondan bir həftə sonra 70 dəqiqə ərzində Trampın Ağ Evdən nümayiş etdirilən çıxışına isə 21.6 milyon adam baxıb.

Nirlsen bununla yanaşı qeyd edir ki, orta hesabla ötən seçkiqabağı çıxışlardan fərqli olaraq, bu dəfəki sekiqabağı çıxışlara maraq azalıb. Beləki, 2016-cı ildə Hillari Klintonun çıxışını 29.8 milyon, Trampın çıxışını isə 32.2 milyon tamaşaçı izləmişdi.

**Rüstəm Hacıyev**

# KİMİ ÇOX İSTƏYİRSİNİZ, ONUN CANI...

## Metronu açın, şənbə-bazar günləri işləməyən avtobusların hərəkətinə icazə verin!

**Allaha and olsun, Bakıda səhər və axşam saatlarında ekspres avtobuslarda, eləcə də digər ictimai nəqliyyatlarda işə gedib-qayıdanların basabaslardan canı çıxır. Tay adam bilmir avtobusa minəndə ayağını hara qoysun ki, birtəhər dura bilsin. Və ondan da ən çox qorxulusu odur ki, ayağını hansısa qadının ayağının üstünə qoyursan, o da dişinin dibindən çıxanı sənə deyir. Yəqin səhər və axşam saatlarında dediyimiz marşrutlarda hərəkət edən sərnişinlər belə hadisələrin şahidi çox olublar.**

### *Elə ki, səhər saatları olur,*

camaat işə tələsir, dayanacaqlarda adam əlindən tərpənmək olmur. Özü də Operativ Qərargahın bir çox yumuşaltmalarından sonra sərnişinlərin sayı dəfələrlə artıb. Heç bir sərnişini, heç bir insanı qınamalı deyil. Ən azından ona görə ki, hamı işə getməyə çalışır və balasına bir tikə çörək qazanmaq istəyir.

Və burda heç kimi qınamalı deyil. Camaatın qınadığı bir ünvan var, o da Nazirlər Kabineti yanında Operativ Qərargahdı. Və Operativ Qərargahda qəbul olunan bəzi qərarlar kütlənin ürəyincə deyil. Hamı gözləyirdi ki, sentyabrın 1-dən metronun fəaliyyətinə icazə veriləcək. Nəinki metronun fəaliyyətinə icazə verildi, hətta sentyabrın 15-ə qədər metronun işləyib-işləməməsi sual altında qalır. Əhali isə artıq ekspres avtobuslarda mənzil başına basabasla getməkdən lap təngə gəlib. Operativ Qərargahın çıxardığı qərarlar elə birinci növbədə onun öz ziyanına işləyir.

Məsələn, Operativ Qərargah şənbə-bazar günləri Bakıda, Sumqayıtda və Abşeronda ictimai nəqliyyatın hərəkətini qadağan edib. Və əhali də ən çox şənbə-bazar günlərində avtobuslardan istifadə edərək şəxsi problemlərini həll etmək istəyir. Onda da insanlar çıxılmaz vəziyyətdə qalır. Deyirlər ki, qoy camaat taksilərdən istifadə etsin. Taksilər də həmin günü qiymətləri dəfələrlə bahalaşdırır. Yaxşı, adam var ki, çörək almağa, bazarlıq eləməyə və kommunal xərclərini ödəməyə pul tapmır. İndi iki daşın arasında hardan pul tapıb bu taksilərə versin. Əhali arasında belə söz-söhbət gəzir ki, elə taksi şirkətləri də müəyyən oliqarxlara məxsusdur. Və onlar da pul qazanmaq üçün bu qərardan bəhrələnərək qaz vurub qazan doldururlar. Əziyyəti isə sadə insanlar çəkməli olurlar.

***Yeni dərs ili ilə əlaqədar olaraq valideynlər mağaza və dükanlardan dərs ləvazimatları - çantalar və digər zəruri əşyalar almaq istəyirlər. Təbii ki, iş günləri insanlar öz vəzifə borclarını yerinə yetirirlər. İstirahət günləri isə şəxsi məsələlərini həll etmək və o cümlədən məktəbli uşaqlarının ləvazimatlarını almağa çalışırlar. Hər adamın da şəxsi avtomobili yoxdur ki, onu idarə edərək mağazalara getsin. Böyük əksəriyyət isə ictimai nəqliyyatdan istifadə eləyir. Metro bağlıdır, şənbə-bazar günləri isə avtobuslar işləmir. Ay hörmətli Operativ Qərargahın rəhbərləri, bu camaat indi necə eləsin ki, gedib dediyimiz o məsələni yoluna qoysun?! Xahiş edirik bu suala cavab verin. Çünki bu bizim sualımız deyil ey, kütlənin sizə ünvanladığı sualdı.***

### *Bütün yükü Bakı Nəqliyyat Agentliyinin üstünə atmaq*

da böyük günahdı. Bakı Nəqliyyat Agentliyi ən yaxşı halda bir milyona yaxın sərnişinə xidmət eləyə bilər.

Elə ki, sərnişin bir milyonu keçdi, bax, onda Bakı Nəqliyyat Agentliyi o yükün altında qalıb sıxılır.

Bir dəfə sıxlıqla bərabər Bakı Nəqliyyat Agentliyinə bir sual da ünvanladıq. Ordan bizə bildirdilər ki, ekspres xətlərə "BakBus"un



avtobusları ilə yanaşı, digər daşıyıcı şirkətlərin avtobusları da buraxılmışdı.

Ancaq sərnişinlər kondisioner sistemi olmayan avtobuslardan narazılıq elədilər ki, isti havalarda belə marşrutlarda gedə bilmirik. Sərnişinlər şikayət eləyəndən sonra biz də həmin avtobusları daha xəttə buraxmadıq.

Hansı ki, həmin avtobuslar ekspres xətdə sıxlığı aradan götürürdü. Və gördüyünüz indiki basabas və sıxlıq yaranmırdı. Deməli, burda sərnişinlərin də günahı qaçılmaz deyil.

Ancaq qaçılmaz faktdır ki, bu gün ekspres avtobuslarda işə gedənlər və işdən evə qayıdanlar sözün həqiqi mənasında cəhənnəmi gözləri ilə görürlər. Əgər cəhənnəmi gözlərinlə görmək istəyirsənsə, həmin ekspres marşrutlara min, yarım saatlıq yolu bir saat yarıma gəlib çatırsan. Yalan deyirəmsə, Allah mənə lənət eləsin! Əgər düz deyirəmsə, qoy camaatı bu zülmə salan həmin adamlara lənət olsun!

***Mən hər səhər metronun "Xalqlar dostluğu" stansiyasının yaxınlıqdakı avtobus dayanacağından "BakBus"un M-2 avtobusu ilə metronun "Elmlər Akademiyası" stansiyasına gəlirəm. Nə az, nə çox bir saat yarım vaxtım gedir. Hələ kondisioneri demirəm.***

***Kondisioner elə yüksək güclə işləyir ki, camaat soyuqdan donur. Elə adam var ki, istiyə dözümü yoxdu, elə adam da var ki, bu cür soyuq avtobusda xəstəlik tapır. "BakBus"un avtobusunda kondisionerin möhkəm işləməsi bir qadının vəziyyətinin ağırlaşmasına səbəb oldu. Gördük ki, qadın özünü pis hiss edir, əliylə kürəyini döyəcləyir və oturacağa tərəf yıxılır, qışqırdıq ki, kondisioneri söndür! Sürücü də çox sağ olsun, elə həmin anda kondisioneri söndürdü. Vəziyyəti pisləşən qadın iki-üç dəqiqədən sonra özünə gəldi. Dedi ki, koronavirus keçirmişəm, indi də həkimdən qayıdıram. Sağalmışam ha, qorxub eləməyin! Sadəcə olaraq, kondisioner vuranda havam çatışmadı, ürəyim sıxıldı.***

### *Bax, sərnişinlərin bu cür vəziyyətini*

"BakBus"un sürücüləri nəzərə almalı, müəyyən anlarda kondisioneri söndürməli, çox isti olanda yandırmalıdılar.

Və bir də bir vaxtlar dedilər ki, bəs avtobuslarda karantin rejimində kondisionerlər işləməyəcək. Çünki kondisionerlər işləyəndə avtobusun salonunda koronavirus varsa, onu hərəkətə gətirir, havaya qaldırır və onun da insanlara keçmə ehtimalı daha da artır. Tay bilmədik, sonradan nə üçün avtobuslarda kondisionerin işləməsinə icazə verildi.

Bu gün isə avtobuslarda və xüsusən də ekspres marşrutlarda basabasda mənzil başına gedən çoxlu sayda sərnişinlər Operativ Qərargaha üz tutaraq yalvarır ki, sizi and veririk kimi çox istəyirsiniz onun canına, metronu açın! Şənbə-bazar günləri avtobusların hərəkətinə icazə verin!

**Yoxsa əks təqdirdə, ekspres avtobuslarda sıxlıq şəraitində canımız çıxacaq, olmazın əzabəziyyəti ilə üzləşəcəyik. Və biz də camaatdan eşitdiyimiz bu sözləri və fikirləri Operativ Qərargahda işləyən hörmətli şəxslərin diqqətinə çatdırırıq. Əgər onlar bir gün yox, bir saat ekspres avtobusa minsələr, görərlər ki, doğurdan da o sərnişinlər hər gün hansı əzablı anlar yaşayırlar və cəhənnəmi gözləri ilə görürlər. Siz Allah, sərnişinləri tezliklə bu çıxılmaz vəziyyətdən xilas eləyin!**

**Faiq QİSMƏTOĞLU**

# Könül Nurullayeva 3 aylıq fəaliyyəti ilə bağlı hesabat verdi

**24 saylı Nizami 1-ci seçki Dairəsinin deputatı Könül Nurullayevanın ünvanına son 3 ay ərzində (iyun, iyul, avqust) birbaşa, sosial şəbəkə, telefon vasitəsilə ümumilikdə 478 müraciət daxil olub.**

Adalet.az-ın məlumatına görə, müraciətlər təkcə Nizami rayonu ilə məhdudlaşmamış, o cümlədən respublikanın müxtəlif bölgələrindən və rayonlarından da daxil olmuşdur. Müraciətlərin 83,1 % müsbət həll olunmuş, digər müraciətlər isə icra mərhələsindədir.

Daxil olan müraciətlər maddi yardım, işə qəbul, tibbi müayinə və müalicəyə kömək, mənzil-məişət şəraitinin yaxşılaşdırılması, əsgərlərimizə yardım məqsədilə könüllü olaraq təkərlərin göndərilməsi və digər sahələri əhatə edib.

Yazılı müraciətlər həll edilməsi üçün aidiyyatı üzrə - 47,3 % müxtəlif dövlət və qeyri-dövlət qurumlarına, 38,7% Mərkəzi İcra Hakimiyyəti orqanlarına, 14% isə Yerli İcra Hakimiyyəti orqanları üzrə yönləndirilib.

Millət vəkili son 3 ay ərzində birbaşa və onlayn formatda ümumilikdə 196 seçici qəbulu həyata keçirib. 1837 nəfərə yardım göstərilib. Onlardan 272 nəfər birdəfəlik maddi yardım, 1565 nəfər isə Qurban bayramı sovqatı ilə təmin edilib.

Nizami rayonunda yaşayan gənclərin məşğulluğunun təmin olunması və asudə vaxtlarını səmərəli keçirmələrinə yönələn "Gənclər üçün Yay təcrübə məktəbi" layihəsi çərçivəsində qeydiyyatdan keçmiş 678 nəfər arasından 92 iştirakçı seçilib. Bu müddət ərzində layihə iştirakçılarına karantin qaydaları çərçivəsində peşəkar təlimçilər tərəfindən ümumilikdə 11 təlim və master-klass keçirilib və hələ də təlimlər davam etməkdədir.



Millət vəkili son 3 ay ərzində bir çox yerli və beynəlxalq platformalarda da iştirak edib. Belə ki, K.Nurullayeva İslam Əməkdaşlıq Təşkilatının media orqanı olan İnformasiya Agentlikləri Birliyinin "Dinlər və Mədəniyyətlərin ardıcılları arasında birgəyaşayış və harmoniya yollarının birləşdirilməsi", "Böyük İpək Yolu" Beynəlxalq Gənclər İttifaqının Beynəlxalq Gənclər gününə həsr olunmuş "Beynəlxalq təhlükəsizlik və sülhün qorunmasında gənclərin rolu"na həsr olunmuş videokonfranslarda, həmçinin İslam Həmrəyliyi İdman Federasiyası (İHİF) İcraiyyə Komitəsinin 2021-ci ildə Konyada keçiriləcək 5-ci İslam Həmrəyliyi Oyunları ilə bağlı yaradılmış Əlaqələndirmə Şurasının Konyadakı Oyunların Təşkilat Komitəsi ilə birgə növbəti videokonfransda çıxış edib, eyni zamanda Xorvatiyanın Azərbaycana təyin olunan ilk fövqəladə və səlahiyyətli səfiri Branko Zebiçlə rəsmi görüşdə və Ulu öndər Heydər Əliyev Azərbaycan xalqının xilaskarıdır" adlı esse müsabiqəsinin iştirakçıları ilə onlayn görüşdə iştirak edib.

Son 3 ayda K.Nurullayevanın Azərbaycanın AŞPA-dakı nümayəndə heyətinin üzvü kimi fəaliyyəti də səmərəli olub.

Belə ki, bu müddətdə K.Nurullayeva Avropa Şurası Parlament Assambleyasının (AŞPA) Bərabərlik və qeyri-diskriminasiya Komitəsinin videokonfransında "Süni intellektdən istifadənin yaratdığı ayrıseçkiliyin qarşısının alınması" mövzusu üzrə, eyni komitənin digər toplantılarında isə "Qadınlara qarşı törədilən namus cinayətləri" və "Böhran və pandemiya dövründə insan haqlarının qorunması: bərabərlik və ayrı-seçkilik hüququ" mövzusu üzrə məruzələrlə çıxış edib.

**Millət vəkili eyni zamanda Azərbaycanın haqlı mövqeyinin dünya ictimaiyyətinə çatdırılması məqsədilə dünya KİV-lərində də məqalələrlə çıxış edib. Belə ki, son 3 ay ərzində K.Nurullayevanın təhlil xarakterli məqalələri və açıqlamaları Türkiyənin 17 xəbər agentlikləri, eyni zamanda 3 Avropa, 2 ərəb ölkələri mətbuatı tərəfindən dərc edilib. Bütün məqalələrdə millət vəkili beynəlxalq ictimaiyyətin diqqətini Azərbaycanın ərazi bütövlüyünun qorunması, Ermənistanın sərhəd təxribatları və uzun illərdən bəri davam edən işğal siyasətinə yönəldib. ATƏT-in Minsk Qrupunun həmsədrlərindən məsuliyyəti və işğalçıya təzyiqi artırmaq tələb olunmuş, eyni zamanda münaqişə bölgəsində vəziyyətin gərginləşməsinə görə bütün məsuliyyətin məhz Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşdüyü vurğulanıb.**

# Təhsil Nazirliyi xaricdə təhsil almaq istəyənləri diqqətli olmağa çağırdı

**Təhsil Nazirliyi xaricdə təhsil almaq istəyən abituriyent, tələbə və onların valideynlərini seçim edərkən daha diqqətli olmağa çağırır.**

Əvvəlki illərin təcrübəsi göstərir ki, bu sahədə vasitəçi şirkətlərin xidmətlərindən istifadə edən bir çox vətəndaşlar çətinlik və mənfi hallarla üzləşirlər. Belə hallarla rastlaşmamaq üçün vətəndaşlara, təhsil müəssisəsini və tədris proqramını (ixtisası) seçməzdən öncə müstəqil olaraq, birbaşa həmin təhsil müəssisəsinin özünə müraciət edərək (rəsmi internet səhifəsi vasitəsilə), qəbul şərtləri, təhsil haqqı, yaşayış xərcləri və digər tələblər barədə ətraflı məlumat əldə etməyi tövsiyə edirik. Eyni zamanda, xaricdə təhsil və xaricdə əldə olunmuş ali təhsil ixtisaslarının ölkə ərazisində tanınması və ekvivalentliyinin müəyyən edilməsi (nostrifikasiyası) ilə bağlı diqqət yetirilməli olan əsas məqamlara (ali təhsil müəssisəsi və tədris proqramının (ixtisasın) aid olduğu ölkədə akkreditə olunması, təhsil müddəti ərzində həmin ölkənin və yerli qanunvericiliyin tələblərinə uyğun olaraq dərslərdə iştirak edilməsi, bakalavriat və magistratura ixtisasları arasında uyğunluq olması, tədris dilində ünsiyyət qura bilmək bacarığının olması, təhsilalma formasının yerli qanunvericiliyin tələblərinə uyğunluğu və s.) dair zəruri məlumatları özündə əks etdirən Təhsildə Keyfiyyət Təminatı Agentliyinin rəsmi internet səhifəsinin (tkta.edu.az) "Nostrifikasiya" və "Mütəmadi verilən suallar" bölmələri ilə tanış ola bilərsiniz:

"Xüsusi olaraq vurğulanmalıdır ki, Təhsil Nazirliyi xaricdə təhsil sahəsində, o cümlədən tanınma (nostrifikasiya) prosedurları ilə bağlı heç bir şirkətlə əməkdaşlıq etmir və bu şirkətlərin fəaliyyətlərinə görə məsuliyyət daşımır.

Qeyd olunan məsələlərlə bağlı vətəndaşlara hər hansı şirkət və ya şəxslər tərəfindən verilən vəd heç bir rol oynamır və belə hallarla rastlaşdığınız təqdirdə Təhsil Nazirliyinin "Qaynar xətt" xidmətinə (146-1) məlumat verməyiniz xahiş edilir".

# Taksilərlə bağlı konsepsiya hazırlanıb: Vahid qiymətlər ola bilər

**Bakı Nəqliyyat Agentliyinin təşəbbüsü ilə taksi fəaliyyətinin tənzimlənməsində cari vəziyyət və inkişaf perspektivləri mövzusunda video-konfrans formatında görüş keçirilib.**

BNA-dan Adalet.az-a verilən məlumata görə, görüşdə İqtisadiyyat, Nəqliyyat Rabitə və Yüksək Texnologiyalar nazirliklərinin, Bakı şəhər Baş Dövlət Yol Polisi İdarəsinin nümayəndələri, Azərbaycan Texniki Universitetinin mütəxəssisləri, vətəndaş cəmiyyətinin təmsilçiləri və ekspertlər iştirak edib. Diqqətə çatdırılıb ki, ötən dövrdə Bakı Nəqliyyat Agentliyi səlahiyyətləri çərçivəsində taksi fəaliyyətinin tənzimlənməsinə dair bir sıra tədbirlər həyata keçirib. Taksi minik avtomobilləri və onların sürücülərinə dair tələblər təsdiq edilib. Tələbat olan ərazilərdə taksi duracaqları təşkil olunub. Görülən işlərə baxmayaraq, bu xidmət sahəsi üzrə bır sıra çatışmazlıqlar mövcuddur.




Bunlar əsasən qeyri-müəyyən tariflər, taksi sürücülərinin aşağı gəlirliliyi, süni rəqabət, xidmət keyfiyyətinin zəifliyi, hüquqi və fiziki şəxslərin, çağrı mərkəzi-operatorların statusunun olmaması ilə bağlıdır.

Bu kimi halların aradan qaldırılması, taksi fəaliyyətinin tənzimlənməsi, qanunvericiliyin təkmilləşdirilməsi və səmərəli nəzarət mexanizmlərinin yaradılması məqsədilə, Bakı Nəqliyyat Agentliyi konsepsiya hazırlayıb. Konsepsiyada vahid dispetçer mərkəzinin yaradılması, tarif sisteminin və kvotanın tətbiqi eyni zamanda sahibkarlıq fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı məsələlər öz əksini tapıb.

Konsepsiyanın icrası nizamlı, qanuni, sərnişinlər üçün təhlükəsiz və rahat, eyni zamanda sürücülər üçün zəmanətli taksi xidmətinin təşkilinə imkan verəcək.

**Konsepsiyanın əhəmiyyətini qeyd edən görüş iştirakçıları bu görüşün taksi xidmətinin təkmilləşdirilməsi istiqamətində görülən işlərin koordinasiyası baxımından önəmini də vurğulayıb. Görüşdə konsepsiya ilə bağlı müxtəlif rəy və təkliflər irəli sürülüb. Bildirilib ki, səslənən fikirlər konsepsiyanın daha da təkmilləşdirilməsi zamanı nəzərə alınacaq.**

Arif Əliyev

# YOLUN HARADI, ey yolçu?

## SÖNMÜŞ MİKROFON QARŞISINDA 60 ilin monoloqu

(əvvəli 1-ci səhifədə)

***

***O illər dedim, bir söhbət yadıma düşdü. 1983-cü ildə Moskva Universitetinin jurnalistikasını bitirib, Bakıya döndüm. Qala bilərdim, APN-in türk redaksiyasından təklif gəlmişdi. Hələm-hələm ələ düşən təklif deyildi. Amma bizim də öz arzularımız varıydı axı! "Ulduzlara barmaq silkib, daş atan" vaxtlarımız idi, Məmməd Araz demiş. Məmməd Arazın həmin şeri yaman coşdururdu bizi o vaxt. "Vətən mənə oğul desə, nə dərdim, Mamır olub qayasında bitərdim..." Axır təyinatla gəlib "Azərinform"un, indiki AzərTAC-ın iqtisadiyyat şöbəsində bir masanın arxasında bitdim. Əmək cəbhəsindən xəbərlər yazırdıq: "Beşillik plan 4 ilə yerinə yetirildi", "Ay haray, buruq ustası 10 əvəzinə 15 metr quyu qazdı..."***

Bir ildən sonra Moskvadan tələbə dostumdan məktub aldım: "Səsin çıxmır, haradasan?" Cavab yazdım ki, burda, "Azərinform"dayam, bir masa veriblər, yeşiyi tarakanlarla dolu, telefon veriblər, obyektlərə zəng edib hərəsi 3 manatlıq xəbərlər hazırlayıram və günü-gündən ağlımın necə azaldığını müşahidə edirəm. O da qayıtdı ki, daha nə istəyirsən?! Tarakanlarını yarışdır, aristokrat əyləncəsidir; telefonunla bakılıların yumor hissini yoxla; ağlının azalmağına gəlincə isə, o gündən qorx ki, daha bunu özün də hiss etməyəsən!

H-ə-ə, deyəsən, axı hələ hiss eləyirəm! Necə dəyişdiyimi, nəyin dəyişdiyini. 37 il əvvəlki gələcəyə sonsuz inamdan indi ehtiyatlı optimizm qalıb, sevinc fışqıran gözlərdən kədər süzülür, inadkarlığı məyusluq əvəz edib, cəsarət odunun üstünə müdriklik su ələyib. Yaşlandıqca başın keçəlləşməsi, burnun və qulaqların böyüməsi də ki heç, bunlar hamıda olur. Hə, bir də, əvvəllər dost məclislərində mütləq "Uğura!" deyib badələrimizi cingildədirdik, indi eləcə Bəxtimizi çağırırıq və hortdadırıq.

### Kədər

***"Altmışdandır" deməyin. Bu cəmiyyətdə kənardan gözə dar görünən, amma içəridən e-e-ey, azadlığın üfüqlərinə qədər uzanan sirli bir çevrə var ki, çoxdandır ora düşmüşəm və nə çıxa bilirəm, nə çıxmaq istəyirəm. Mənimçün ordan ümumiyyətlə, çıxış yolu yoxdur, hərçənd, istəyənə giriş qapısı tərsinə də açılır. Orda gələni "Sağlığımızda bir-birimizi itirməyək!" sözləri ilə qarsalayır, gedəni "Çalış, o tərəfdə Şərəfin əlindən alınmamış öl" deyə birdəfəlik yola salırlar. Yox-yox, bunu həyatdan gizlənənlərin, ya küskünlərin dairəsi kimi başa düşməyin. Nə küskünlük? Hələ içlərinin, bəlkə, ən zəifi mənəm, taleyimdən şikayətçi deyiləm. Məktəbimizin "gözü" sayılmışam, olimpiadalarda, teleyarışlarda birinci olmuşam! Uşaqlıqdan, 8 yaşımdan mətbuatda yazılarım dərc edilib! Futbolda yeniyetmələr üzrə milli komandaya qədər gedib çıxmışam! Ölkənin 1 nömrəli ali məktəbində təhsil almışam. 28 yaşında Azərbaycanın tanınmış və cəsur jurnalistlərindən sayılmışam, düzdür, sevməyənlər və cəzalandıranlar da olub, amma sevənlərin və qoruyanların təmasını qat-qat artıq hiss etmişəm. Tələbələr nəşriyyatın qabağında qarşılayıb evə qədər ötürürdülər. 32 yaşımda jurnalist-məmur karyerasının zirvəsinə də qalxmışam: tanış olduğum gündən izi ilə getdiyim Nəcəf Nəcəfovdan sonra prezidentin mətbuat katibi olmuşam. Cəmi 7 ay işləmişəm. Ancaq o dövrün redaktorları həmin 7 ayı unutmayıblar yəqin, hər halda, sonrakı onilliklərlə çox müqayisəsini aparıblar. 35 yaşımda jurnalistlər birliyinin sədri seçilmişəm, 38-də ölkədə ilk Mətbuat Klubu yaratmışam. Sonra Söz Azadlığını Müdafiə Fondu... "Media açarı"... Mətbuat Şurası... Kitablarım, ssenarilərim, məqalələrim... Bunları tərif üçün söyləmirəm, yəni, demək istəyirəm ki, özümürealizə ilə bağlı heç vaxt problemim olmayıb. Nəyə macal tapmamışamsa, ümid edirəm, Tanrım belinə doladığı zaman kəndirindən bir az da açıb uzadar, ucundan tutub yarımçıqlarımı tamamlayaram.***

Amma can atdığım elə bu idimi? Buna görəmi "ulduzlara barmaq silkib, daş atırdıq?" Yox, biz yaşadığımız ölkədə istədiyimiz cəmiyyəti qura bilmədik, gücümüz yalnız özümüzə çevrə yaradıb ona Ləyaqətdən divar hörməyə çatdı. Düzdür, hələ danışmağa dilimiz, deməyə sözümüz var. Ancaq danışanın hər tərəfdən üstünə gəlirlər: "Sizin sözünüz lazım deyil, bizim sözümüzü deyin, onda mikrofonu açarıq!" Bu isə, bilirsinizmi, nəyə oxşayır? Uzun zaman həsrətində olduğun sevgilinlə həbsxanada bir gecəlik görüş verələr və yanına da şorgöz nəzarətçilər yığalar.

### Məyusluq

Çox təlatümlərdən keçmişəm, çətin vəziyyətlərə düşmüşəm. Kütləvi psixozlar, müharibələr, çevrilişlər, ümidlərin gerçəkliklə döyüşdə qəhrəmancasına şəhid olması səhnələri görmüşəm. Amma həyatımda ən böyük sarsıntını 2003-cü il seçkilərinin səhəri günü, oktyabrın 16-da yaşamışam. O günü yadımdan çıxarmaram: mən kütlənin içində, bir tərəfdən, baxışlarından qəzəb yağan müxalifətçilərin, digər tərəfdən, qalxanlı-dəbilqəli hökumət qoşunlarının arasında dayanmışam. Qan vaxtından əvvəl ağarmış saçlarımdan yanaqlarıma süzülür, pencəyimin boynuna axır, ağappaq köynəyimin yaxasına damçılayır, Heç başımı kim yardığını da bilmirəm: mitinqçilərmi daşla vurublar, polislərmi dəyənəklə parçalayıblar? Ağrı hiss etmirəm, qışqırmaq istəyirəm: "İnsanlar, siz vəhşisiniz?" Amma burada heç kəs heç kəsi eşitmir. Ara yollarla Mətbuat Klubuna qayıdıram, stul götürüb pəncərənin qabağında otururam. Qaş qaralır. İşçilərim arxamda yığışıblar, dalğası Azadlıq meydanından xeyli aralı olan küçəmizə çatmış döyüşün səhnələrini izləyirlər. Cavan, köynəyi cırıq bir oğlanın dalınca qaçan polisin ayağı öz qalxanına ilişib yıxılır - onlar sevinclə bağırışırlar. Uzaqda "OMON"çular asfalta sərdikləri qadını təpikləyirlər - "mənimkilər" inildəşirlər, mitinqçi dəstələrdən biri hücuma keçib polisləri qaçmağa məcbur edəndə isə qıyya çəkirlər...

Birdən özümü saxlaya bilməyib, stuldan sıçrayıram və ömrümdə ilk dəfə işçilərimin üstünə qışqırıram:

**- Çəkilin pəncərədən. Nə səs-səsə vermisiniz? Susun hamınız! Görmürsünüz, dünya dağılır? Başa düşmürsünüz ki, sabah biz artıq başqa ölkədə oyanacağıq?!**

Sabahı mən televiziyalarda və qəzetlərdə 16 oktyabr hadisələri haqqında materialları izləyəndən sonra "Azərbaycan jurnalistikasına elegiya" adlı məqaləmi yazdım. Və bu gün - 17 il sonra o məqalədə dəyişəcəyim yeganə söz varsa, o da "elegiya"dır: gərək "rekviyem" yazaydım.

### Müdriklik

Dünyanın ən böyük müdrikləri deyirlər ki, nə qədər çox öyrənirsənsə, bir o qədər çox sualın yaranır. Maraqlıdır, insan həyatı boyu nə qədər sual verir? Hm, bu özü bir sual oldu axı. Görəsən, kimsə təxmini də olsa sayıbmı? Bəs, verdiyin sualların neçəsinə cavab tapa bilirsən? Şəxsən mən ən azı bir sualın cavabını almamış köçümü bu dünyadan çəkmək istəmirəm.

Bir dəfə anam qutaba çağırmışdı. Çoxdan olub, indi özünə qutab bişirən lazımdır. Boşqabı doldurub qabağıma qoydu. O biri boşqaba qutab yığıb, üstünü dəsmalla örtdü: "İndi gəlirəm", dedi. Qayıdanda soruşdum, hara apardın?

**- Qonşuya verdim, iki uşağı var. Əri dolandıra bilmədi, başını götürüb Rusiyaya getdi. Əvvəl puldan-paradan göndərirdi, xeyli vaxtdır xəbər yoxdur. Arvad iki yerdə süpürgəçi işləyir, çatdırammır, yazıq. Xəstə qızı var. Sosial yardım da ala bilmir. Dediyinə görə, rüşvət istəyirlər, verməyə yoxudur. Olsaydı, balalarının boğazına verərdi. O sahədə tanışın-zadın yoxdur? Bəlkə köməyin dəydi?**

**- Ana, mən Allahın yerinə olsaydım, bilirsən, neyləyərdim?**

**- Əstəğfurullah de, a bala, ağzın əyilər.**

**- Əstəğfurullah. Ancaq ana, O-nun yerinə olsaydım, mən bütün acların qarnını doyurardım, xəstələri sağaldardım, müharibələrə son qoyardım, dərdlilərin göz yaşlarını silərdim, rüşvətxorların əlinə, şər-şəbədə söyləyənlərin dilinə köz basardım, hər yerdə haqq-ədalət yaradardım, sənə də uzun, sağlam bir ömür bəxş edərdim.**

Anam eynəyinin üstündən mənə baxdı:

**- Oğul, bəs, sən heç fikirləşmirsənmi ki, O özü bunları niyə eləmir?**

Niyə eləmir? Bax, bu sualın cavabını axtarıram. Mollalar inandırırlar ki, guya insanları sınağa çəkir, imtahan edir. Nəyimizi imtahan edəcək: öz əli ilə palçıqdan yaratdıqları deyilikmi? Yaratdıqlarının əməllərini görüb, dəhşətə gələndən sonra özü fəryad eləməyibmi ki, "şeytan... cinlərdən də olur, insanlardan da"! Və əgər bir sözü ilə yer üzündə ədalət qura bilirsə, nəyi gözləyir, yaxşını yamanın, haqqı nahaqqın, vicdanlını imansızın ayağına verir, onun meydanında tamahın, riyakarlığın, satqınlığın at çapmasına dözür?

Mənə bəzən elə gəlir ki, O sadəcə, bizi müşahidə edir, üzərimizdə eksperiment aparır. O-nun başqa dünyaları, bu dünyalarda başqa insanları da var. Oralarda isə başqa eksperimentlər gedir. Vaxtı çatanda bizi görüşdürəcək. Bəlkə, döyüşdürəcək, hərçənd, buna zəhmət çəkmək də lazım deyil, qovğaya həmişə hazırıq.

***Axı yalnız O-nun yaratdığı ədalət gözəl ola, rahatlıq gətirə bilər. İnsanların nail olduqları ədalət çox vaxt özləri kimi eybəcər alınır, yeni haqsızlıqların başlanğıcını qoyur. Bizə elə gəlir ki, O-nun adını şüar edib, öz əlimizlə qurmaq istədiyimiz ədalət qarşımıza çıxanda, xoş ətirli, göz oxşayan, bakirə qıza bənzəyəcək. İşi sona çatdıranda isə görürük ki, bizim ədalətimiz ağzından qan, köynəyindən tər, şalvarından sidik iyi gələn, zorlanmış bir qocadır. Qəzzafi kimi. Ya da qoca qiyafəsinə girib, özü bizi zorlamağa gəlmiş yalançı xilaskardır.***

Ömür yolunun başlanğıcında adama elə gəlir ki, həyatı başqalarınınkından fərqlənəcək, mütləq yaxşılığa doğru fərqlənəcək: sənin qələmin korşalmayacaq, səni düşmənlərin üstələməyəcək, sənin dostların dönük çıxmayacaq, səni övladların incitməyəcək, sən yalqız qalmayacaqsan, sənin sevgin heç vaxt tükənməyəcək və gözlərini də səni sevən insanların əhatəsində yumacaqsan. Sonda isə tənhalıqda, əlin ağrılı ürəyinin üstündə ötüb-keçənləri yada salacaq, hər şeyin nisbi olduğunu düşünəcək və öz-özünə təskinlik verəcəksən: "Nə olursa-olsun, mən xoşbəxt həyat yaşamışam".

Hər şey doğrudan nisbidir! Bir jurnalda oxumuşam ki, bu gün Londonda avtomobillərin orta hərəkət sürəti saatda 12 kilometrdir. Düz yüz il bundan əvvəlki kimi. Bu da sənə bir əsrlik tərəqqinin nəticəsi!

***Hər şey nisbidir! Dünyanın ən hündür zirvəsi ilə ən dərin çökəkliyi arasındakı məsafə cəmi 20 kilometrdir. Hətta tısbağa yerişli London taksisində bu yolu uzağı iki saata keçmək mümkündür. Amma hələ ki yer üzünə həmin 20 kilometri qət etməyə - dünyanın dibinə enib, sonra damına qalxmağa qadir olan bir insan gəlməyib. Gəlməyəcək də. Çünki bu 20 kilometr əslində yerdən günəşə qədər olan məsafədən uzundur.***

Hətta sevgi də nisbidir, hətta ağrı da! İnsanlar yaxından tanıdıqları bir adamın ağrısına həddən artıq həssas yanaşa, tanımadıqları bütöv bir xalqın dərdinə tam biganə qala bilərlər. Mən bunu Fransada Lara Fabianın konsertində başa düşdüm. Biz Nimə insan haqlarına həsr olunmuş konfransa gəlmişdik. İştirakçılara Fabianın konsertinə meriyanın pulsuz biletləri paylanmışdı. Sevgilisi, 24 yaşlı müğənni Qreqori Lemarşal nadir xəstəlikdən öləndən sonra o, ilk dəfə səhnəyə çıxırdı. Alqışlar kəsən kimi məşhur "Mən səni sevirəm" mahnısının akkordları səsləndi. Lara susurdu, ağzını açıb bu sözləri deməyə özündə güc tapa bilmirdi. Nəhayət, şaşırmış musiqiçilər də dayandılar. Onda bütün zal Laranın yerinə oxumağa başladı. Adamlar "Mən səni sevirəm" əvəzinə, "Biz səni sevirik" deyirdilər. Bu, o qədər gözəl, o qədər həyəcanlı anlar idi ki, Lara dözmədi, gözlərindən yaş axdı. Zal da ağlayırdı. Mənim yanımda hönkürən isə Fransanın beyin mərkəzlərindən birinin rəhbəri, konfransın bugünkü sessiyasının sədriydi. Günorta həmkarım Azərbaycanda Xocalı faciəsinin qurbanları barədə danışanda, onun çıxışını kəsib "təbliğat" adlandırmışdı. Bu faciədə isə yüzlərlə gəncin sevgi tarixçəsinə bir gecədə son qoyulmuşdu. Və bunu xəstəlik eləməmişdi, bunu insanlar eləmişdilər.

***İnsana həyatda rahatlıq üçün nə lazımdır? Əlbəttə, can sağlığı. Amma bir yerin ağrımayınca, qədrini bilməzsən. Bəs, sonra? Dünyadan layiq olduqlarını ala bilməyənlər iddia edəcəklər ki, mənəvi saflıq və vicdan təmizliyi. Elə deyil. Nə rahatlıq? Vicdan təmizliyi qədər əzab və məhrumiyyətlər hesabına başa gələn heç nə yoxdur. Daha sonra? Dünyadan layiq olmadıqlarını da artıqlaması ilə alanlar birmənalı söyləyəcəklər ki, pul və vəzifə. Pula etirazım yoxdur, bir şərtlə ki, onun yolunda sağlamlığını da, mənəviyyatını da əldən verməyəsən. Həm də varına-vəzifəsinə sığınıb rahatlıq tapanları ən primitiv varlıqlar hesab edirəm.***

Yuxu! İnsana həyatda əsl rahatlıq gətirən yeganə şey yuxudur.

### Yuxu

28 yaşımda 60 yaşlı Mustafa kişi haqqında yazmışdım ki, mən qocalara vurğunam. Qocalara ha! 60 yaşında ha! Yazmışdım ki, "tərcümeyi-hala çevrilmiş" qırış-qırış sifətlərdən, qıyıq gözlərin yumşaq və ironik baxışlarından xoşum gəlir; zamanın və tütünün hisindən saralmış çal bığları, qurumuş şabalıd yarpağına bənzər əlləri sığallamağı sevirəm. Bunları yazanda özümü təsvir etməyə çalışmışdım.

Hələ o vaxt düşünürdüm ki, qoca adamın həyatı üçün yuxuda ölməkdən gözəl sonluq yoxdur.

...Qadın gecə saat 3-də telefon kitabçasının ərinin nəyinə lazım olduğunu soruşmadı. Həm də ki, telefon dünəndən xarab idi. Amma Mustafa kişi özü deməsə, qadın heç vaxt ona artıq sual verməzdi.

- Çox sağ ol, Maral, di get yat, dincəl bir az. Mən də yatım. Qorxma, ağrılarım çəkilib, özümü yaxşı hiss edirəm.

***O, qadının ağ saçlarını sığalladı, kitabça uzadan əlindən öpdü. Qadının əti ürpəşdi. Ərinin baxışlarında qayğı qarışıq, istəmədən verdiyi əzablara görə bir günah hissi də oxunurdu.***

***Qadın bir saatdan artıq yatmamışdı ki, elə bil kimsə onu çağırıb oyatdı. Ərinin otağında işıq yanırdı.***

Nə qorxu, nə qışqırıq var idi. Telefon kitabçası çarpayının yanındakı kətilin üstünə qoyulmuşdu. Qadın onu qapıb küçəyə qaçdı. Uşaqlara xəbər etmək lazım idi. Hərəsi bir yerə dağılmışdı: böyüyü Bakıda, ikincisi Moskvada, üçüncüsü Vilnüsdə, sonbeşik Klaypedada yaşayırdı.

Poçt küçənin qarşı tərəfində yerləşirdi. Qadın ayaqlarının altında yeri hiss etmirdi. Ağlamırdı. Yeganə hiss etdiyi şey içində və ətrafında uğuldayan boşluq idi. Sanki böyük bir şarı doldurub havaya buraxmışdın.

Poçtun binasına girəndə qadının birdən yadına düşdü ki, pul kisəsi paltosunun cibində qalıb, paltonu isə geyməyi unudub. O, dabanı üstə fırlanıb bayıra atılmaq istədi, amma ayağı sürüşdü. Qadın yıxıldı, telefon kitabçası əlindən çıxıb havada qövs cızdı və vərəqlərin arasından daş döşəməyə göydə rəqs edə-edə bir şax 25-lik düşdü...

Qadın daha göz yaşlarını saxlaya bilmədi...

**"Əgər keçmişi yada salmasan və gələcək haqqında düşünməsən, həyat gözəldir!" (Yeji Lets)**

**pressklub.az**

Eminquey



# Görəsən, cahil dinçilərin imanı neçə metrdir?

**Axundların, mollaların səydərəş fətvalar verdiyi bir dövrdə ikən tragikomik bir həyat yaşamaq lüksümüz var.**

**Baxırsan, həm üzülürsən, həm də bir xeyli gülürsən.**

**Üzülürsən, nöşün? Oşün ki, cahilliyin virus kimi ağıllara yeriməsi ağlını başından alır.**

**Gülürsən, nöşün? O şünki, bunca sərsəm fətvalar insan məntiqinin, şüurunun orbitindən kənarda qalır.**

Nə bilim, bu cür fətvalar adama yadplanetlilər kimi qəribə, asteroidlər kimi qorxunc gəlir. Düşdüyü beyinləri dağıdıb viran qoyurlar. Nəticədə, gəzən ölülərlə birgə bir havanı udmağa məcbur qalırsan.

Qonşu ölkələri qatı dindar olan biz də bu təsirlərdən quru çıxmırıq. Bu kimi şeylərin bir ucu bizə də toxunur. Üstəgəl, Quranı evinin ən uca yerində saxlayıb oxumayan müsəlmanlarımızın haqq yolunda kor-təbii gəzişmələri adamı paramparça edir. Bu gün qadına qarşı şiddətə meyilli olan kəsim, (ki, əksəri özünü müsəlman sayır) açıb Quranı oxudumu? Oxudumu ki, Nisa surəsinin 34-cü ayəsində deyilir ki, qadını döymək olar.

***"Kişilər qadınlar üzərində ixtiyar sahibidirlər (onların hamisidirlər). Bu, Allahın onlardan birini digərinə üstün etməsi və (kişilərin) öz mallarından (qadınlar üçün) sərf etməsinə görədir. Əməlisaleh qadınlar (ərlərinə) itaət edib Allahın himayəsi sayəsində gizli şeyləri (ərlərinin sirlərini, mal-dövlətini, namus və şərəfini) qoruyub saxlayırlar. (Ey kişilər!) Özbaşınalıq etmələrindən qorxduğunuz qadınlara nəsihət edin, (yola gəlməzsə) onlardan yatağınızı ayırın və döyün! Sizə itaət etdikdə isə daha onlara (əziyyət vermək üçün) başqa yol axtarmayın. Əlbəttə, Allah ucadır, böyükdür!".***

Ərəbcədən döymək kimi tərcümə olunan o sözün mənası toxunmaq, çimdikləmək, mıcıqlamaq belə olsa bu həqiqəti dəyişmir. Çünki Azərbaycanda olan Quranın tərcümələrində bu söz döymək kimi keçir. O zaman nəyə etiraz edirlər? Yaxud bu vaxta kimi bu ayəni görmüşdülərsə, niyə bu məsələni gündəmə gətirmirdilər? Niyə demirdilər ki, Allah belə şey buyurmaz. Bizim Vasif Məmmədəliyevlə Ziya Bünyadov bunu niyə belə tərcümə ediblər?

**Deməк ki, qadını döymək olar, yuxarıdan icazə var.**

Sözümün mustafası bu deyil. Bu yaxınlarda Türkiyədə onların diliylə desək, bir imamdan bir qadın soruşub ki, sürücülük vəsiqəsi alsam, maşın sürsəm, günahdırmı? Bizim haqq yolunda avtoxuliqanlıq edən bu imam, adı **Nurəddin Yıldızdır,** deyib ki, qadın təkbaşına 90 kilometrdən çox yol gedə bilməz, dində qadağandır. Çünki peyğəmbər o vaxt deyib ki, bir qadın 90 kilometrdən uzağa təkbaşına gedə bilməz, mütləq yanında kişi olmalıdır. Hətta üç-dörd qadın belə olsa, qadağandır.

Görünür, bizim bu imam əfəndi o dünyasıyla o qədər həşir-nəşir olub ki, bu dünyada baş verənlərdən xəbərsiz qalıb. Çünki 1795-ci ilə qədər dünyada standart bir uzunluq ölçüsü yox idi.

**Məsələn, Misirdə...**

... miladdan əvvəl firounun dirsəyi ilə əli arasındakı məsafəni ölçüb o məsafəni ölçü vahidi kimi istifadə edirdilər.

**İngiltərədə...**

Rəvayətə görə, kral I Henri sağ qolunu önə doğru uzadıbmış, burnundan orta barmağının ucuna qədər olan məsafə bir yard olaraq hesablanıbmış. XII yüzillikdən bəri bu ölçünü istifadə edirdilər.

**Osmanlı**

... arşın var idi. Amma bazar arşını başqa, memar arşını başqa idi. Bir az da kobud desək, Misirdəkinə bənzəyirdi. Dirsəklə barmaq ucu arası. Qumaş alarkən dirsəyə dolanaraq ölçülürdü. Memar arşını bazar arşınından 7 sm uzun idi.

Amma zaman yetişincə, ölkələr arası ticarət artınca, bir-birilə əlaqəsi olmayan ölçü vahidləri məsələni müşkülə çevirir.

**Fransa inqilabı**

... bu qarmaqarışıqlığa son qoyur.

Krallıq və kilsənin səydərəşliklərini kökündən dəyişən respublikaçılar bütün dünyanın qəbul edə biləcəyi uzunluq ölçü vahidinin bəlli olunması üçün işi tapşırırlar Fransa Elmlər Akademiyasına. Məclis qurulur, yunan dilindən ölçü mənasını verən "metron" sözündən təsirlənib uzunluq ölçü vahidini "metr" adlandırırlar.

Parisin olduğu meridianda triqonometrik hesablamalar edib ölçü aparırlar. Dünya çevrəsinin 40 milyonda birinə "bir metr" deyirlər. Beləcə metrik sistem dünyaya gəlir.

Uzunluq ölçüsünün dünyaya istinad etməsi bütün dünyanın ağlına əlbəttə ki məntiqli gəlir.

Elm ortaq dilə çevrildi.

Əl barmaqlarımızının sayına görə, 10 barmağımızın qatlarına görə hesablandı ölçülər. Millimetr, santimetr, destimetr, metr. Çox asan idi hesablamaq.

**Amerika**

... bu gün də direşib. Krallıq sistemi olan inç, fit, yard, mil kimi ölçü vahidlərindən istifadə edir.

Bu barmaq ölüçlərindən fərqlidi, istifadəsi çətindir, vurma-bölmə hesabları da qarışıqdır. Bu qarışıqlığa görə Marsa göndərdikləri aparatları da qəzaya uğradı. Çünki göndərdikləri cihaz ingilis ölçü vahidinə uyğun hazırlanmışdı. Belə olunca da 125 milyon dollarlıq cihaz Marsa çırpıldı.

Bunca səbəblərdən dolayı Amerikada metrik sistemə keçməyi istəyənlərin də sayı getdikcə daha da artır. **İngiltərədə** gündəlik həyat tərzində hələ də inç, fit, yard kimi ölçü vahidlərini eşidə bilərsiniz, amma dünyayla ayaqlaşmağa məcbur oldular. 1995-ci ildə təhsildə və texnikaların hazırlanmasında metrik sitemə keçdilər.

Gələk bu dəcəl imamımızın məmləkətinə. Türkiyə 1926-ci ildən etibarən Atatürkün sayəsində metrik sistemdən istifadə edir. Ki, əslinə qalsa, bu dəcəl imamımızın həyat tərzilə, dünya baxışı ilə heç kilometr ölçüsünü dilinə belə gətirməsi yasaqdır. Çünki bunu kafirlər icad edib.

İmamın bunlardan xəbəri varmı? Peyğəmbərin vaxtında söz yox ki, müəyyən ölçü vahidi olub, amma bunun 90 kilometrlik məsafə olduğunu hardan bilmək olar?

**Mənə bir şey maraqlıdır, bəs görəsən, bu imamın və bu kimi adamların imanı neçə metrdir?**

**Yazıda Yılmaz Özdilin yazısındakı məlumatlardan istifadə edilib**

# Bölgələr üzrə COVİD-19-a yoluxma faizi açıqlandı




**Azərbaycanda koronavirusa yoluxanların 56,2 faizi Bakı şəhərinin payına düşür.**

Adalet.az-ın məlumatına görə, ölkə üzrə ikinci ən çox yoluxma Abşeron rayonundadır. Bu zonada yoluxma `15,8 faziə çıxıb. Aran zonası yoluxmaya görə 10,2 faizlə 3-cü yerdə, Gəncə-Qazax zonası isə 6,2 faiz yoluxma ilə 4-cü yerdədir. 4,3 faiz yoluxma Lənkəran şəhərinin, 1,2 faizi Şəki-Zaqatala, 1,3 faizi Quba-Xaçmaz, 1,0 faizi Yuxarı Qarabağ bölgəsi, 1,2 faizi isə Dağlıq Şirvan ərazilərində qeydə alınıb. Naxçıvanda isə son statistikaya görə koronavirusa yoluxma halı 0,004 faiz qeydə alınıb. Bakı şəhəri üzrə ən çox yoluxma halları paytaxtın Binəqədi, Xətai və Yasamal rayonlarında olub. Paytaxt üzrə yoluxanların 14,3 faizi Binəqədi, 11,8 faizi Yasamal, 12,2 faizi isə Xətai rayonunun payına düşür. Yoluxma hallarının 11,8 faizi Sabunçu, 9,1 faizi Nəsimi, 8,5 faizi Nərimanov, 8,0 faizi isə Suraxanı rayonunda qeydə alınıb. Yoluxma hallarının 7,1 faizi Nizami, 7, 4 faizi Qaradağ, 5,0 faizi Xəzər, 4,6 faizi Səbail rayonlarındadır. Bakı şəhəri üzrə ən az yoluxma halı isə Pirallahı rayonunda olub.

Ölkədə koronavirusa yoluxanların 21 faizi 50-59 yaş arasında, 18 faizi isə 30-39 yaş arasında olan şəxslərdir. Yoluxanların 5 faizini 0-9 yaş, 2 faizini isə 80 yaşdan yuxarı şəxslər təşkil edir. Yoluxanların 54 faizi qadın, 46 faizi isə kişilərdir.

Xatırladaq ki, iyulun 6-na qədər Azərbaycanda 20837 nəfər koronavirusa yoluxub. Onlardan 12182 nəfər sağalıb, 258 nəfər isə dünyasını dəyişib.

**Hazırda ölkədə 8397 nəfər aktiv koronavirus xəstəsidir. Bu tarixə qədər isə ölkə üzrə 522 min 773 nəfər üzərində koronavirus testi keçirilib.**

# "Vasmoy bazarı" bağlanır?

**Bakının məşhur "8-ci kilometr bazarı"nın bağlanması ilə bağlı bəzi saytlarda eləcə də sosial şəbəkələrdəməlumatlar yayılıb.**

Yayılan məlumatların nə dərəcədə həqiqəti əks etdirdiyini öyrənmək üçün Nizami Rayon İcra Hakimiyyəti ilə əlaqə saxladıq.

İcra Hakimiyyətinin İnformasiya təminatı və təhlil sektorunun müdiri Cavid Qafarov Oxu.Az-a açıqlamasında "8-ci kilometr bazarı"nın fəaliyyətinin dayandırılması ilə bağlı məlumatların əsassız olduğunu deyib:

"Hazırda "8-ci kilometr ticarət mərkəzi" adlanan ərazi fəaliyyət göstərir. Bazarda kənd təsərrüfatı məhsullarının satışı gedir. Ola bilər ki, geyim satılan bölmələr bağlansın, amma bütün hallarda bu barədə dəqiq məlumatımız yoxdur.

Belə bir şey olsa belə,qərarı biz vermirik. Özəl sahibkarlıq subyektidir, qərarları da özləri verir. Orada çalışan kiçik sahibkarlardan bizə bazarın bağlanması ilə bağlı şikayət daxil olmayıb. Bazar bağlansa, aidiyyəti üzrə qurumlar rəsmi açıqlama vermiş olardı".



Şahmar Əkbərzadə

# Məqamlar dəyişir, yerlər dəyişir, İblis mələk olur, Allah amandır!

### AYIRAR BU DÜNYA BİZİ NƏ VAXTSA

Burax inadını, ay ömrüm, günüm
Çəkilər göylərə harayım, ünüm.
Dolaşar qəfildən ömür düyünüm,
Ayırar bu dünya bizi nə vaxtsa.

Dağlayar qəlbini, dağlayar dağ-dağ,
Sinəmdə əcəlin çatdığı ocaq.
Tüstüsü gözünü yandırar ancaq,
Üşüdər qəlbini közü nə vaxtsa.

Ha səslən, dağılmaz əbədi yuxum,
Burnunun ucunu göynədər qoxum.
Çarpaz dağlar çəkər sənə yoxluğum,
Çiləyər yarana duzu nə vaxtsa.

Düşər xatirələr yadına bir-bir,
Yanarsan günlərin oduna bir-bir.
Əsər əsim-əsim, titrəyər tir-tir,
Sınar qürurunun dizi nə vaxtsa.

Bəxtin gözlənilməz günlə rastlaşar,
Odun da, közün də Şahmarsızlaşar,
Dadın da, duzun da Şahmarsızlaşar,
Ayırar bu dünya bizi nə vaxtsa.

### YOLLAR

Ayaqla torpağın öpüşməsindən
Doğulub böyüyür yollar həyatda.
Tapdana-tapdana min illər boyu,
Ömür qazanıbdır ayaqlar altda.

Gəlimli-gedimli yol nəsillərin,
ölməz abidəsi, əmanətdir.
Tapdanmaq - insanın şərəfsizliyi,
Tapdanmaq - yolların ləyaqətidir.

İnsan qədəminə tamarzı qalmaq,
Yolların bağrına çəkilən dağdır.
Dünyada ayaqlar altda yaşamaq,
Bircə yollar üçün alçalmamaqdır.

### ÖZÜN ÖZGƏNİN

Sənin tilsimindən çıxa bilmirəm,
Neyləyim bu eşqi boğa bilmirəm,
Yolundan gözümü yığa bilmirəm,
Gözdağın mənimdir, gözün özgənin.

Öz sevdan özünü qarğışa salıb,
Ömrün qara qalıb, yağışa qalıb,
Taleyin tüstünlə baş-başa qalıb,
Tüstün mənimkidir, közün özgənin.

Şahmara vəfandan cəfan nurludur,
Baharın şaxtalı, yayın qarlıdır,
Həsrətin özündən etibarlıdır,
Həsrətin mənimdir, özün özgənin.

### ÜŞÜDÜ

Sənsiz salamımı almadı dağlar,
Həmdəmim, həyanım olmadı dağlar,
Elə köks ötürdü gülgəz yaylaqlar
Yamaclar üşüdü, qaşlar üşüdü.

Məni sənsiz görüb süsən saraldı,
Nərgiz pörşələndi, lalə qaraldı,
Göyü bulud basdı, yeri qar aldı,
Dərələr ah çəkdi, döşlər üşüdü.

Məni sənsiz görüb ürpəşdi otlar
Əsdi titim-titim titrəşdi otlar,
Bəyaz yaylığını sıxdı buludlar,
Məni sənsiz görüb quşlar üşüdü.

Üzümə baxmadı gədiklər, gülüm,
Mələşdi talada əliklər, gülüm,
Elə oxudu ki, kəkliklər, gülüm,
Qayalar səksəndi, daşlar üşüdü.

Məni sənsiz görüb çağladı bulaq,
Könlümü min yerdən dağladı bulaq,
Körpə cüyür kimi ağladı bulaq,
Gözümün içində yaşlar üşüdü.

### BİTMƏSİN

Apar məni o günlərə,o aya
Göz baxmaqdan,üz yanmaqdan doymaya,
Əllərimi əlin yaxin qoymaya,
Nəfəsimdə də nəfəsinə yetməsin,
Bu sevdamin ömrü-günü bitməsin!

Apar məni ilk görüşə,üşənim,
O görüşün ayaqina döşənim,
Biraz gecik,üşüm-üşüm üşüyüm,
Qoy ürəyim titim-titim titrəsin
Bu sevdamin ömrü günü bitməsin!

Apar məni o bahara gəl,gülüm,
Cicək olum əllərinlə üzülülm,
Bircə-bircə tellərinə düzülüm,
Xəyalimdan özgə xəyal ötməsin,
Bu sevdamin ömrü-günü bitməsin!

Apar məni o yerlərə,gəzək bir.
Anan səni şişə cəksin,dözək bir,
Bəhanə tap,inciyək bir,küsək bir.
Durub gedim,ayaqlarim getməsin,
Bu sevdamin ömrü-günü bitməsin!

Apar məni o günümə baxim mən,
Qizillari yandirim mən,yaxim mən,
Öz eşqimi barmaqina taxim mən,
Bir üzüyə yenə gücüm yetməsin,
Bu sevdamin ömrü-günü bitməsin!

Daş-qaş nədir,sən qüdrətdən süslüsən,
Göydən enməz mələklərin mislisən,
Bu dünyada bir od mənəm,bir od sən,
Alov varmi,mənə qibtə etməsin?
Bu sevdamin ömrü-günü bitməsin!

### KİRPİYİMİ QƏDƏMİNƏ SƏRİM QOY!

Məndən küsmə, gül nəfəsin töyşüyər,
Səni görüb bənövşələr pörşüyər,
Dayan gülüm, ayaqların üşüyər,
Kirpiyimi qədəminə sərim qoy !

Əl verirəm, əsdirirsən əlimi
Gül verirəm, küsdürürsən gülümü,
Yavaş yeri, yel dağıtmış telini
Ürəyimin tellərinə hörüm qoy !

Həsrətimin çiçəkləri xallanıb ,
Ədaların şan bağlayıb, ballanıb,
Dodağında küsüşmələr barlanıb,
O barları dodağımla dərim qoy!

Heç bilmirəm ulduz nədir, Ay nədir !
Bürcüm nə bürc, günüm nə gün, ay nədir?
Baxışların taleyimə aynadır
Ayaq saxla, taleyimi görüm qoy !

Şahmar yazıq hardan alsın dözümü ?
Nazın , qəmzən sındırıbdır dizimi.
Yana-yana kül elədim özümü,
Sürmə olum, gözlərinə girim qoy!

### HANI

Xoş gördük a yerlər a göylər salam
Gəldim o yerlərdən bir salam alam.
Danış bənövşəli, laləli talam
Ölüb dirildiyim o anım hanı.

İlk eşqin qisməti gətirməyirsə
Talada görməsin günahı kimsə
Andına eşqinə dönük mənəmsə
Bəs əhdinə vəfalı olanım hanı.

Tutulub göylərin qaşı qabağı
Dindirə bilmirəm şahid qovağı
Soruşa bilmirəm ayrılıq çağı
Arxamca gözləri dolanım hanı.

Sənsiz bu yerlərdə şirin avazam
Kövrələ-kövrələ axan Arazam
"Yanıq Kərəm"yə köklənmiş sazam
Dindirənim hanı, çalanım hanı.

### ALLAH AMANDIR

Adamlar itirir adamlığını,
Adam təlxək olur, Allah amandır!
Kələklə gələnlər küləklə getmir,
Kələk pələng olur, Allah amandır!

Sürülər mələşir, qoçlar hələşir
Çaqqal qurda dönür,tülkü şirləşir
Cüllüt qartallaşır,milçək filləşir,
Fillər milçək olur, Allah amandır!

Bülbülün yurduna quzğun tökülür,
Güllərin gözünə millər çəkilir,
Qədim gülüstana sitəm əkilir,
Sitəm çələng olur, Allah amandır!

Səyi bəy eyləyən dastançıya bax,
Bostan tanımayan bostançıya bax,
Pulla böhtan deyən böhtançıya bax,
Böhtan çörək olur, Allah amandır!

Quru didişmədə vaxt batıb gedir,
Hamı xalq-xalq deyir, xalq batıb gedir,
Haqsızın əlində haqq batıb gedir,
Haqlı "xərçəng"olur, Allah amandır!

Hesab çəkiləndə əyri düz çıxır,
Üzü üzlər görən qarı qiz çıxır,
Həqiqət bir anda dönüb fıs çıxır,
Yalan gerçək olur, Allah amandır!

Namərdlər birləşir, mərdlər əyişir,
İmanlar, məbədlər, pirlər dəyişir,
Məqamlar dəyişir, yerlər dəyişir,
İblis mələk olur, Allah amandır!

### DAYANIN!

Mənə əl eləyən əllər dayanın,
Boynuma dolanan qollar dayanın,
Çiçəklər dayanın,güllər dayanın,
Məni ötürməyə tələsməyin siz !

Hələ ocaqlardan od əmməmişəm.
Dərdimi Araza göməmməmişəm,
Vüsalın ətrinə bələnməmişəm,
Məni ötürməyə tələsməyin siz!

Dərddən hayıf çıxmamışam doyunca
Onu daşa çaxmamışam doyunca
Ərk qalama baxmamışam doyunca
Məni ötürməyə tələsməyin siz.

Qoyun sevincimi selə döndərim,
Günümü uzadıb ilə döndərim ,
Dəli həsrətimi külə döndərim ,
Məni ötürməyə tələsməyin siz!

Səttərxanın məzarını öpməmiş,
Torpağını gözlərimə səpməmiş,
Ayrılığa dəli nərə təpməmiş,
Məni ötürməyə tələsməyin siz !

### QRİMLƏYİR

Dolanır boynuma doğmalıq mehi,
Hardasa bir dəli həsrət inləyir.
Sükutu ilahi bülbül cəh-cəhi,
Mənim varlığımı qəm qrimləyir.

Şəfəqlər zülmətin kəsir başını,
Bəyaz dan yerini qan qrimləyir.
Sübh yeli meşəni, şeh bənövşəni,
Məğrur zirvələri çən qrimləyir.

Şirin mürgülərdən ayrılır güllər,
Göylər yer üzünü nura bələyir.
Dənizdən sahilə çıxır gözəllər,
Mərmər sinələri gün qrimləyir.

Tökülür dənizə nazlar, qəmzələr
Bəxtəvər suları naz qrimləyir.
Leyli-Məcnunları sərin gölgələr,
Məcnun söyüdləri yaz qrimləyir.

Gündüzü-günəşli loğman havalar,
Gecəni Krımda Ay qrimləyir.
Yalları bulaqlar, yolları çinar,
Zümrüd vadiləri yay qrimləyir.

Hanı gözəllikdə Krıma tay yer?
Hanı əzizlikdə Krıma əvəz?
Hər şey bu yerlərdə qrim götürər,
Bircə faciələr qrim götürməz.

Dolanır boynuma ayrılıq mehi,
Hardasa bir dəli həsrət inləyir.
Kiminin bəxtini bülbül cəh-cəhi,
Kiminin bəxtini qəm qrimləyir.

### TƏZƏ NAĞARA

Sitəm görəcəksən ulduzlar sanı,
Bir azdan başına od ələnəcək.
Dodaqlar öpəcək qara zurnanı,
Səninsə sifətin sillələnəcək.

Hələ təpər topla, dözüm yığ hələ,
Qanları coşdurub qaynatmalısan.
Üzünə çırpılan sillələr ilə
Toya gələnləri oynatmalısan.

Bir azdan üstünə düşəcək əllər,
Səni nağaraçı yesir edəcək.
Ağrından həzz alıb süzən gözəllər
Fəryadın üstündə yallı gedəcək.

Bu alın yazındı, nə küs, nə inci,
Çırtma çatlayacaq qaşında sənin.
Dərdə bax, hamının toyu, sevinci
Qapaza dönəcək başında sənin.

Alın yazısından qaçmayıb heç kim,
Sitəmə sinə gər, qəmə qələm çək!
Yediyin sillələr qorxma əzizim,
Şəninə əskiklik gətirməyəcək.

Qoşa şapalağa dözəcək dərin,
Nalən musiqiyə dönəcək hökmən,
Qəm yemə, nağara, döyülənlərin
Bütün yer üzündə xoşbəxti sənsən.

Bəxtəvər başına, sillələn nə qəm,
Sillələr ömrünə nur ələyəcək.
Dərd mənim dərdimdir, sabah bilmirəm
Kimlər taleyimi sillələyəcək!

### "POÇT ŞERLƏRİ" SİLSİLƏSİNDƏN

Qismətim gümandan gümana düşüb,
Köksümdən perikib könlüm haçandır.
Məhəbbət çəmənim tufana düşüb,
Çırtlamır çiçəyim, gülüm haçandır.

Haçandır ürəyim dağlanır köz-köz,
Dəstəkdən üstümə od ələnibdir.
Könlümün həsrətlə gözlədiyi söz
Telefon xəttində çiliklənibdir.

Gör harda qırıldı telefon teli,
Qismətim çətin ki, isinə daha.
Qəzaya uğrayıb eşqimin feli,
Qanadı qırılmış isiməm daha.

Xətlər ümidimi veribdir bada,
Taleyim o sözü öpəsi idi.
O söz gümanımı öldürüb, ya da
Üstümə səadət səpəsi idi.

Görən tapılarmı söz qırıqları?!
Tutubdur üzünü ellərə könlüm.
Baş alıb sinəmdən Gəncəyə sarı,
Düşüb dəli kimi çöllərə könlüm.

Telefon telini bağrına basıb,
Çalıb oxuduğu "Yanıq Kərəm"di.
Neyləsin "sev"-çatıb, sözün arxası
Bilmir ki, "-irəm"di, yoxsa"-mirəm"di?!

"Dəyirmi masa"

# "İntihar günahdır"

(əvvəli qəzetin 27 avqust sayında)

**"Ədalət" qəzetinin "Dəyirmi masa"sında yarımçıq qalmış mövzunu tamamlamaq üçün sizinlə birlikdəyik. Mövzumuz "İctimai mühitdə yaşanan aqressiya və onun yeniyetmələr, gənclər arasında doğurduğu intihar halları"dır. Qonaqlarımız Azərbaycan İlahiyyat İnstitutunun baş müəllimi, sosiologiya üzrə fəlsəfə doktoru Asəf Qənbərov, Psixi Sağlamlıq Mərkəzinin direktoru, professor Fuad İsmayılov, Psixologiya Elmi Tədqiqat İnstitutunun sədri, psixoloq Elnur Rüstəmov, konfliktlərin idarə edilməsi üzrə mütəxəssis, Azərbaycan Milli Elmlər Akademiyasının doktorantı Roman Məmmədovdur.**

### Birinci hissə

Keçən dəfə intihar, onu doğuran səbəblər barəsində olan fikirlərə yer verdik. Bu gün isə "İntiharı necə aradan qaldırmaq olar?", "İntihara dində necə baxılır?" kimi suallara cavab tapacağıq.

### "Hər bir cəmiyyətdə intihar halları baş verir"

**-İntiharı aradan qaldırmaq olarmı? Yoxsa o, bütün dönəmlərdə aktual problem olaraq qalacaq?**

**R. Məmmədov:** "Bir də vurğulayım, intiharın aradan qaldırılmasında psixoloqların, psixoterapevtlərin, psixiatrların üzərinə olduqda böyük bir iş düşür. İntiharı aradan qaldırmaq olar. İntihara təşəbbüs etmək istəyən və ya simptomları görünən insanlarda seçimləri mütləq şəkildə artırmaq lazımdır. Yəni intihara meyilli olan insanların qarşısına görə bilmədiyi seçimləri qoymaq lazımdır ki, görsün, intihardan başqa daha gözəl seçimlər var. Bu təqdirdə insan yalnız intihardan uzaq dura bilər. Bilirsiniz, bir halda ki, insan var, bu insanlarla yanaşı problemlər də var və həmin insanlar özünə dəyəri itirirlərsə, istər-istəməz depressiv hallar ortaya çıxacaq. Depressiv halların xroniki hal alması isə bəzi insanların intihara meylinin güclənməsinə səbəb olacaq. İnsanların xarakteri intihar məsələsində çox mühim rol oynayır.

Məsələn, zəlzələ baş verdikdə bəzi insanlar depressiyaya düşür, bəziləri isə heç nə olmamış kimi davranır. Düşünürəm ki, intihar o zaman aradan qalxar ki, insanların sosial problemləri, məişət qayğıları, eləcə də daxildəki problemləri həll olunsun. Fikrimcə, mənəvi boşluq doldurulduğu zaman intihara meylin sayı ciddi şəkildə azalacaq. Hətta belə olan halda intiharı aradan qaldırmaq olar".

**F. İsmayılov:** "Hər bir cəmiyyətdə intihar halları baş verir. Bəzi ölkələrdə buna tez-tez, bəzilərində isə nadir hallarda rast gəlinir. İntiharın statistikası çox müxtəlifdir. Qeyd edim ki, bir sıra ölkələrdə intiharın aradan qaldırılması üçün çox uğurlu proqramlar var. Bura ilk növbədə psixi maarifləndirmə daxildir. Daha sonra psixoloji yardımlar var ki, insanlara xidmət göstərirlər".



### "İntihar hallarının qarşısını almaq mümkündür"

**E. Rüstəmov:** "İntihar hallarının qarşısını almaq mümkündür. Bu halda ilk növbədə insanlarda buna səbəb olan məqamlar araşdırılmalıdır (tibbi, psixoloji, sosial), ümumi rifah səviyyəsi normaya salınmalı, daha sonra intihar düşüncələrini neytrallaşdırmaq üzərində psixoloji iş aparılmalıdır. Lakin statistika göstərir ki, bir dəfə intihara cəhd edən insanlarda bunun təkrarlanma ehtimalı yüksəkdir. Yanaşı olaraq əhval-ruhiyyə pozuntuları, təşviş pozuntuları, somatoform pozuntular da müşahidə oluna bilər. Ona görə də bu tip insanlarla psixoloji iş zamanı multidisiplinar yanaşma problemin həll olunması istiqamətində daha yaxşı nəticələr verir".



**A. Qənbərov:** "Bütün cəmiyyətlərdə və bütün dövlərdə intihar hadisəsinin mövcud olması bunu deməyə əsas verir ki, intiharın tamamilə aradan qaldırılması qeyri-mümkündür və sosial bir fakt kimi intihar hadisəsi həmişə mövcud olacaqd. Çünki insanların maddi və mənəvi tələbatlarını hər kəs üçün optimal formada təmin etmək, qısaca, ideal cəmiyyət yaratmaq mümkün deyildir. İntihar, həmçinin, fərdin arzu-istək və həyatdan gözlədikləri ilə əlaqəli olduğuna görə, insanların psixi hallarını tam nəzarətə götürmək və ya idarə etmək nəinki olmaz, hətta, bu, müasir dövrdə ümumiyyətlə arzuolunan bir hal deyildir.

İnsanlar öz həyata baxışlarını, dünyagörüşlərini seçmək hüququna malikdir. Belə olan halda həyatından narazı olan, yaşadığı çətinliklər qarşısında mübarizə aparmağı lazımsız hesab edən, həyatına son qoyan insanlar həmişə mövcud olacaqdır. Lakin bu o demək deyildir ki, bu problemlə mübarizə aparmaq, insanları intihara aparan səbəbləri aradan qaldırmağa çalışmaq özülüyündə lüzumsuzdur.

İntiharı tamamilə aradan qaldırmaq mümkün olmasa da, intiharı meydana gətirən səbəbləri müəyyənləşdirmək, onları aradan qaldırmaq üçün preventiv tədbirlər görmək, həssas sosial qruplara maddi və mənəvi dəstək olmaq böyük əhəmiyyətə malikdir. Bütün mütərəqqi cəmiyyətlərdə bu sahədə müxtəlif sosial layihələr və dövlət proqramları həyata keçirilir".

### "İnsanı intihardan yalnız din qoruya bilməz"

**-Dində intihar haqqında nə deyilir?**

**R. Məmmədov:** "Dinimizdə intihara mənfi baxılır. Ona görə ki, intihar, özünəqəsdetmə günahdır. İnsana özünü öldürmə haqqı verilməyib. İnsanın yaşamaq, nəsil artırmaq kimi haqqları var, amma özünəqəsdetmə haqqı yoxdur. Bizə aid olmayan bir vücudu məhv etmək haqqı bizə verilmədiyinə görə intihar çox böyük bir günahdır. Həttə intihar edən insanın əhv edilməyəcəyi ilə bağlı bir hədis də var. Odur ki, intihar etmək lazım deyil".

**F. İsmayılov:** "3 dində-Xristian, İslam, Yəhudi dinində intihara qarşı münasibət pisdir. Amma başqa dinlərdə-buddizm, konfutsionluqda intihara normal baxırlar. Onların fikrincə, gələcək həyat var, insan bir neçə dəfə yaşaya bilər. Bu dinlərdə maraqlı məqamlar özünü göstərir. Bilirsiniz, intihar patoloji bir haldır. İnsanı intihardan yalnız din qoruya bilməz. Bundan başqa bir az öncə dediyim kimi, başqa xidmətlər də olmalı, kompleks tədbirlər görülməlidir".

### "İntihar etmək böyük günahlardan biri sayılır"

**E. Rüstəmov:** "Din faktorunun daha qabarıq müşahidə olunduğu cəmiyyətlərdə insanlarda təməl hisslərdən biri olan günahkarlıq hissi daha çox müşahidə olunduğu üçün bu, basdırılmış hisslər, daxili aqressiya və intihar mexanizmi ilə özünü göstərir".

**A. Qənbərov:** "Bütün dünya dinlərində, o cümlədən İslamda insanın öz həyatına qəsd etməsi yolverilməz hesab olunur. Dinlərə görə, insan həyatı Tanrı tərəfindən ona bəxş olunan ən qiymətli nemətdir. Buna görə də insanın öz həyatına son qoyması ona verilən əmanətə xəyanət etmək, dünya həyatında onun üçün nəzərdə tutulan sınaqdan keçə bilməmək kimi başa düşülür. Qeyd edək ki, İslamda da intihar etmək böyük günahlardan biri sayılır və qətiyyətlə qadağan edilir.

İslam dininin müqəddəs kitabı Quranda "Öz əllərinizlə özünüzü təhlükəyə atmayın" mənasında bir əmr mövcuddur. Bir çox alimlər bu ifadəni intiharın qadağan edilməsi və böyük günah sayılması kimi şərh etmişlər.

Eyni zamanda qeyd edilməlidir ki, İslam peyğəmbəri Həzrət Məhəmmədin hədislərində də intihar etmək daha açıq şəkildə qadağan edilmiş və möminlər bu arzuolunmaz təşəbbüsdən çəkindirilmişdir. İnanclı insanın intihar etməsi, o dərəcədə ağır bir günah hesab edilmişdir ki, hətta həmin insanın dindən çıxıb-çıxmaması və ya onun islami ayinlərə görə dəfn edilib-edilməməsi belə dini baxımdan mübahisəli hala gəlmişdir. Bütün bunlar dinlərin, xüsusilə də İslamın intihar hadisəsinə mənfi yanaşmasını açıq şəkildə nümayiş etdirir".

**Rövşən Tahir**

### *Distant təhsillə bağlı onlayn təlimlərə start verilir: Birlikdə öyrənək*

***Avqustun 31-dən UNEC-in təşkilatçılığı ilə distant tədris sahəsində müəllimlərin bilik və bacarıqlarının artırılması məqsədilə onlayn təlimlərə start verilir.***

***"Distant təhsildə tədrisin təşkili və metodik təminatı" mövzusuna həsr olunan təlimlər sentyabrın 4-dək davam edəcək.***

***Təlimlər ABŞ-ın Şimali Dakota, Kanzas, George Vaşinqton, Klemson, Radford universitetlərində və İsveçrənin Luqano Universitetində fəaliyyət göstərən azərbaycanlı alimlər, eləcə də Türkiyənin distant təhsil sahəsində ən geniş təcrübəyə malik olan Anadolu Universitetinin professorları tərəfindən keçiriləcək. Təlimçilərin təqdimatları dörd dildə (az, rus, ingilis, türk) tərcümə olunaraq iştirakçıların e-mail ünvanlarına göndəriləcək.***

***Təlimlər ödənişsizdir və UNEC məllimləri ilə yanaşı, digər ali təhsil müəssisələrinin müəllimləri də qeydiyyatdan keçərək iştirak edə bilər. Hazırda 1200-dək müəllim təlimdə iştirak etmək üçün qeydiyyatdan keçib.***

***Təlimlərdə məruzəçilər "Distant təhsil: ənənəvi təhsillə oxşar və fərqli xüsusiyyətləri", "Distant təhsilin informasiya-resurs təminatı: elektron resurslar və onlayn xidmətlər", "Distant təhsildə interaktivliyin təmini (mühazirə dərslərinin təşkili və keçirilməsi üsulları", "Distant təhsildə sərbəst işlərin yerinə yetirilməsi qaydaları", "Distant təhsildə tələbə motivasiyasını yüksəldən tədris metodları", "Distant təhsildə tələbələrlə dərsdən kənar əlaqənin effektiv qurulması (Google Classroom proqramı)", "Müasir metodlardan istifadə etməklə seminar məşğələlərinin təşkili və qiymətləndirmə üsulları" mövzularında çıxış edəcəklər.***

***4 günlük təlimlərin sonunda iştirakçılara sertifikatlar təqdim olunacaq.***

***Distant təhsillə maraqlanan hər kəsi təlimlərdə iştirak etməyə dəvət edirik.***

# "XAQANİ" POEMASI - BÖYÜK USTAD HAQQINDA QİYMƏTLİ ƏSƏR NÜMUNƏSİ

**Onu tanıyandan Xaqanini nə qədər çox sevdiyini yaxşı bilirdim. Xaqanidən birnəfəsə dediyi şeirlər, bəhs etdiyi mətləblər bu sevginin həm də bir dirçəyə dayandığını göstərirdi. Axı Xaqani, doğrudan da, təkcə Azərbaycanın deyil, ümumən Şərqin ən qüdrətli və böyük dühalarından biri idi: o, qəsidə ustadı idi, ilk poema müəllifi idi, intibah dövrünün simalarından idi, üsyankar və mübariz şair idi və s. və i. Özünü ədəbiyyatın, şeir və sənətin Günəşi, Xaqanı deyə öyməsi bəlkə də sövqi-təbii idi.**

### *Naxçıvan ədəbi mühitinin*

**istedadlı nümayəndəsi Asim Yadi**gar da məhz bu və digər səbəblərdən qüdrətli söz ustadına məhəbbət bəsləyirdi. Onun həyatını, obrazını canlandıracaq bir poema üzərində də işlədiyini bilirdim. Və bir gün əl boyda üzü yaşıl cildli bir kitab uzatdı mənə. Baxdım, "Xaqani" idi. Uzun illərdən sonra, 2010-cu ilin yanvar ayından başlayaraq üzərində yorulmadan işlədiyi poemasını tamamlamışdı. Mən də əsərin ilk hədiyyə edilən adamlarından biri olmağın qürurunu yaşayırdım. Nəzərdə tutdum ki, haqqında yazım. Neçə illərin zəhməti, yuxusuz gecələri, fikir, misra, qafiyə qovhaqovu... Heç olmasa bu zəhmətin bəhrəsindən yazmalıydım...

***Ümumiyyətlə, müəllif Asim Yadigarın müxtəlif mövzulara həsr edilən "Qisas qiyamətə qalmaz", "Əgrək və Səgrək", "Sarı gəlinlər", "Tacmahal", "Bir gecənin ağrısı", "Kalba Musa çeşməsi", "Talesizlər", "Kədərə heykəl", "Mənə söz verin", "Bahar", "Oğul dağı", "İpar Sultan" kimi poemaları var. Bu poemalar Naxçıvan ədəbi mühitində poema janrının zənginləşməsi və inkişafı istiqamətində uğurlu addımlardan hesab olunur. Adıgedən "Xaqani" poemasını da 2019-cu ildə tamamlayıb müəllif. 2020-ci ildə Naxçıvanın "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində çap edilib.***

Proloq, on üç fəsil və epiloqdan ibarətdir əsər. Poemanın hər bir bölməsi, hissəsi böyük ustad Xaqaninin sözlərindən epiqrafla başlayır. Əsərin proloq hissəsində böyük Azərbaycan şairi, "şeriyyətin bayraqdarı", qəsidə ustadı, söz dühası Xaqaninin ictimai məzmun və humanist səciyyə verilmiş misralarından axan kədər, təəssüf hissləri dərhal diqqəti cəlb edir:

*Sözümdən qəm süzülür*
*ağlayan kamanımdır,*
*Özüm də bir kamanam,*
*sızlayan zamanımdır.*
*Pənbə-pənbə ucalan*
*o ağ buludlar ki var,*
*Göy üzünü bürüyən*
*ahımdı, amanımdır...*

Müəllif bu sözləri Xaqaninin dilindən verməklə onu dövrünün, zamanının kədər və qayğı aynası olmasını ümumiləşdirməyə çalışır. Bu həm də bir şairlə dövranının cəngi-cadalı (Nizami Cəfərov demiş), ziddiyyəti, qarşıdurması kimi də maraq oyadır, oxucunun əsərə nüfuzuna zəmin hazırlayan və ilk təəssürat oyadan "bir stilistik manera" (N.Cəfərov) rolunu oynayır. Çünki ədəbiyyat tariximizdə də deyildiyi kimi, bu böyük ustad öz yaradıcılığında dövranının ictimai-siyasi məzmununu əks etdirməyə qabil olan ilk şeir-sənət dahisi idi. "Nizamiyə qədər ədəbiyyata güclü ictimai-humanist məzmun və yüksək sənətkarlıq gətirmişdir" (X.Yusifli). O təkcə dövrün problemlərini əks etdirmir, həm də bu zülmə boyun əyməyən əzm, iradə və zehniyyət nümunəsi olaraq misraları ilə döyüşür, üsyan qaldırırdı. Müəllif Asim Yadigar da proloqun sonuna doğru özünü Xaqani irsinin davamçısı olması ilə qürur duyduğunu ifadə edir, sanki ənənəvi poema janrının tələbi kimi əsərinin yazılma səbəbini göstərir.

### *Birinci fəsildən*

başlayaraq on üçüncü fəsilə qədər əsər Xaqaninin şəxsiyyəti, istedadı, şairlik qüdrəti, yaşantıları, ömür yolu, tale və qisməti və b. bütövlüklə özündə əhatə etməyə çalışır. İstedadlı şairin doğuluşundan başlamış əmisi Kafiəddin Ömər ibn Osmanın onu tərbiyəsi, verdiyi təhsil, onun Əbül Üla ilə tanışlığı və ona şagirdlik etməsi, şairin Şirvanşahlar sarayına düşməsi, istedadının parlaması, sarayda qarşılaşdığı problemlər, Şirvanşah Mənuçöhr və oğlu Axsitanın şairə olan münasibəti, gördüyü mükafatlar və acılar, həbslərdəki əhvalı, yaşam çırpıntıları, qayğıları, hamısı ümumiləşdirilməyə çalışılmış və şairin çox canlı bir obrazı yaradılmışdır.

***Doğrudur, əsərdə oxucunun əvvəlcədən haqqında müəyyən təəssüratı yaranmış söz ustadı Xaqaninin bir xarakter, qüdrətli söz ustadı kimi həyatı və taleyinin təfərrüatları əks olunmayıb. Əlbəttə, bu, müəllif Asim Yadigarın qəlbən sevdiyi, ürəkdən bağlandığı bir şairin şəxsi təxəyyülünün işığında canlandırdığı obrazının yaradılması ilə əlaqədardır. Poemanın canlandırdığı Xaqani böyük söz kəhkəşanında Günəş kimi parlayan, ildırım kimi çaxan, tufan olub dünya ilə, dövran ilə, gedişat ilə cəngi-cədələ çıxan bir söz dühasını, xarakteri, obrazı əks etdirir. Oxucu poemada zülmlə mübarizəyə qalxmış nəhəng bir söz adamının həyatı və taleyi ilə tanış olur.***

### *Bu taleyin işığında*

konkret bir dövr, ictimai-siyasi mühit, ədəbi inkişaf, mədəni vəziyyət təzahürünü tapıb. Xaqaninin söz dühası və nəhəngliyini daha qabarıq təqdim etmək, onun mübarizliyi və qətiyyətini göstərmək üçün müəllif Xaqani kimi söz sənətkarını əzməyə çalışan, onu tez-tez cəzalandıran, ona kədər, acı verən, zülm edən saray mühitini təqdim edir. Buna görə də üçüncü fəsildən başlayaraq zalım və ədalətsiz saray mühiti ilə Xaqaninin qətiyyətli mübarizəsi öz əksini tapır. Xaqani Şirvanşah Mənuçöhrdən, onun oğlu Axsitandan gördüyü zülmü sakitcə qarşılamır, əksinə, bir şairin göstərə biləcəyi və aparacağı mübarizə forması ilə tam qətiyyət və mübarizə nümunəsi ortaya qoyur. Buna görə də əsər boyu oxucu zülmə və zalıma qarşı od püskürən, qəzəb yağdıran üsyankar şair ruhunu - zülmə boyun əymək istəməyən Xaqanini görə bilir. İctimai düşüncə və ədəbiyyat tarixində daha çox ictimai məzmunlu əsərləri, üsyankar ruhu və qətiyyətli mübarizəsi ilə sevilən və yadda qalan Xaqani Şirvanini poemada görmək mümkün olur. O öz qətiyyətli mübarizəsi və üsyankar təbilə "Yer Allahlarına" qarşı etirazını bildirir, onların həddi bilinməyən zülmünə və özbaşınalığına üsyan edir. Xaqaninin doğma Şirvanı tərk edərək ikinci vətəni Təbrizə getməsi də məhz bu etiraz və üsyanın nəticəsi kimi ciddi məzmun kəsb edir. Onun İraqa getməsi, Məkkə və Mədinəni səyahət etməsi də zülmdən baş götürüb getmək kimi dəyərləndirilə bilər. Zülm evində qala bilməyəcəyini başa düşən şair Təbrizə sığınır və burada öz rahatlığını tapmağa çalışır.



Poemada müəllif böyük söz ustadı Xaqaninin dövrün gənc istedadlarından olan Nizami Gəncəvi ilə görüşünə xüsusi əhəmiyyətlə yanaşıb. Tədqiqatçıların fikirlərinə görə, 1159-cu ildə Gəncədə ikən qızdırma xəstəliyinə tutulan və Gəncəli Şəmsəddin Təbib tərəfindən müalicə edilən Xaqani, ehtimal ki, onda 18-19 yaşlarında olan Nizami Gəncəvi ilə də görüşmüş və onunla dostlaşmışdır. Dövrün böyük söz ustadı Xaqani dünyadan köç edən zaman Nizami də ona mərsiyə yazmış, həmin mərsiyədən aşağıdakı bir beyt yaddaşlarda qalmışdır:



*Hey deyirdim ki, mənə mərsiyə Xaqani yazar,*
*Heyf, Xaqaniyə mən mərsiyə yazdım axır.*

Əlbəttə ki, poemada bəhsi keçən bu fəsil xüsusi bədii məqsəd daşıyır. Bu fəsildə dövrana, dövrün pozulan nizamına, ictimai mühitin ədalətsizlik və haqsızlıqlarına, zülm və işgəncələrinə qarşı kəskin münasibət başlıca yerdə dayanıb. Fikrimizcə, hər iki ictimai məzmunlu əsərlər müəllifi və mübarizə ruhlu qüdrətli sənətkarların dövrə tənqidi münasibətli söhbətinin verilməsi həm də oxucuda intibah dövrünə diqqəti cəlb etdirməkdir. Buna görə də müəllif bu iki qüdrətli sənətkarın ehtimal olunan görüşünə real hadisə olaraq yanaşır və bununla öz bədii məqsədini həyata keçirir.

### *Xaqaninin gileyli tavrı,*

mühitdən narazılığı, duyduğu ikrah dövrün gənc istedadı olan Nizami ilə görüşündə ona verdiyi öyüd-nəsihətdə də aparıcı yer alıb. Müəllif müdrik Xaqaninin nəsihətlərində də ağsaqqallıq ruhuna diqqəti çəkir, saraylardan bezmiş Xaqaninin dilindən buradakı gözqamaşdıran həyata qarşı bu parıltıların altında yatan göz yaşı və ah-nalələri təqdim edir:

*Xaqani Nizamiyə*
*verib öyüd-nəsihət,*
*Dedi: - Saraya getmə, -*
*budur sənə məsləhət.*
*Saray udacaq sənin*
*bütün istedadını,*
*Saraydan uzaq eylə*
*sən öz ilham atını.*
*Yelqanadlı atının*
*cilovunu burax sən,*
*Onda bütün dünyanı*
*sözünlə fəth edərsən.*
*İlhamının yüyəni*
*yad əllərdə olmasın,*
*Təzə-tər güllərin qoy*
*saraylarda solmasın...*

Müəllif Asim Yadigarın şair təbilə deyilən bu sözlər Xaqani irsinin didaktik əhəmiyyəti olaraq xüsusi qabardılaraq bütün zamanlar üçün əhəmiyyət qazanır. Sanki bu fikir ümumiləşdirilir ki, hansı dövr olursa-olsun, şair xalqın sevdiyi, inandığı və örnək hesab etdiyi ziyalı-şəxsiyyət olmaqla öz ədalətini və ləyaqətini hər zaman qorumağı bacarmalı, heç bir qayğı və köməyə öz istedadı və sözünü qul etməməlidir. Gözükölgəli və sözüəyri şair təkcə özünə və xalqına deyil, tarixə və insanlığa üz qarası olaraq böyük günah yazılmış olur. Buna görə də poemada dövrünün söz mülkünün Xaqanı olaraq tanınan şair Xaqani Şirvani Nizami Gəncəviyə:

*Bağlandı əlim-qolum,*
*sarayda yesir oldum,*
*Azadlıq sevsəm də mən,*
*axırda əsir oldum -*

deyə öz yanlışlarının etirafını bildirmiş olur. Poemanın bu mühüm görüşdən bəhs edən hissəsi VI fəsil olaraq keçir və Xaqaninin öz misrasından epiqrafla başlayır:

*Şahdan tərif tacını istəmirəm geri mən,*
*O verdiyi çörəyi geri istəyir nədən?*

Bu maraqlı beyt özündə "şah mənə verdiyi çörəyi geri istəyirsə, bəs mənim ona xidmətim nə idi?" kimi məzmun kəsb edən bir sualı ictimai düşüncəyə tuşlayır. 258 misralıq və demək olar ki, poemanın həcmcə ən böyük hissələrindən biri olan bu fəsildə ictimai məzmun, xüsusilə bütün zamanlar üçün aktuallığını və əhəmiyyətini qoruyan ictimai-siyasi məzmunlu didaktika, öyüd-nəsihət qabarıq təqim edilmişdir. Müəllif A.Yadigar bu fəslə Nizami Gəncəvinin "Leyli və Məcnun" poemasından olan ayrı-ayrılıqda 16 misrasını da orijinaldan daxil etmişdir. Bu misralarda da Nizaminin saraylara olan nifrəti və şairlik üçün azadə fəaliyyət amalı diqqət kəsb etmişdir. Hətta fikrimizcə, bu misraları da müəllif Asim Yadigarın şəxsi qənaətinin məhsulu olaraq Xaqaninin dilindən deyildiyini və çox əhəmiyyətli əxlaqi-mənəvi məziyyət kəsb etdiyini deyə bilərik.

Bu o misralardır ki, söz ustadı Xaqani vaxtilə Xaqana mənsub olması ilə öyünərək hökmdarlara durmadan mədhiyyələr yazmış və indi sarayların iç üzünü, hökmdarların və siyasətin ikiüzlülüyünü, zülmünü və zalımlığını görərək əvvəlki sözlərindən dərin təəssüf və xəcalət hiss etdiyini etiraf edir:

*Mən ibrət güzgüsüyəm*
*yüz-yüz şairə bu gün,*
*Xəcalətli qalmışam*
*yazdığım sözlər üçün.*
*Bir üsyankar şair yox*
*dünyada mənim kimi,*
*Söylə, necə danım mən*
*yazdığım sözlərimi?!*
*İki Xaqani yatır*
*bu gün qəlbimdə mənim,*
*Onlar bir-birinə*
*qənim kəsilib, qənim.*
*Bir Xaqani bəyənmir*
*o biri Xaqanini,*
*Çox gözəl anladın sən,*
*yəqin, Nizami, məni.*

**Müəyyən mənada bu sözlər yalnızca Nizamiyə deyil, onun timsalında bütün oxuculara və bütün zamanların ziyalılarına hədəflənir. Müəllif o fikri ifadə etməyə çalışır ki, şairin dövrünün söz aynası, ədalət və haqq carçısı olması üçün onun könlü, gözü tox olması vacibdir və xidmət etdiyi hər hansı ictimai qüvvə şairin gözünü kölgəli, fikirlərini dolaşıq etməməlidir. Buna görə də Xaqani kimi söz ustadının ziddiyyətli obrazının yaranmasına da əsl səbəb onun xeyli müddət saraylarda yaşayıb-yaratması, ədaləti, haqqı məhz bu çərçivədən görməsi ilə bağlı olmuşdur.**

**(ardı növbəti sayımızda)**

**Ramiz QASIMOV**
**AMEA Naxçıvan Bölməsinin əməkdaşı, filologiya üzrə fəlsəfə doktoru, dosent**

# Eyni fəndən rəqib cütlük

***Həmsöhbətlərimiz Cəlilabad rayonunun Alar kənd 2 nömrəli tam orta məktəbinin fizika fənnindən müəllimləri Elçin və Ülkər Abbasovlar cütlüyüdür.***

***Elçin Abbasov Milli Məclisin təşəbbüsü ilə Azedu.az təhsil portalının və gənc müəllim şəbəkəsinin birgə əməkdaşlığı ilə həyata keçən İlin gənc müəllimi-2019 müsabiqəsinin qalibidir.***

***Onlar təkcə həyat yoldaşı deyil, həm də məktəbdə iş yoldaşı, eyni ixtisasdan rəqibdilər. Karantin günlərində, distant təhsilə görə evləri kiçik məktəbi xatırladıb. Təkcə bununla yetinməyib, skaut dəstələri ilə birgə "Təmiz əllər" layihəsi aparıb, təbiətin ekoloji problemlərini həll etməyə öz dəstəklərini göstəriblər.***

***Eyni zamanda pandemiya dövründə şagirdlərini bacardıqları qədər məktəb ləvazimatı, evdə tikdikləri maskalarla təmin ediblər.***

### *"Rəqib olduğumuzdan gəlməyini istəmirdim"*

**-Maraqlı taledir. Yoldaşınızla bir yerdə oxumusunuz. Sonra evlilik. Daha sonra eyni məktəbdə müəllim kimi çalışmaq. Hətta eyni ixtisasdan...**



**- Elçin:** Hə elədi, eyni universitetin eyni fakültəsində bir kurs fərqi ilə oxumuşuq. Tələbəlik illərində tanışlığımız olmayıb. Mən universiteti bitirib hərbi xidmətə getdim. Xidmətdən qayıdanda Ülkər müəllimə də məzun olub. Xidmətə getməzdən əvvəl təyinatımı RTŞ-nə alıb getmişdim. Qayıdandan sonra RTŞ-nə müraciət etdim, məni qonşu kənddə yerləşə məktəbə göndərdilər. Sən demə Ülkər müəllimənin də təyinatı həmin məktəbə imiş. Ülkər müəllimə Cəlilabada qonşu rayon olan Biləsuvar rayonunda yaşadığına görə əvvəlcə valideynləri razı olmayıb, sonra razılaşıblar. Biz həmin məktəbdə eyni ixtisas üzrə rəqib olduğumuza görə heç birimiz digərinin gəlməyini istəmirdi.

Söhbət direktor səviyyəsindən Təhsil Nazirinə qədər gedib çıxdı. Və nəhayət hər ikimizi bir məktəbə göndərdilər. Bütün bu mübarizə müddətində biz bir birimizi tanımırdıq. Sonradan məktəbdə iş yoldaşı olandan bir müddət sonra tanış olduq və onda bildik ki, biz nəinki bir universitetdə bir kurs fərqi ilə bir fakültədə eyni müəllimlərdən dərs almışıq. İki il keçəndən sonra evləndik. 12 ildi evliyik, o günlər yada düşəndə əziz xatirə kimi xatırlayıb gülürük.

**Ülkər:** Maraqlı günlər idi. Mən məktəbi bitirən il 2002-ci ildə ADPU-nun Fizika fakültəsinə daxil olmuşam. Elçin müəllim isə 2001-ci ildə orta məktəbi bitirib həmin fakültəyə məndən bir il əvvəl daxil olub. Riyaziyyat fakültəsinə daxil olmaq istəyirmiş, son anda fikrini dəyişib Fizikanı yazıb. Yəqin ki, bu taleyin işi imiş.

**-Evdə müəllimliyi kim edir və ya o statusda kim olur?**

**- Elçin:** Yəqin ki, mən.

**- Ülkər:** Evdə daima hərəkətdə olan, yenlikləri evə daşıyan Elçin müəllimdi. Amma evdə uşaqların dərsinə kömək etməyə gəldikdə isə bir bəhanə ilə bu işi mənim öhdəmə atır.



**- Eyni sahənin adamlarının sözləri bəzi hallarda üst-üstə düşmür. Kim daha çox güzəştə gedir? Məktəbdə və evdə.**

**- Elçin:** Qarşılıqlı güzəştlər edirik. Amma daha çox Ülkər güzəşt edir.

**- Ülkər:** Əlbəttə, qarşılıqlı güzəşt olmayan ailədə nizam-intizamdan danışmaq olmur. Məktəbdə mən, evdə Elçin müəllim daha çox güzəştə gedirik

### *"Evimiz kiçik məktəbi xatırladırdı"*

**-Karantinin ən çox təsir etdiyi sahələrdən biri də təhsildir. Sizinsə hər ikiniz təhsil işçisi. Sizə necə təsir etdi?**

**- Elçin:** Əlbəttə, bütün insanlar kimi bizim üçün də müəyyən mənada çətin və darıxdırıcı məqamlar oldu. Amma hər bir çətinliyi zaman keçdikcə dəf edə bilirsən. Biz də bu dönəmlər dərslərimizi onlayn keçməklə yanaşı bir çox lazım olan proqramlar öyrəndik, müxtəlif vebinarlara qoşulduq, konfranslarda iştirak etdik. Bir çox sosial layihələrdə iştirak etdik, insanları karantin qaydalarına riayət etməyə çağıran videoçarxlar hazırladıq. Çalışdıq ki, evdə olduğumuz vaxtlarda dərslərdən boş olan zamanımızı dəyərləndirək.

**- Ülkər:** Bu dönəmlərdə evimiz sanki kiçik məktəbi xatırladırdı. İki oğlumuz var, Araz Mübariz İbrahimov adına Biləsuvar Təhsil Kompleksinin 5-ci, Təbriz isə biz işlədiyimiz kənd olan Alar kəndində Heydər Əliyev adına 1 saylı tam orta məktəbin 3-cü sinfində oxuyurdu. Bizim hər ikimizin hər gün dərsimiz olurdu, eləcə də uşaqların. Elə vaxt olurdu dördümüz də eyni anda dərsə qoşulmalı olurduq. Kimi kompüterlə, kimi telefonla dərsə qoşulurdu və bu vaxtlar evimiz kiçik məktəbi xatırladırdı. Dərslərə Zoom və Microsoft Teams proqramları ilə qoşulurduq.

**-Şagirdlərinizlə bu tədris mövsümünü necə başa vurdunuz. Kənd yeri. Onlayn təhsil. İnternet çətinliyi və.s.**

**- Elçin:** Bu dövr müəllimlər üçün də, şagirdlər üçün də tam fərqli oldu. Mart ayının əvvəlindən dərsləri məsafədən tədris etməyə başladıq. Əlbəttə, bir çox problemlərlə qarşılaşdıq, aylıq internet paketi götürürdük, bu paket ayın ortasına belə çatmırdı. Bundan başqa şagirdlərin bir hissəsi dərslərə qoşula bilmirdi və əlbəttə ki, bu bizi üzürdü. Zaman-zaman işlər qismən qaydasına düşdü, bizim küçəyə də internet çəkildi. Bu problem də aradan qalxdı.

**- Ülkər:** Şagirdlərlə yanaşı valideynlərin də məsafədən təhsilə öyrəşmələri zaman aldı. Amma çox şükür ki bu tədris ilini yaxşı başa vurduq.

### *"Evlərə, şagirdlərimizə maska tikib paylayırdıq"*

**- Valideynlər və şagirdlər bu cür təhsilə hazır deyildi. Xüsusən, region olaraq. Siz onlara necə dəstək oldunuz?**

**- Elçin:** Valideyinlərlə mütəmadi olaraq söhbətlər edirdik, hər yerdə dükanda, yolda, vp-la, telefon zəngləri ilə.

Bir çox layihələr qoşulduq, özümüz layihələr başlatdıq. Cəlilabadda ilk skaut dəstəsini biz yaratmışıq. Turan adlanan bu dəstə ilə karantindən əvvəl də bir çox işlər görürdük. Məsələn, işlədiyimiz kənddən keçən İncəçayın qıraqları zibillik idi. Skaut dəstə üzvləriylə birgə çayın kənarlarını zibillikdən təmizlədik. Bu da şagirdlər tərəfindən maraqla qarşılandı. Pandemiya dönəmində də bu dəstə üzvləri ilə və dərs dediyimiz şagirdlərlə müxtəlif sosial aksiyalar etdik, Təmiz əllər, Təbiət bizim dostumuzdur və.s videoçarxlar hazırladıq, tarixi günlərdə onlayn tədbirlər təşkil etdik. Bundan əlavə ölkə ərazisində bir müddətlik karantin rejimi ləğv olunanda şagirdlərimizi evinə yollanıb onlarla görüşdük, onlara bədii kitablar, testlər apardıq. Özümüz "Hər yer məktəb" adlı sosial layihəyə qoşulduq.

**- Ülkər:** Virus təzə başlayan ərəfələrdə ətrafımızdakı insanların maska problemini qismən də olsa aradan qaldırmaq üçün evdə maska tikib paylamaq qərarına gəldik.

Öz maddi hesabımıza maskalar tikib yaşadığımız və işlədiyimiz kəndlərdə maskaları ev-ev payladıq. Bu işdə bizə övladlarımız və skaut dəstəmizin üzvləri kömək oldu.

**- Elçin:** Bir sıra maraqlı layihələrə qoşulmuşuq. Bu layəhələrdə əsasən türk müəllimlərlə əməkdaşlıq edirik. Hələki bu layihələri onlayn həyata keçiririk. Dərslər başladıqdan sonra isə sinifdə şagirdlərimizlə birgə davam etdirəcəyik. Bundan əlavə ölkə müəllimləri üçün nəzərdə tutduğumuz "Nərdivançı" layiəsini başlatmışıq. Bu layihə müəllimlərlə tanınmış uğurlu şəxslərin onlayn müsahibəsini təşkil edir. Layihə çərçivəsində müəllimlərə kitablar hədiyyə edirik. Bundan əlavə layihənin maraqlı rubrikaları var ki, bu rubrikalarda təcrübəli müəllimlər gənc həmkarlarına öz tövsiyələrini verir, fəal gənc müəllimləri ictimaiyyətə tanıdırıq, müəllimlər məktəb əhvalatlarını səhifə izləyiciləri ilə bölüşür.

Ümumiyyətlə, "Nərdivançı" layiəsi müəllimlərin asudə vaxtlarını səmərəli keçirmələrinə yönəlib.

**-Bütün bunlardan sonra region olaraq onlayn, distant təhsilə hazırıqmı?**

**- Elçin:** Əslində, biz daha çox siniflərdə canlı dərslərə öyrəşmişik. Distant təhsilə tezliklə öyrəşə bilmirik. Hələ nəzərə alsaq ki, ucqar məktəblərdə müəllimlərin internet problemi var, eləcə də şagirdlərin də internet problemi var , bu bizə problem yarada bilər. Ümumilikdə isə ötən tədris ilindən təcrübəmiz var və əgər distant təhsilə ehtiyac yaranarsa bunun öhdəsindən gələ bilərik.

**-Qız uşaqlarının hansı üsullarla təhsildən yayınmasının qarşısını alırsınız?**

**- Elçin:** Biz bölgədə ilk dəfə STEM üsulunu dərslərimizə tətbiq etmişik. Nəzərə alsaq ki, bu üsulu tətbiq etmək üçün məktəbimizdə əlverişli şərait yoxdu, düşünün, necə çətinliklə bu dərsləri həyata keçirmişik. Şagirdlərimiz bir çox STEM müsabiqələrinə qatılaraq sertifkatlar qazanıblar. Biz qızların təhsilə marağın artırmaq üçün bir sıra həvəsləndirici işlər görmüş, yarışlar tədbirlər hazırlamışıq və istəyimizə nail olmuşuq. Hətta qızları skaut dəstəmizin təlimlərinə də qata bilmişik.

**- Alar Azərbaycanın ən böyük kəndlərindəndir. Həm ictimai, həm siyasi həyatında Aların önəmi böyükdür.**

**- Elçin:** Biz Alar kəndində deyil, qonşu kənd olan Günəşli kəndində yaşayırıq. Amma əlbəttə Alar kəndinin böyük tarixi, özünün ənənələri olduğunu bilirik. Həm də Alar kəndində ölkənin əhəmiyyətli yolu keçir. Bu baxımdan Alar ölkədə yerləşən kəndlərdən ən böyük və starateji kəndlərdən biridir.

**Söhbətləşdi:**
**Emin Piri**

Layihənin istiqaməti: Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği

№ 98 (2132) 1 sentyabr 2020-ci il

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

# MƏMMƏD ARAZ DÜNYASI

**Qarşımda həjmjə o qədər də böyük olmayan, nejə deyərlər, əl boyda bir kitab var. "Dünya sənin, dünya mənim..." adlanır bu kitab. 1983-cü ildə "Yazıçı" nəşriyyatı tərəfindən çap olunub.**

Kitabın üz qabığında müəllifin gənclik illərinin şəkli verilib.

Şəklə diqqətlə baxıram. Eyni ilə özüdür ki, var. 50-ci illərdən, universitetdə oxuduğum illərdən ilk dəfə universitetin "Lenin tərbiyəsi uğrunda" çoxtiraclı qəzeti redaksiyasında gördüyüm Məmməddir bu uca boylu, ciddi görkəmli, qapqara şəvə kimi saçlı, yarlı-yaraşıqlı Məmməd. Şeirlərini sevə-sevə oxuduğum, yazdıqlarının təşnəsi olduğum bu gənc o vaxtlar Məmməd Araz deyildi. Məmməd İbrahimov imzası ilə çap olunurdu dövri mətbuatda.

Yadımdadır ki, həmin vaxtlar sevimli şairimiz Səməd Vurğunun "Mən tələsmirəm" adlı bir şeiri çap olunmuşdu mətbuatda. Ondan azacıq sonra Səməd Vurğuna iqtibas kimi yazdığı bir şeiri çap olundu "Azərbaycan gəncləri" qəzetində Məmmədin.

Səhv etmirəmsə, birinci bəndi belə idi həmin şeirin:

***Qoy nəğmə deməyə bülbül tələssin,***
***Gəzdiyi, gördüyü üç aydı, şair.***
***Sənin ki, ilhamın coşqun bir dəniz,***
***Məcraya sığmayan bir çaydı, şair.***

Hayıf ki, o şeri nə yuxarıda adını çəkdiyim kitabda, nə də onun başqa kitablarında tapa bilmədim. Odur ki, o vaxtlardan yaddaşımda hopub qalan o misraları xatırlatmaqla kifayətləndim. Çox sevirdim o şeiri (Məmmədin hansı şeiri sevilməyib ki?). Bütünlüklə əzbərləmişdim də onu. Sonralar necə oldusa, unutdum. Yaxşılar bütünlüklə unudulmur, azacıq da olsa, izi, tozu qalır. Yaddaşımda qalan o misralar kimi.

Məmməd Pedaqoci İnstitutda oxusa da, universitetə tez-tez gəlirdi. O vaxtlar universitetin yaradıcı gəncləri ilə ünsiyyəti vardı. Yaşar Qarayevlə, Famil Mehdi ilə, Ağacavad Əlizadə ilə tez-tez görüşdüyünü, onlarla müntəzəm əlaqə saxladığını yaxşı bilirdim.

O zamanlar - mənim universitetdə oxuduğum illər (1953-1958-ci illər) ədəbiyyat dərnəyimizin rəhbəri, sevimli şairimiz Bəxtiyar Vahabzadəyə tez-tez şeirlər oxuyar, ondan dəyərli məsləhətlər alardı Məmməd. O da yaxşı yadımdadır ki, Bəxtiyar müəllim bir dəfə Məmmədi ədəbiyyat dərnəyimizə dəvət etmiş, şeirlərini oxutdurmuş, dərnək üzvlərinə nümunə göstərmişdi onun yazdıqlarını. "Çalışın Məmməd kimi yazın, ondan öyrənin" - demişdi.

...Məmməd Araz dünyası geniş dünyadır. Dünyamızın lap özü boyda ölçüsüz, biçisizdir, nəhayətsizdir. Bu geniş dünyadan söz açmaq, onun söz dünyasından, poeziya dünyasından danışmaq, yaradıcılığını azacıq da olsa, təhlil etmək üçün ən azından onun özü boyda, özü səviyyədə olmaq gərəkdi.

Bəri başdan etiraf edirəm ki, mənim bacardığım iş deyil, bu iş. Odur ki, vaxtında Məmməd Arazla olmuş görüşlərimdən, söhbətlərimdən, yadımda qalan az-çox bəzi xatirələrimdən danışmaqla kifayətlənmək qənaətindəyəm.

Məmməd Naxçıvanda doğulsa da, təkcə Naxçıvanı özünə Vətən hesab etmirdi. Azərbaycanın hər yeri, hər şəhəri, hər kəndi onun üçün Vətən idi. Bu Vətənin dumanlı-çiskinli dağlarını, qarlı-buzlu yaylaqlarını, qıy vuran qartalların əlçatmaz zirvələrini, ucsuz-bucaqsız Vətənimizin zəmilərini, tarlalarını, bağlarını-bağatlarını sevirdi Məmməd. Təbiət vurğunu idi bir sözlə. Elə "Azərbaycan təbiəti" curnalında işləməsi də məhz bunun nəticəsi idi.

Məmmədin yaradıcılığı ilə az-çox tanışlığı olanlar yaxşı bilirlər ki, hər şeyi sevsə də, sevdiklərini sevə-sevə tərənnüm etsə də, dağlara məhəbbəti özgə cür idi onun. O, dağlara gedəndə quşlardan sanki qanad alıb uça-uça gedir, qayıdanda həsrətlə, nisgillə, təəssüflə ayrılırdı.

***"Bəlkə bu yerlərə bir də gəlmədim,***
***Duman salamat qal, dağ salamat qal"***

- misraları elə bundan xəbər vermirmi?

1968-ci ilin isti iyul günlərindən biri idi. Məmməd Araz İstisuya müalicəyə gəlmişdi. Bir gün Şamil Əsgərov Kəlbəcərdə redaktoru olduğum "Yenilik" qəzeti redaksiyasına gəlib mənə dedi:

**- Tez ol, eşitdiyimə görə Məmməd Araz İstisuya gəlib. Gedib onu ziyarət edək.**

O vaxtlar Şamil Əsgərov Kəlbəcərdə maarif müdri işləyirdi. Respublikanın hər yerindən, xüsusi ilə Bakıdan gələn adlı-sanlı adamları - elm, ədəbiyyat, incəsənət xadimlərini ziyarət etmək, onları Kəlbəcərin görməli yerləri ilə tanış etmək bir növ vərdiş halını almışdı onda. Elə adamlarla görüşməyə gedəndə də heç vaxt məni yaddan çıxarmazdı Şamil müəllim.

Nə isə... Dərhal İstisuya gedib Məmməd Arazla görüşəsi olduq. Məmməd Arazla görüşəndə Şamil müəllim mənə:

**- Tanış olun, bu yoldaş hörmətli şairimiz Məmməd Arazdır, - dedi.**

**- Biz çoxdan tanışıq, Şamil müəllim, - dedim.**

Məmməd Araz da mənim bu sözümdən sonra gülə-gülə üzünü Şamil Əsgərova tutdu:

**- Çox təəssüf ki, çox gecikmisiniz Şamil müəllim, - deyib söhbəti yekunlaşdırdı.**

Biz İstisuda Məmməd Arazı görmədiyi yerlərə - İstisuyun "Taxta"sına, oradan da "Ceyran bulağı"na apardıq. Bu yerlərin təbiəti Məmmədi vəcdə gətirmişdi.

O, Dəlidağı böyük maraqla, heyran nəzərlərlə süzüb üzünü bizə tutdu:

**- Vallah, xoşbəxt adamlarsınız. Belə yerlərdə yaşayanların dərdi-qəmi olmaz.**



"Ceyran bulağı" Məmmədi daha çox məftun etmişdi:

**- Bilirsinizmi əzizlərim, insan özünü təbiətə borclu bilməlidi. Təbiəti sevmək, ona layiq olduğu qiyməti vermək, bunu bacarmaq hamının borcudur.**

Sizdən nə gizlədim. Mən dünyanın gəzdiyim yerlərinin heç birində "Ueyran bulağı"nın keyvir kimi suyunu, buradakı göz oxşayan gözəllikləri görməmişəm.

Bir diqqətlə ora baxın, - deyə əlini Dəlidağa tərəf uzatdı. Dəli dağın zirvəsində qar görünür. Biz burada soyuqdan donuruq. Amma buradan 3-4 saatlıq məsafədə yerləşən aran rayonlarında, lap elə Bakının özündə də istidən adamın nəfəsi təntiyir.

Aradan bir neçə gün keçəndən sonra Şamil müəllim bizi Aşıq Ələsgərin Kəlbəcər kəndlərinin birində olan, tək-tük nişanəsi bilinən dəyirmanına, eləcə də özünün böyük məharətlə düzəltdiyi muzeyinə apardı.

Aradan çox keçməmiş Məmməd Arazın "Ədəbiyyat və incəsənət" qəzetində dərc etdirdiyi "İstisu lövhələri" adlı aşağıdakı şeirini oxudum:

*Günəş elə bil ki, zirvədə yatır,*
*Baxıb bir lövhəyə heyran qalmışam.*
*Dağın zirvəsində gün-günortadır,*
*Dərənin dibində haqlayıb axşam.*

*Bir parça buludda bir dəniz yükü...*
*Külək uğultusu qış nəğməsidir.*
*Tərtərin ən ağır, ən əziz yükü*
*Gül-çiçək ətridir, quş nəğməsidir.*

*Zəhmi dağ titrədir sel nəğməsinin,*
*Bir çayın səsinə bir dərə dardır.*
*Yarğana uzanan qar tirəsinin*
*Nəhəng bir timsaha oxşarı vardır.*

*Kölgə var uyuyur qaya dibində,*
*Elə ömürlük də uyuyacaqdır.*
*Uzaqda alışan bir kibritin də*
*Qoxusu burnunda duyulacaqdır.*

O günlərdən sonra ara-sıra işlərimlə bağlı Bakıya yolum düşəndə Məmməd Arazla görüşməyə, onun faydalı məsləhətlərinə qulaq asmağa, onlardan bəhrələnməyə ehtiyac duyurdum.

Bu böyük şairlə görüşüb söhbət etmək məndən ötrü ən şərəfli iş sayılırdı. Onun hər sözü, söhbəti bir məktəb idi. Danışdıqları, dedikləri ədəbiyyatdan, şeirdən-sənətdən, təbiətdən və onun gözəlliyindən olardı. Bunlardan danışanda doymaq bilməzdi.

Məmməd Araz təbiətdən söhbət düşəndə deyirdi:

**- İnsan təbiətin övladıdır. Təbiəti sevməmək, onun qayğısına qalmamaq nankorluqdu, nadanlıqdı. Mən belə adamları heç cür bağışlaya bilmirəm. Yayda kölgəsində oturub, payızda meyvəsini yediyin ağacı kəsmək olarmı? Axı, yaşıllıq həyatdır, sağlamlıqdır. Təəssüf ki, hələ də belə adamlara, duyğudan, vicdandan məhrum olan adamlara rast gəlirik içimizdə.**

Yazımın əvvəlində "Dünya sənin, dünya mənim" kitabından söz açmışdım. Ən çox sevdiyim şeirlərindən birinin adını daşıyan bu kitabda müəllifin özünün də on sözündə yazdığı kimi, hamının dünyasından danışılır. "Hamının əlindən tutan, hamının əlindən çıxmaq qorxusu olan dünyadan. Hamıya məlum və naməlum dünyadan..."

Məmməd Arazın sevimli müğənnimiz Niyaməddin Musayevin musiqinin dili ilə dillər əzbəri edib populyarlaşdırdığı həmin şeirinin bir yerində deyilir:

*Bu get-gəllər dünyasına dəvədi dünya,*
*Bu ömür-gün naxışına həvədi dünya.*
*Əbədiyə qəh-qəh çəkər əbədi dünya,*
*Dünya sənin, dünya mənim, dünya heç kimin!*

Yox, mən bu fikirlə heç vaxt, heç cür razılaşa bilmərəm. Amma bu əbədi olmayan dünyada elə dünyalar da var ki, əbədi ona yox, onun özü əbədiyə qəhqəhə çəkib deyir ki: "Bax, məndən ibrət al, görürsənmi sənin yaşadığın kimi, mən də yaşayıram!".

**Bu yaşayanlar Məmməd Arazın öz dünyasıdı, söz dünyasıdı, şeir-sənət dünyasıdı!**



*Qədir Tərtərli*
*AYB-nin üzvü,*
*"Qızıl Qələm" mükafatı laureatı*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ

---

# KƏNDDƏN REPORTAJ



Şahnaz Şahin

Esse

Abadan kənd tüstüsündən bilinər deyib ulularımız, fikirləşirəm uzun illər nahaq yerə kəndlə şəhər arasındakı fərqi aradan götürməyə çalışıblar, elə şəhər şəhər kimi, kənd də kənd kimi qalsa yaxşıdı. Deyəcəksiz ki, axı bu həm də insan əməyinin yüngülləşməsi, həyat və yaşayış şəraitinin yüksəlməsidir. Məsələn, elə qazı götürək, görün bu yaxın bir neçə ildə kənd qadınlarının işi nə qədər yüngülləşib, daha nə oduna ehtiyac var, nə də kömürə, artıq əlinin bircə hərəkətilə hissiz, passız evi qızdıra bilirsən. Yoxsa yay aylarından adamlar odun tədarükünə başlayır, buna həm xeyli xərc çəkir, həm də fiziki əmək sərf edirdilər, hələ meşələrə, təbiətə vurulan ziyanı demirəm... Mən də sizinlə razıyam, amma nəsə hərdən nostalgiyam tutur də, burnuma od iyi, tüstü qoxusu, təzə bişmiş təndir çörəyinin ətri gəlməyəndə, kəndlinin kənd təsərrüfat məhsullarını, göy-göyərtini belə bazardan alan görəndə darıxıram.

Dünyanın kələfin ucunu itirdiyi, gözlə görünməyən, əllə tutulmayan bir virusla savaşa qalxdığı, insanlar arasında ünsiyyət qadağası yaşanan dönəm dəyərini düşünmədən bol-bol ciyərlərimizə çəkdiyimiz havanın, suyun, bəzən bezikdiyimiz gündəlik işimizin əslində xoşbəxtlik olduğunu göstərdi bizə.

Bax onda şəhərin modern, "qutu-qutu" evlərində qalmaqdan sıxılan insanlar kəndə üz tutmağa başladılar. Düzdür, tətbiq edilən qaydalar çox adamın arzusunu gözündə qoysa da , insanlar əsasən nail oldular buna. Bu günə qədər ikinci dərəcəli yer kimi baxılan kəndin birdən-birə dəyəri qalxdı, "çərxi-fələk tərsinə dövran etməyə" başladı, urbanizasiya dəbdən düşdü, axın üzü kəndə tərəf döndü, dünənəcən kənd deyəndə üz-gözünü turşudanlar da kəndə getməyə yollar aradılar. Amma mən ikisini də sevirəm, daimi bir yerdə qala bilmirəm. C.Novruz deyirdi ki:

***...O kiçik kəndinə sığışan anam,***
***Bu boyda şəhərə sığışa bilmir...***

Mənə ikisi də əzizdi, ikisində də xatirələrim var, onları özümlə apara bilmirəm, deyəsən xatirələr insandan daha çox etibarlıdır! Ona görə tez-tez yerimi dəyişirəm, gah kənd, gah da şəhərin qonağı oluram, indi də kənddəyəm, Aranda, Günəşin torpağı qovurduğu, "D" vitamininin bol olduğu məkanda...

***Hər otun, hər kolun dibi şeirdi,***
***Qurban olum havasına kəndimin.***
***Anam kimi qoy başına dolanım,***
***Qoy baş qoyum ayağına kəndimin.***

Kənd adamları xasiyyətcə də, təbiətcə də fərqli olur. Uşaqlıqdan zəhmətə öyrənən bu adamlar həm fiziki, həm də mənəvi tərəfdən güclüdür. Məsəl var deyirlər ki, bu evin işığı o biri evə düşməz, amma əksər hallarda bu məsəl kənddə dəyərdən düşür bir az. Hay deyəndə haya gəlir kənd adamları, doğrudur, aralarında paxıl, tək özünü düşünənlər də var, amma əsasən "qonşusunu iki inəkli istəyənlərdi" kənd adamları. Birinə hər hansı çətinlik üz verdisə, ya xeyir işi varsa hamı- qohum-qonşu bir yerə cəm olub o işi "aşıra" bilir.

Burda ən azı bir küçədə yaşayan ailələrin bir birindən hər gün xəbəri olur, kimin ac, kimin tox olduğu bəllidir. Qəfil qurtaran ərzaq üçün qonşuya ketmək burda ayıb sayılmır, həm də belə şeyləri borc hesab etmirlər. Bəzən axşam naharına kimin qazanında nə qaynadığı belə heç kəsə sirr qalmır... Yadıma düşən bir epizodu danışım:

- Bir qonşumuz vardı, həyat yoldaşı rəhmətə getdiyindən bu kişi tək yaşayırdı (qadınsız də ev ki, suyu çəkilmiş dəyirmana oxşayar..) Qızlarını köçürmüş, oğlanlarını evləndirmiş, hər kəsin də başı öz ailəsininə qarışmışdı. Orta yaşlı bu kişi yay vaxtı bağının qazancıyla dolanır, qışa dönəndə isə maddi çətinlik çəkirdi, hətta gün ərzində bir dəfə qarın dolusu yeməyə də imkanı çatmırdı, biz, onun vəziyyətindən vaxtında hali olub həm maddi, həm də mənəvi dayaq olduq, adam yavaş-yavaş çətinlikdən çıxdı. Bu məsələ isə Allahla iki kişinin arasında qaldı.

Müstəqillik illərində kəndlər də şəxsi biznes sahəsində xeyli irəliləyib, indi bir kənddə ən azı beş-on mağaza, bir o qədər də xırda küçə ticarəti məkanları var. Kəndin əhalisi də artıb, torpaqlar da kolxoz, sovxoz dağılarkən camaat arasında qayda-qanunla bölünüb. İndi hər ailənin həyətyanı torpağıyla yanaşı pay torpaqları da var və ondan hər kəs öz istədiyi şəkildə istifadə edir. Bizim də "çöl yeri" dediyimiz torpağımız evimizdən təxminən 2 km uzaqda, Kür çayından və kürqırağı meşə sahəsindən bir qədər aralı yerləşir. Biz ondan uzun illərdi növbəli əkin sistemini nəzərə almaqla yararlanırıq. Yaz gəlib təbiət donunu ala-yaşıla dəyişəndə o yerlər göz oxşayır. Yabanı bitən sarıçiçəklər yam-yaşıl yonca sahələrinə, taxıl zəmilərinə xüsusi gözəllik verir...

Yollara çınqıl döşənərək hamarlansa da, kəndin rəmzi sayılan tozlu yollar bəzi yerlərdə nə yaxşı ki, hələ də qalır və mən o yollarda ayaqyalın yürüməyi xoşlayıram!

***...Günəş doğar gölgəmizi böyüdər,***
***Torpaq yol da dabanımı bərkidər.***
***Bir it çıxar qoyunları ürküdər,***
***Qorxu düşər ürəyinə kəndimin...***

Bu yay Kür çayının suyu lap azalıb, hətta bəzi yerlərdə quruyub kiçik adalar əmələ gəlib.

Eh, Kürün bir vaxtları olub ki, indi gördüyünə inanmağın gəlmir! Bax, 25-30 il irəli sahilboyu bitən Yulğun ağacları yox idi burda, qumluq uzanıb gedirdi çay boyu.

Kəndin cavanları, məktəbli uşaqları, hətta bir qədər yaşlı kişilər də yayın isti günlərində bura gəlir, çayda çimir, futbol oynayır, balıq tutmaq üçün suya qırmaq atırdılar. Qadınlar, qızlar ilboyu içməli suyu güyüm, ya da qoşa vedrə ilə Kürdən daşıyıb aparırdılar. Yayda isə paltar-palazı, xalçanı gətirib çayın kənarında yuyrdular... İndi artıq hamı həyətində rahat şərait yaradıb, hər kəsin su çəni, hamamı var, əlavə olaraq kəndlərə duru, içməli su xətti də çəkilmişdir, (indi heyif ki, adamların səhlənkarlığı üzündən su kranlarının bir çoxu sıradan çıxıb). Kürün də ta o gəlhagəili yoxdu...

***..Bir aləmdir axşamçağı,***
***Kür-boynunda boyunbağı.***
***Əzizlər gələn qonağı,***
***Ulacalı-mənim kəndim.***

... Yay fəsli toyların gur vaxtıdı, kənd toyları isə daha gözəl, daha maraqlı olur, (düzdür artıq şəhərləşmə toylara da təsirini göstərib, əsasən şadlığ evlərində keçirilir), amma təəssüf ki, pandemiya səbəbiylə xeyli müddətdir ki, toya da icazə verilmir.

Kənd həm də arzuların rüşeym tutduğu məkandır, burdan başlanır uzaqlara gedən yollar. Kənd toyuq-cücəyə "boğaz ortağı" olan boz sərçələrin, cücə aparan ala qarğaların, üzümlərin qənimi sığırçınların, yaz müjdəli qaranquşların, hətta kül rəngli qumruların və sarı bülbüllərin belə rahat yaşadığı yerdir (qaranquş və son iki quş hər həyətə getməz!!).

Nə xoş ki, bizim həyətimizdə bir cüt sevgili bülbül, bir cüt də qumru yaşayır, (qaranquşlar isə artıq uzun illərdir ki, bir zaman qurduqları yuvalarına dönür hər yazs), hər sabah tezdən bülbüllərin səsinə oyanıram, onlar pəncərəmin qabağındakı hündür, qollu-budaqlı İnnab ağacının başında tez-tez bir budaqdan digərinə uçub qonaraq sehirli səslə cəh-cəh vururlar...

...Axşam düşür, kəndin naxırı geri qayıdır, küçədən heyvan böyürtüsü, qoyun mələrtisi eşidilir, onlar da darıxıb-sahibi üçün, balası üçün, ailəsi üçün, həyəti üçün...

***...Hamı qohum, hamı doğma deyilmi,***
***Məni çəkən o bir loxma deyilmi.***
***Verin mənə kiçik, daxma evimi,***
***Dəyər neçə sarayına kəndimin.***

---

# Azərbaycan üzümünün faydaları

***Hazırda bağ-bağatlarda üzüm salxımları yetişib, adama "gəl-gəl" deyir. Mütləq hər mövsümdə üzüm yeməliyik, bəzən belə təzə-tər, bəzən də qurudulmuş, amma tərkibi daha da zənginləşmiş kişmiş formasında. İndiyə qədər faydalarını sadaladığımız bütün meyvə və tərəvəzlərdən ən faydalısı üzümdür! Niyə? -deyib sual edəcəksinizsə, mən bir-bir cavablandırım!***

### *Ampeloqrafiya nədir?*

Üzüm təbiətin yeganə nemətidir ki, ona xüsusi olaraq ampeloqrafiya elmi həsr edilib. Yunanca ampelos - üzüm, qrafo - yazıram deməkdir. Ampeloqrafiya üzüm, üzümün müxtəlif növ və sortları, onun xüsusiyyətlərinin ətraf mühit və insan amilinin təsirindən dəyişmə qanunauyğunluqlarını öyrənən elmdir. XIX əsrin əvvəllərindən bir elm kimi inkişaf etməyə başlayıb. İlk dəfə ampeloqrafiya terminini 1661-ci ildə elmə gətirən polşalı təbiətşünas Filip Yakov Saks onun banisi hesab edilir. Ampeloqrafiyanın elmi əsasını ispan alimi Simon de Roxas Klemente işləyib. Xüsusilə də xroniki xəstəliklərin müalicəsində üzüm və onun təzə sıxılmış şirəsindən istifadə ampelotepiya adlanır. Ampeloterapiya dietoterapiyanın bir hissəsi olub, həkimin təyinatı əsasında medikamentoz müalicə, dietoterapiya və ya klimatoterapiya ilə birgə tətbiq edilir.

### *Üzümün tarixi*

***Azərbaycan ərazisində hələ qədim zamanlardan üzümçülük inkişaf edib və çoxsaylı tarixi məlumatlar bunu təsdiqləyir. Hələ 1962-ci ildə Ağstafa rayonunda, Şomutəpə ətrafında (e.ə. V-IV əsrlərə aid tarixi abidə) aparılan arxeoloji qazıntılar zamanı müxtəlif bitkilərə, o cümlədən üzüm toxumlarına rast gəlinmişdi. Bu tapıntılar sübut edirdi ki, Azərbaycanda mədəni üzümçülüyün ən azı 7 min illik tarixi var.***

Bu fakt italiyalı alim, arxeoloq və paleontoloq Lorense Konstantini tərəfindən də təsdiqlənib. O, Xəzəryanı regionlarda, o cümlədən Azərbaycanda vəhşi flora ilə bağlı araşdırmalar aparıb, Şomupətə yaxınlığında mədəni üzüm toxumlarını da məhz o tapıb. Əsrlər boyunca Azərbaycanda məhz üzümçülük əkinçiliyin əsasını təşkil edib, xalqın iqtisadi rifahının əsas mənbələrindən biri olub. Hətta rəvayətə görə, Makedoniyalı İsgəndərin ordusu Bərdə şəhərini və ətrafı mühasirəyə aldıqda hökmdar Nüşabə ilə razılığa əsasən, yerli əhalidən yığılan verginin bir hissəsi şərabla dəyişdirilib. Səyyah tacirlər ən yaxşı üzüm növlərini uzaq ölkələrə aparıblar. Səyyah coğrafiyaşünas Adam Oleari yazırdı ki, Həştərxana ilk üzüm kollarını azərbaycanlı, daha dəqiqi, şirvanlı tacirlər gətirib. O, Azərbaycan haqqında xatirələrində burada bitən üzüm növlərinin çoxluğundan bəhs edir və təxminən, 600 üzüm növü sadalayırdı.



### *Üzümün meyvəsi, yarpağı, zoğu, tumu və kişmiş...*

***Üzümun tərkibində olan şəkər, qlükoza və fruktoza əzələ sistemi, xüsusilə ürək əzələsi üçün ən qiymətli qida maddəsidir. Qlükoza insan orqanizmində toxumaların oksigeni mənimsəməsini yüksəldir və bakteriyaları məhv etmək qabiliyyətinə malikdir. Bir cox yoluxucu xəstəliklərin əmələ gəlməsinin qarşısını alır.***

Üzümun tərkibində olan dəmir qida əmələ gətirən orqanların fəaliyyətinə və oksidləşmə prosesinə yaxşı təsir göstərir. Üzüm bağırsaqda və qaraciyərdə toplanan zəhərli maddələri zərərsizləşdirir, qanda sidik cövhərini azaldır və orqanizmdə duzların toplanmasına mane olur. Üzüm suyu "Borjomi" və qələvi xüsusiyyətli mədən sularından geri qalmır, hətta onlardan bir qədər ustun sayılır. Üzüm və üzüm şirəsinin uşaqların qidasında əhəmiyyəti böyükdür. Üzüm şirəsi bəlğəmgətirici təsirə malikdir. Ondan tənəffüs yolları xəstəliklərində də geniş istifadə edilir. Eyni faydalar üzümün qurudulmuşu olan kişmişdə də var. Üzümün təkcə meyvəsi deyil, yarpağı, zoğu, tumu da qida kimi istifadə olunur. Üzümün maraqlı xüsusiyyətlərindən biri də odur ki, qurudulduqdan sonra qida dəyərinin artmasıdır. Üzüm qanın turşuluğunu azaldır, onu saflaşdırır. Çox az halda üzüm yeyənlər xərçəng xəstəliyinə tutulur. Şirəsi çox faydalıdır, tərkibindəki şəkər qana tez sorulur. Şirəsini içməklə bədəndəki zəhərli və zərərli maddələri çıxarmaq mümkündür. Qan azlığı, qanın yağlılığının çoxluğu, ürək xəstəlikləri və zəiflik hallarında üzüm faydalı sayılır. Sidikovucu, öd ifrazını tənzimləyən, həzmə kömək edən, mədə qıcqırmasının qarşısını alan, böyrək və sidik kisəsində daşlanmanın qarşısını almaq xüsusiyyətləri də var.

Qan damar xəstəlikləri, qan təzyiqi olanlara üzüm yemək məsləhətdir. Hamilə qadınlar sağlam körpə dünyaya gətirmək üçün bolluca üzüm yeməlidirlər. Üzüm rəngi yaxşılaşdırır, dərini saflaşdırır. Üzüm və tumu güclü antioksidantdır. Üzümü tumlu yemək insana arıqladıcı, tumsuz yemək isə kökəldici təsir edir.

**Yaşlanma təsirlərini azaldır. Dəriyə yaxşı təsir edir. Bu səbəblə bu gün bazarda olan bir çox kremin tərkibində üzüm var. Beyin hüceyrələrini bəsləyir. Xərçəngin meydana gəlməsinin qarışısını alır. Böyrək və bağırsaqların işini asanlaşdırır. İnfarkt riskini azaldır. Tərkibindəki yüksək kalium, şişazaldıcı xüsusiyyətindən dolayı, yüksək təzyiqin salınmasında köməkçidir. Üzümün içindəki antioksidanlar, revmatizmin meydana gəlməsində böyük rol oynayan fermentləri neytrallaşdırır.**

**Əntiqə Rəşid**

# "Çox şey kadr arxasında baş verir" - Qalmaqallardan danışdı

***Onun həyatı muğama bağlıdır. O, musiqi ilə yaşayır, bir an olsun belə, özünü incəsənətdən kənar təsəvvür edə bilmir. "Ədalət" qəzetinin bu dəfəki qonağı xanəndə Almaxanım Əhmədlidir.***

**-Necə oldu ki, muğama həvəsiniz yarandı?**

-Bu sualı bir çox müsahibələrimdə cavablandırmışam, amma yenə də aydınlıq gətirim. Musiqiyə, muğama həvəs ailədə formalaşır. Mənim ailəmdə başqa janrda musiqilər dinləsəydilər, muğamı sevməsəydilər, bəlkə, mən də sevməzdim.

Atam muğamı, görkəmli sənətkarlarımızı çox dinləyib. İstər Qulu Əsgərov, Rübabə Muradova, istərsə də Niyaməddin Musayev atamın dinlədiyi sənətkarlar olub. Milli musiqiləri ailəm sevdiyinə görə məndə də həvəs yaranıb.

**-Almaxanım Əhmədli qərar qəbul edəndə ailə ilə məsləhətləşir, yoxsa?**

-Təbii ki, ailəmlə məsləhətləşirəm. İstər atamla olsun, istərsə də anamla məsləhətləşirəm. Daha çox atamın tövsiyyələrini dinləyirəm.

**-Deyirlər ki, siz atanızın ən sevimli övladısınız...**

-Elə deyil. Sadəcə ola bilsin ki, mən üzdə olan birisiyəm, incəsənətdəyəm, ona görə elə düşünürlər. Məndən böyük qardaşım da var və atam hər ikimizə eyni dərəcədə sevgi göstərir.

**-Adətən atalar qızlarına, qızlar isə atalarına bağlı olur. Bəlkə, bundan irəli gəlir?**

-Xeyr, dediyim kimi, mən muğam sahəsindəyəm, atamla tez-tez görünürəm deyə belə bir fikir formalaşıb. Valideyn üçün hər bir övladı əzizdir.

**-Dəfələrlə sizinlə danışanda vurğulamısınız ki, özümü hələ xanəndə kimi qəbul edə bilmərəm. Səbəb?**

-Xanəndə kəliməsi bir az ağır kəlimədir, xanəndə olmağın mərhələləri var.



**-Uğurlarınızı qısqananlar var?**

-Əlbəttə, hər bir sahədə olduğu kimi bizim də sahədə var və bu təbiidir. Uğurlarımı tez-tez qısqanırlar.

**-Muğam elə bir sənətdir ki, orada hər şey üzdə baş vermir...**

-Bəli, çox şey kadr arxasında baş verir. Hansısa bir inciklik olursa, problem varsa, bu tamaşaçıya göstərilmir. Efirdən kənar həll olunur, səhnə arxasında qalır.

**-Küsülü olduğunuz həmkarınız var?**

-Şükürlər olsun ki, xeyr, mən elə bir insanam ki, hamı ilə yola gedirəm.

**-Digər janrlarda da mahnılar ifa edirsiniz. Muğam, yoxsa onlar?**

-Bunları bir-birindən ayırmaq düzgün olmaz. Hər janrın öz dinləyicisi var.

Düzdür, muğam müsabiqəsi mənə populyarlıq gətirib, amma digər janrlarda da oxuyuram. "Kütləyə işləmək" kimi bir ifadə var.

Çalışıram, hər kütləyə uyğun mahnılar ifa edim ki, tək muğamda deyil, başqa janrlarda da irəli gedə bilim.

**-Demisiniz ki, şou-biznes mənlik deyil. Məndə belə bir sual yaranır, niyə sizlik deyil və nə olub şou-biznesə?**

-Şou-biznesə heç bir şey olmayıb, sadəcə muğam sənəti bir az ağır sənət olduğu üçün qalmaqallardan həmişə uzaq olmuşuq. Şou-biznes qalmaqallı səhədir, buna görə deyirəm ki, şou-biznes mənlik deyil.

**-Amma qalmaqallar sizin sahədə də var...**

-Olsa da, üzə çıxmayıb *(gülür)*. Muğam sahəsində qalmaqallar çox az hallarda baş verir.

**-Karantindir, işləriniz hazırda nə yerdədir?**

-Hamıda necə, bizdə də elə. Karantinin ilk vaxtlarında bir neçə ay evdə oturduq. Studiyalar bağlı olduğu üçün mahnılarımı aranjiman etdirə bilməmişdim. Həmin mahnıları aranjiman etdirməyə təzə-təzə başlamışam. Yaxın günlərdə təqdim edəcəm.

**-Bəlli ki, siz də toylarda ifa edib, gəlir əldə edirdiniz. Karantin müddətidir və toylar yoxdur. Bu maddiyyata təsir edir?**

-Mən Azərbaycan Dövlət Televiziyasının solistiyəm. Həmçinin, Beynəlxalq Muğam Mərkəzində solist kimi çalışıram. Gənc kimi hər iki yerdən aldığım məvacib məni qane edir. Amma bu pulla da kifayətlənmək olmaz, ifaçılar daha yaxşı bilər, hansısa bir mahnını ərsəyə gətirmək üçün ən azı 1500-2000 manat tələb olunur. Buna görə məcburuq ki, toylara gedib pul qazanaq.

**-Müsahibələrinizdən birində demisiniz ki, toylardan o qədər də pul əldə etmirəm. Çünki getdiyim məclislərin çoxsu tanışların olur...**

-Tam da belə deyil. Tanışlar olur ki, zəng eləyəndə qırmıram və gedib təmənnasız ifa edirəm. Amma pullu məclislərimdə olur. Maddiyyatsız yaşamaq olmaz axı *(gülür)*.

**-Hər kəsin dilində belə bir ifadə var, "bayağı mahnılar". Almaxanım Əhmədlinin fikrincə, bayağı mahnılar hansılardır?**

-Qeyri-peşəkar bəstələnmiş mahnılar demək olar onlara. Fikrimcə, təqdimat daha önəmlidir. Hər hansısa bayağı bir mahnı yaxşı, peşəkar musiqiçilərin müşayiəti ilə təqdim olunsa, düşünürəm, o, bayağılıqdan çıxar.

**-Müsahibəmizi sizin ifanızda mənim sevdiyim bir mahnı-"Qal sənə qurban" ilə yekunlaşdırmaq istərdim...**

***-Getmə kimsəsizəm, qal sənə qurban,***
***Ömürlük həmdəmim, ol sənə qurban.***

**-Çox sağolun ki, vaxtınızı ayırıb müsahibə verdiniz.**

-Siz sağolun.

**Rövşən Tahir**

# 63 yaşlı Gevorq Türkərin "Şöhrət"i və erməniəsilli türk aktyorları

**Türkiyə tamaşaçılarının sevə-sevə izlədiyi serial və filmlərin bir çoxunda rol almış aktyor Gevorq Türkərin doğum günüdür. 1 Eylül 1957-ci ildə İstanbulda doğulub. Adalet.az xəbər verir ki, milliyətcə erməni olan Gevorq İstanbul Dövlət Mühəndislik və Memarlıq Akademisının məzunu olub. O həm də tələbəykən həvəskarkimi teatrlarda çalışıb. Sonraları çalışmalarını profesional müstəviyə keçirə bilib. Çəkildiyi bəzi seriallardan "Kınalı Kar", "Büyük yalan", "Şöhret", "Affedilmeyen", "Tutsak", "Süper Babaanne", "Küçük Kadınlar", "Aşk yakar", "Muhteşem Yüzyıl" və başqalarını göstərmək olar.**

Məşhur erməni hazırda 63 yaşını tamam edir. Yaradıcılıq uğurları ilə





bağlı həm Türkiyədə, həm də Ermənistanda məşhur sima hesab olunur.

Qeyd edək ki, Türkiyə mədəniyyət və incəsənətində Gevorq Türkər ilk erməni deyil. Beləki, "Yeşilçam" filmlərində canlandırdıqları rollarla həm Türkiyənin, həm də Azərbaycanın böyük rəğbətini qazanan, türk sinemasının və ekranların ən sevimli aktyorlarının bir çoxu ermənilərdir.

Lakin bir çoxlarımız onların erməni əsilli olduqlarını bilmirdik deyə çox sevirdik. Elə isə türk bilib sevdiyimiz erməniləri siz də tanıyın.

**Bu da "Yeşilçam"ın erməni əsilli aktyorları:**

**Adilə Naşit (Adela Özcan)-** "Yeşilçam"ın sevilən aktrisası, hər kəsin Hafize ana deyərək tanıdığı Adilə Naşitin əsl adı Adeladır. O, 1930-cu il iyunun 17-də İstanbulda anadan olub. Atası Naşit Özcan mənşəcə Rum, anası Amaliya isə erməni idi. Adilə ilk dəfə 1948-ci ildə "Lüks Həyat" komediyası ilə karyerasına başlayır. Onun aktyor karyerasının zirvəsi 1975-ci ildə "Hababam Sınıfı" filmindəki Hafize ana rolu hesab olunur. Populyar filmin davamı olaraq çəkilən 1976-cı ildə "Hababam Sınıfı Sınıfda Kaldı", 1977-ci ildə "Hababam Sınıfı Uyanıyor" və 1978-ci ildə "Hababam Sınıfı Tatilde" , 1979-cu ildə "Hababam Sınıfı Dokuz Doğuruyor", 1981-ci ildə "Habab Sınıfı Güle Güle" onun uğurunu daha da möhkəmləndirir. O, 1987-ci ildə 57 yaşında bağırsaq xərçəngindən dünyasını dəyişir.

**Kənan Pars (Kirkor Cezveciyan)-** Aktyor 1920-ci il martın 10-də İstanbulda anadan olub. O, karyerasına 1953-cü ildə başlayıb. Kənan Pars 50 il davam edən kino karyerasında 500-ə yaxın filmdə yer alıb. Oynadığı çoxsaylı filmlərlə yanaşı 6 filmə rejissorluq edib. 1961-1966-cı illər ərzində çəkilən "Oğlum", "Derdimden anlayan yok", "Cinayet gecesi" və "Aklin Durur" daha çox detektiv janrına yaxın idi. Filmlərin tamaşaçılar arasında uğur qazanmaması onu rejissorluqdan soyumasına səbəb olur. Mavi ekranda sərt xarakterli cani rollarını mahir yaradan aktyor bundan əlavə teatr tamaşalarında da rol alırdı. O, müsahibələr zamanı ona verilən "Siz ermənisiz?" sualına hər zaman, "Mən Türkəm, Krikor Cezveciyan sadəcə mənim kimlikdəki adımdır. Evimdə 80-dən çox Atatürkün şəkli var" - deyərək cavab verirdi. Aktyor 2008-ci il ildə anadan olduğu tarixdə vəfat edərək, Bakırköy erməni məzarlığında dəfn edilib.

**Sami Hazinsəs (Samuel Agop Uluçyan)-** Erməni əsilli aktyor Sami Hazinses 1925-ci ildə Diyarbəkir şəhərində anadan olub. 1953-cü ildə çəkilən "Qara Davud" filmi ilə diqqəti cəlb edən aktyor 140 filmdə yer alıb.

Daha çox gülməli rolları ifa edən S.Hazinses bundan əlavə bəstəkarlıqla da məşğul olurdu. Onun "Bir dilbərə mübtəladır dəli könlüm" adlı mahnısı Türkiyənin ən məşhur müğənnilərindən olan Zəki Müren tərəfindən ifa edilmişdi. Bundan əlavə Müslüm Gursəsvəİbrahim TatlısəsdəS.Hazinsesin bəstələdiyi mahnılara öz repertuarında yer veriblər.

O, 2002-ci il avqustun 23-də vəfat edib. Yas mərasimi "Kadıköy Surp Takavor" kilsəsində baş tutduqdan sonra Həsənpaşa erməni məzarlığında dəfn edilib.

**Vahi Öz (Vahe Özinyan) -** 3 noyabr 1911-ci ildə dünyaya gələn Vahi Öz mənşəcə erməni əsillidir. İlk dəfə 1928-ci ildə "Samsun Genclik Mahfeli"də səhnəyə çıxıb. 1938-1945 illərində "Ankara Radyo"da işə başlayıb. 1947-ci ildə isə ilk dəfə "Bir Dağ Masalı" filmdə aktyorluq edib. Vahi Öz karyerası illərində aktyorluqdan əlavə rejissorluqla da məşğul olub. O, 12 fevral 1969-cu ildə xərçəng xəstəliyindən vəfat edib.

**Nubar Alyanaq (Nubar Terziyan)-** 1909-cu ildə İstanbulda anadan olan Nubar Terziyan erməni əsilli Türk aktyorlarındandır. O, 200-dən artıq filmdə çəkilib. Aktyor daha çox ikinci dərəcəli rolları ifa edib. 1951-ci ildə "Əfsuncu Baba", 1954-cü ildə "Kaçak", 1967-ci ildəki "Cici Gəlin" komediya filmləri xüsusilə uğurlu alınıb. 1974-cü ildə "Kismet", 1975-ci ildə "Delisin" musiqili komediya filmləri onun şöhrətini daha da bərkidib. Mehriban, nurani qoca rolu aktyorun karyerası boyu tez-tez yaratdığı obraz idi. Qoca yaşlarına qədər dayanmadan kinoya çəkilən aktyorun 1988-ci ildə sonuncu filmi "Biz ayrılmalıyız" olub.

O, 1994-cü il yanvarın 14-də dünyasını dəyişib. Nubar Terziyan "Balıklı" erməni qəbiristanlığında dəfn olunub.

Qeyd edək ki, aktyor hə zaman erməni əsilli olmağı ilə fəxr etdiyini bildirirdi.

**Əhməd Danyal Topatan (Danyal Bayriyan)-** Əhməd Topatan 1916-cı ildə Tarsusda anadan olub. Erməni mənşəli aktyor 1953-cü ildə "Drakula İstanbulda" filmi ilə karyerasına başlayıb. İlk filmi isə 1950-ci ildə çəkilən "Çete" olub.

Aktyorluğa gec yaşda başlayan Əhməd Topatan daha çox ciddi görkəmli, təmkinli caniləri canlandırıb. 1964-cü ildə "Topqapı", 1965-cui ildə "Son darbe", 1967-ci ildə "Krallar ölmez" və 1971-ci ildəki "İntiqam kartallı" filmləri onun yaradıcılığına diqqəti daha da artırıb. 100-dən artıq filmdə rol alan.Topatan, 1975-ci il iyunun 26-da 59 yaşında xərçəng xəstəliyindən dünyasını dəyişib. Aktyor İstanbulda dəfn olunub.

**Əntiqə Rəşid**

# "Kirayə pulunu verə bilmirəm" - Əməkdar artist dilə gəldi

**"Hazırda kirayə qaldığım evin pulunu verə bilmirəm. Onsuz ev yiyəsi də istəmir, çünki bilir ki, imkanım yoxdur. Sizə deyim ki, kirayəyə çıxmamışdan öncə dostumun evində qalırdım. Düşündüm ki, nə qədər qala bilərəm? Özümə ev axtarmağa başladım. Amma o evi tapana qədər 3 gün maşında gecələdim".**

Bu sözləri Respublikanın Əməkdar artisti Cavanşir



Hadıyev Adalet.az saytına açıqlamasında deyib:

"2010-cu ildə boşanana qədər 1 otaqlı evim olub. Həyat yoldaşımdan ayrıldıqdan sonra evi onunla qızıma verib tərk etdim.

Rus Dram Teatrına ərizə ilə müraciət etdim ki, məni işə götürsünlər, 1 ildir ki, heç bir səs-səmir yoxdur. Bax Əməkdar artist bu gün bomj həyatı yaşayır".

**Rövşən Tahir**

# "Xəzər TV-nin adından istifadə ediblər"

## Murad Dadaşov Elnarə Abdullayevaya zəng etdi

**Əməkdar artist Elnarə Abdullayevanın 100 manat cərimə olunması və Xəzər televiziyası ilə arasında baş verən qalmaqal gündəmi zəbt edib.**

Adalet.az saytı olaraq xanəndənin özü ilə əlaqə saxlayıb Xəzər TV-nin ondan üzr istəyib-istəməməsi ilə maraqlandıq:

"O gündən əsəblərim yerində deyil. Məni aldadıblar, həmin gün məni çəkilişə aparanlar Xəzər TV-nin rəsmi əməkdaşları deyilmiş, onlar Xəzər TV-nin adından istifadə ediblərmiş. Rəhbərlik mənimlə əlaqə saxlayıb həmin



şəxslərin Xəzər TV-nin işçiləri olmadığını söylədi. Sən demə, onlar hansısa pradakşın əməkdaşları imiş. Mən nə bilim, kim haranın işçisidir?"

Xatırladaq ki, Elnarə Abdullayeva Şamaxıya gedərkən postda saxlanılmış və 100 manat cərimə olunmuşdu. Sonradan mediaya açıqlama verən xanəndə baş verənlərin səbəbkarı kimi Xəzər TV-ni günahlandırmışdı. Elnarə Abdullayevanın sözlərinə görə, onu çəkiliş üçün Şamaxıya Xəzər TV-nin əməkdaşları aparırmış və ona icazə aldıqlarını bildiriblərmiş. Lakin postu keçmək istəyərkən xanəndə saxlanılıb və cərimə olunaraq geri qaytarılıb.

**Rövşən**

# Müəmmalı ölümdən 23 il keçir

**İngiltərə kral ailəsinin ən tanınmış üzvü olan Şahzadə Diana 1 iyul 1961-ci il, Park-Hausda anadan olub. Ailənin 3-cü qız övladı olduğuna görə valideynləri Dirananın dünyaya gəlişinə sevinməyiblər. Hətta "The Times" qəzeti Diananın doğulmasını böyük reportaj şəklində deyil, bir cümlə ilə İngiltərə əhalisinə çatdırıb: "Spenserlərin şənbə günü daha bir qızı doğulub". Buradan bir daha bəlli olur ki, ailəsi Dianani qız olduğuna görə qəbul etmək istəmirmiş.**

Diana fitri istedada malik bir uşaq idi. Hər zaman ətrafındakı insanlara qarşı həssas və diqqətcil olan bu qız heç vaxt insanları milliyətinə, irqinə, sosial vəziyyətinə görə bir-birindən ayırmazdı. Bir sözlə, o, fərqli xarakterə malik insan idi.

Təhsilini İsveçrədə alıb İngiltərəyə qayıdan Diana orada uşaq baxçasında tərbiyəçi kimi çalışıb. Onun Şahzadə Çarlz ilə tanışlığı hələ 16 yaşında olarkən atası evində baş tutub. Bu zaman Çarlz Dirananın bacısını sevirmiş. İngilis taxt-tacının sahibi



Çarlz qızların diqqətini hər zaman cəlb edirdi. Hətta İngiltərə mətbuatı tez-tez müxtəlif şəxslərin Çarlzın sevgilisi olması barəsində xəbərlər yayırdılar. Lakin ana-kraliça oğluna gözəl bir qız axtarırdı və bu xanım Diana oldu. 1978-ci ildə baş tutan möhtəşəm toy tədbirində Diana ana-kraliçanın nəzərinə çarpır və o, tezliklə Çarlzla ailə həyatı qurur. Toy günündən sonra darıxmağa başlayan Diana sonralar başqa kişilərlə sevgi münasibəti yaşayır. Müsahibələrindən birində "Bu nikahda həmişə biz 3 nəfər idik" söyləyən Diana bu cümlə ilə sanki Çarlza deyil, başqa şəxslərə olan sevgisini sətiraltı olaraq bildirmişdir. Artıq 1992-ci ildə Çarlz və Diana bir-birindən ayrı yaşayırdılar, 1995-ci ildə isə onlar rəsmi şəkildə boşanırlar. Onun Çarlzdan ayrılması kral adına ləkə gətirən bir addım kimi qiymətləndirilir.

Diana 1997-ci il 31 avqust tarixində avtomobil qəzasında dünyasını dəyişir. Onun ölümü bütün dünya ictimaiyyətinə müəmmalı qalır. Belə güman edirlər ki, Diana keçmiş həyat yoldaşı Çarlzın sifarişi ilə öldürülüb.

**Dünyasını dəyişməsinə baxmayaraq o, ölümündən sonra da unudulmur, haqqında dövri mətbuatda yazılar dərc olunur.**

**Rövşən Tahir**

## *"Qarabağ"ın ÇL-də növbəti rəqibi bilindi*




**UEFA Çempionlar Liqasının III təsnifat mərhələsində "Qarabağ"ın rəqibi müəyyənləşib.**

**Azərbaycan çempionunun bu mərhələdəki rəqibi Norveçin "Molde" klubu olub.**

**Qeyd edək ki, "Qarabağ" bu rəqibi ilə 15-16 sentyabrda qarşılaşacaq.**

**"Qarabağ" rəqibini Bakıda qəbul edəcək.**

## *"Neftçi" "Qalatasaray"a rəqib oldu*

**"Neftçi"nin UEFA Avropa Liqasının II təsnifat mərhələsindəki rəqibi bəlli olub.**

**İsveçrənin Nyon şəhərində keçirilən püşkatma nəticəsində bakılılar Türkiyənin "Qalatasaray" klubu ilə rəqib olub.**

**Oyun sentyabrın 17-də Bakıda keçiriləcək.**

Samux rayonu Hacıalılı kənd sakini Bağırova Almas İsmayıl qızının adına 29.01.2016-cı ildə verilmiş 1516000203 №-li ərizəyə əsasən 507013027909 saylı dövlət qeydiyyat reyestr çıxarışı itdiyi üçün etibarsız sayılır.

***

Samux rayonu Hacıalılı kənd sakini Bağırova Almas İsmayıl qızının adına 29.01.2016-cı ildə verilmiş 1516000202 №-li ərizəyə əsasən 507013027670 saylı dövlət qeydiyyat reyestr çıxarışı itdiyi üçün etibarsız sayılır.

***

Astara Şəhər sakini Məmmədova Gülxar Mirzəqə Qızına 2 İyul 1998-ci il 18 saylı qərara əsasən verilmiş torpağın mülkiyyət hüququna dair plan və ölçüsü itdiyi üçün etibarsız sayılsın.

***

Quba rayonu Aqrar İslahat Komissiyasının 03 may1997-ci il tarixli 04 nömrəli qərarı ilə Quba rayonu Amsar kənd sakini Şeydayeva Xumar Şixmurad qızının adına verilmiş Azərbaycan Respublikası Torpaq Mülkiyyət Hüququna dair JN-756 Kod 30307018 Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.

***

Lerik rayon Bibiyanı kənd sakini Qubadov Qubad Sabir oğluna torpağın mülkiyyət hüququna dair verilmiş dövlət aktı (JN-0078 kod 80305098) itdiyi üçün etibarsız sayılsın.

***

Lənkəran rayonu Biləsər kənd sakini Fərziyev Fərzi Nəhmətulla oğluna 18 iyul 1998-ci il 11 saylı qərarı ilə verilmiş torpağın mülkiyyət hüququna dair dövlət aktı (JN-175 kod 80208018) itdiyi üçün etibarsız sayılsın.

***

Rzayev Əhsəm Balarza oğlunun adına verilmiş Sabunçu rayonu, Balaxanı qəsəbəsi, M.Ə.Sabir 4-də yerləşən mənzilin 110601639 saylı Çıxarışı itdiyi üçün etibarsız sayılır.

***

Hüseynov Ramiz Zikir oğlunun adına verilmiş Əfqanıstan Müharibəsi Veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

***

Səfərəliyev Natiq Məmməd oğlunun adına verilmiş Bakı şəhər, Nərimanov rayonu F.Yusifov küçəsi 37, mənzil 59 ünvanının Qeydiyyat vəsiqəsi (seriya 244870) itdiyi üçün etibarsız sayılır.

***

Beyləqan rayon Magistral küçəsi 20-də yerləşən "Beyləqanbazar" ATSC-yə məxsus emisiya prospekti sənədi itdiyi üçün etibarsız sayılır.

***

Qasımov Qasım Hüseynağa oğluna məxsus Suraxanı rayon Hövsan qəsəbəsi, H.Quliyev küçəsi bina 22, mənzil 17 ünvanının Çıxarışı itdiyi üçün etibarsız sayılır.

***

Rzayev Yaşar Məmməd Tağı oğluna məxsus Bakı şəhəri, Səbail rayon, İ.Səfərli küçəsi 5 ünvanıda yerləşən qeyri-yaşayış sahəsinə verilmiş 000401 saylı Şəhadətnaməsi itdiyi üçün etibarsız sayılır.

Əbülfət Mədətoğlu "Azərbaycan" nəşriyyatının əməkdaşı **İradə Ələsgərovaya** anası

**TOFİQƏ xanımın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Təsisçi və baş məsləhətçi:
Aqil ABBAS

Baş redaktor:
İradə TUNCAY

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Azərbaycan" Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h VÖEN 9900003611
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N:
AZ42AIIB38070019441100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
Telefon: 538-05-50, 538-51-31. 434-55-98
Faks: 539-80-26
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az

Tiraj: 2000
Sifariş: 22
Çapa imzalanmışdır: 31.08.2020